Xalqın qəzeti!

Xalq qəzeti

№ 64 (30758) 4 aprel 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

Farmazonluq

Yaxud AİB binoklularının 5 mininci cəhdi

Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfindən fəaliyyət göstərən mülki müşahidə missiyasının qurumun 5 mininci patrulu həyata keçirməsinə dair şəkilli paylaşımını farmazonluq hesab etmək olar. Missiyanın gerçək mahiyyəti barədə söz açacağıq. Əlbəttə, digər əlaqəli məqamlara da toxunmaqla.

Əvvəlcə onu bildirək ki, EUMA abreviaturalı təsisatın rəsmi adı AİB-nin Ermənistandakı monitorinq missiyasıdır. Qurum 2023-cü ildən fəaliyyətdədir. Missiyanın yaradılması təşəbbüsü isə 2022-ci ilin oktyabrında irəli sürülüb. Təşəbbüsün müəllifi Fransadır.

AİB-nin müşahidə missiyasının əvvəlcə iki ay müddətinə fəaliyyət göstərəcəyi nəzərdə tutulmuşdu. Sonradan 2 il oldu. 2025-ci ildən isə daha iki il müddətinə uzadıldı. Görünür, bu "xəmir" hələ çox su aparacaq. Çünki belə bir təsisatın mövcudluğu Cənubi Qafqaza kənar "oyunçuların gətirilməsi" deməkdir. Bunun yolverilməzliyi təkcə Azərbaycan deyil, regiona tarixi bağlılığı olan digər ölkələr tərəfindən də vurğulanıb və vurğulanmaqdadır. Amma Paris, eləcə də onun Qərbdəki ermənipərəst "peykləri" təxribatçı əməllərindən geri durmaqdan uzaqdırlar.

Ayrıca onu bildirək ki, Azərbaycan lap əvvəldən AİB-nin müşahidə missiyasına etirazını bildirib, qurumun mənasızlığını və ziyanlı mahiyyətini vurğulayıb. Ən əsası isə rəsmi Bakının qətiyyəti sayəsində Azərbaycan – Ermənistan sülh müqaviləsinin mətninə regionda kənar qüvvələrin olmamasına dair bəndin salınması təmin edilib. Bu bənd avropalı müşahidəçilərə də aiddir. Ancaq Ermənistan iqtidarının bildirdiyi odur ki, AİB-nin missiyası fəaliyyətini yalnız sülh müqaviləsi imzalandıqdan sonra başa vuracaq. O müqavilə ki, hazırda rəsmi İrəvan onun imzalanması ilə bağlı Bakının irəli sürdüyü iki haqlı şərti yerinə yetirməkdən boyun qaçırır. Deməli, Fransanın dəstəklədiyi təsisata "ehtiyac" var...

(ardı 3-cü səhifədə)

Arzunuz gözünüzdə qalacaq!

Ermənipərəst konqresmenlər "yağlı tikə"dən əl çəkə bilmirlər

Məşhur alman filosofu İmmanuel Kantın sözüdür: İnsanlar vərdiş halını almış hərəkətlərinə görə xəcalət hissi keçirməyi unudurlar. Ortada maddi maraq olanda isə nə beyin praqmatik düşünə bilir, nə də göz ayağın altını görür. Çünki onların şüurunu və bədənlərini pul idarə edir...

Belələri hətta gördükləri işin səmərəsizliyini, fəaliyyətin faydasızlığını dərk etsələr belə köhnə vərdişlərindən əl çəkmək istəmirlər. Necə ki, ABŞ Nümayəndələr Palatasının ermənipərəst konqresmenləri nəticəsini əvvəlcədən bildikəri effektsiz və təxribatçı işlərlə, anti-Azərbaycan fəaliyyəti ilə məşğul olurlar.

* * *

Hayastan mediası yazır ki, ABŞ-da yaşayan erməni diasporunun fəalları Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün konqresmenlərlə görüşlərini davam etdirirlər.

Məlumatda qeyd olunur ki, onlar "Dağlıq Qarabağda etnik təmizləmə"yə görə ölkəmizin "beynəlxalq məsuliyyətə cəlb edilməsi üçün" bir aylıq kampaniyaya start veriblər. Amerika Erməniləri Milli Komitəsinin (ANKA) nümayəndələri bu kampaniya çərçivəsində konqresmen Tom Kin ilə görüşüblər.

(ardı 5-ci səhifədə)

Qarabağda dirçəlişin əhatəsi genişlənir

Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası sürətlə davam etdirilir.

Düşmən tapdağından azad olunan torpaqlarımızda həyatın canlandırılmasına Vətən müharibəsindən dərhal sonra başlanılıb və hər ilin sonunda adıçəkilən Dövlət Proqramı çərçivəsində görülən işlərinin monitorinqinin aparılması nəzərdə tutulub. Xatırladaq ki, bu layihənin gerçəkləşdirilməsi ölkə rəhbərinin imzaladığı müvafiq sənədlə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə (İİTKM) tapşırılıb. Yeri gəlmişkən, İİTKM tərəfindən Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası ilə bağlı 2024-cü il üzrə monitorinq prosesi artıq yekunlaşdırılıb.

Dövlət Proqramının icrasının monitorinq nəticələri barədə məlumat verən İİTKM-in sahəvi proqramların monitorinqi sektorunun müdiri Elşən Yusifli bildirib ki, tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 2024-cü ilin sonuna 62 min hektardan artıq ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Hesabat dövrü ərzində 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndləri, Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.

(ardı 8-ci səhifədə)

Sülhün iki şərti

Azərbaycan Milli Məclisinin deputatı, parlamentin Xarici əlaqələr komitəsinin sədri Səməd Seyidov ermənistanlı həmkarı, hakim "Vətəndaş sazişi" partiyasının təmsilçisi Sarkis Xandanyanı "populist" adlandırmaqda lap düz edib. Sarkis, sözün əsl mənasında, populistdir. Amma, bu, təkcə ona xas olan keyfiyyət deyil. Bütövlükdə, Ermənistan iqtidarı populistlərdən ibarətdir.

Xatırladaq ki, S.Xandanyan bir müddət əvvəl S.Seyidova sülh müqaviləsinin mətni ilə bağlı parlamentlərarası müzakirələr aparmağı təklif etdiyini demişdi. Cənab Seyidovun cavabını diqqətə çatdırdıq. Bir məsələ də var ki, özünün "populist" adlandırıldığını iddia edən Xandanyandır. Yəni, bilmək olmaz, azərbaycanlı deputat belə bir ifadəni işlədib, yoxsa yox. İkincinin məsələyə reaksiyası yoxdur. Əslində, reaksiya heç lazım da deyil. Həm də ona görə lazım deyil ki, S.Xandanyan "populist"in təhqir olmadığı qənaətindədir. Əlbəttə, Sarkis belə düşünə bilər.

Hələlik onu deyək ki, Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri olan bu şəxsin Prezident İlham Əliyev tərəfindən yenidən səslənmiş sülh müqaviləsi şərtlərinə münasibətindəki ayrı-ayrı tezislər cənab Seyidovun Xandanyan barədə çox yumşaq fikir bildirdiyini söyləməyə əsas verir. Yəni, Sarkis, əslində, təkcə populist yox, eyni zamanda, həyasızın yekəsidir. Problem ondadır ki, Ermənistanda iqtidar komandası, əslində, həyasızlar yığnağıdır.

(ardı 5-ci səhifədə)

"The Insider" də erməni lobbisinin toruna düşdü

THE INSIDER
РАССЛЕДОВАНИЯ. РЕПОРТАЖИ. АНАЛИТИКА.

Səhifə ⇨ 3

Dünya Bankının ölkəmizə "yaşıl" dəstəyi

Energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında iştirak məqsədilə Bakıda səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru, xanım Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə "XQ"yə Energetika Nazirliyindən məlumat verilib.

(ardı 7-ci səhifədə)

Rusiya–Ukrayna səmasında "dron buludu"

Səhifə ⇨ 11

Prezident İlham Əliyevə bayram təbrikləri

Hörmətli İlham Heydər oğlu!

Sizi şəxsən öz adımdan və Qırğızıstan xalqı adından Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Novruz qədim zamanlardan birlik və barışıq, sülh və tərəqqi rəmzi olub.

Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri xalqlarımızın və dövlətlərimizin rifahı naminə bundan sonra da möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

Sadır JAPAROV,
Qırğız Respublikasının Prezidenti

***

Zati-aliləri!

Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi və Azərbaycan Respublikasının xalqını müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Qoy Ulu Tanrı müqəddəs ayda gördüyümüz bütün xeyirxah işlərimizi qəbul etsin və bu mübarək bayram əmin-amanlığımızı, xoşbəxtliyimizi artırsın. Bəşəriyyəti şəfqət və mərhəmətə aparan, yüksək dəyərləri əks etdirən bu bayram hər bir evə səadət və hüzur gətirsin, qardaş xalqlarımıza isə sülh və firavanlıq bəxş etsin.

Zati-aliləri, bir daha Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycan xalqına isə davamlı tərəqqi və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

Sadır JAPAROV,
Qırğız Respublikasının Prezidenti

***

Möhtərəm İlham Heydər oğlu!

Sizi Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Müsəlmanlar üçün mühüm əhəmiyyətə malik bu bayram müqəddəs Ramazan ayının başa çatmasını simvolizə edir və İslam dünyasında ən çox ehtiram göstərilən bayramlardan biridir. Bu bayram insanları mənəvi kamilliyə, mərhəmətə və şəfqətə dəvət edir.

Ramazan bayramı müxtəlif etnik və dini qruplar arasında qarşılıqlı anlaşmaya və əməkdaşlığa töhfə verərək insanları birləşdirir. Bu bayram millətlərarası həmrəyliyin möhkəmləndirilməsində və mədəni müxtəlifliyə hörmətin artırılmasında mühüm rol oynayır. Siz bu dəyərləri dövlətçilik fəaliyyətinizdə daim dəstəkləyirsiniz.

Azərbaycan Respublikasının inkişafı, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması və sabitliyin möhkəmləndirilməsi istiqamətində gördüyünüz işlər dərin hörmət və heyranlıq doğurur. Siz öz xalqınıza sədaqət və liderlik nümunəsi göstərirsiniz və bu, heç şübhəsiz, ölkənizin rifahına töhfə verir.

Bu əlamətdar bayram münasibətilə Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar, ölkənizə və xalqınıza davamlı sülh, harmoniya arzulayıram.

Hörmətlə,

İrina VİNER,
Rusiya Federasiyasının Əmək qəhrəmanı, Rusiyanın İctimai Palatasının Bədən Tərbiyəsi, İdman və Sağlam Həyat Tərzi üzrə Komissiyasının sədri

***

Zati-aliləri!

Bütün dünya müsəlmanlarının qeyd etdikləri Ramazan bayramı münasibətilə Sizə və dəyərli xalqınıza ən səmimi təbriklərimi çatdırmaq mənim üçün böyük şərəfdir. Allah-taaladan oruclarımızı, dualarımızı və xeyirxah əməllərimizi qəbul etməsini və İslam ümmətinin daha parlaq və təhlükəsiz gələcəyi üçün səylərimizdə bizə öz xeyir-duasını nəsib etməsini diləyirəm.

Hörmətli cənab Prezident, bu mübarək bayram münasibətilə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost ölkələrimizin davamlı olaraq inkişaf etməsini arzulayıram.

Bayramınız mübarək!

Dərin hörmət və ehtiramla,

Əbdülfəttah əs-SİSİ,
Misir Ərəb Respublikasının Prezidenti

***

Zati-aliləri!

Müqəddəs Ramazan bayramı münasibətilə sizə təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu bayram dünyada insanlar arasında birlik və qardaşlıq ruhunun gücləndirilməsi üçün mühüm imkandır.

Sizə və sevdiklərinizə xoşbəxtlik və uğurlar arzulayıram.

Hörmətlə,

Tarman ŞANMUQARATNAM,
Sinqapur Respublikasının Prezidenti

***

Hörmətli cənab Prezident!

Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına firavanlıq bəxş etməsi üçün Uca Allaha dua edirəm.

Bu fürsətdən istifadə edərək, xalqlarımızın rifahı və mənafeyi naminə ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi, mövcud əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün birgə fəaliyyətimizi davam etdirməkdə qəti qərarlı olduğumu Zati-alinizə bir daha bildirməkdən məmnunam.

Ulu Tanrı bizə və bütün İslam ümmətinə xeyir-bərəkət, firavanlıq nəsib etsin!

Hörmətlə,

Kays SAYİD,
Tunis Respublikasının Prezidenti

***

Zati-aliləri!

Ramazan bayramı münasibətilə Sizi öz adımdan və Sudan xalqı adından təbrik etməkdən böyük məmnunluq duyur və ən xoş arzularımı çatdırıram. Uca Allahdan Sizə möhkəm cansağlığı və bol ruzi-bərəkət diləyirəm.

Arzu edirəm ki, bu bayram qardaş ölkələrimizə və bütün müsəlman xalqlarına rifah, sülh, əmin-amanlıq gətirsin.

Ramazan bayramınız mübarək!

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

Abdel Fattah Al-Burhan Abdelrahman Al-BURHAN,
Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri

***

Mərhəmətli və Rəhmli Allahın adı ilə!

Hörmətli cənab Prezident!

Mübarək Ramazan bayramı münasibətilə ürəkdən gələn səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Qoy bu bayram hər bir müsəlman ailəsinə sevinc, sülh və xoşbəxtlik gətirsin, insanların qəlbini xeyirxah işlərin görülməsi üçün birlik və həmrəyliyi gücləndirmək, müqəddəs ayda qazanılan savabları qoruyub saxlamaq arzusu ilə doldursun! Ulu Tanrı bütün dualarımızı, oruclarımızı, xeyirxah əməllərimizi qəbul etsin, insanlar arasında qardaşlıq əlaqələrini möhkəmləndirsin!

Ölkələrimizə, xalqlarımıza və bütün ümmətimizə sülh, əmin-amanlıq və Uca Yaradanın sonsuz mərhəmətini arzulayıram.

Hörmətlə,

Ramzan KADIROV,
Rusiya Federasiyasının Çeçenistan Respublikasının başçısı

*

Möhtərəm cənab Prezident!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi çatdırıram.

Ramazan ayı insanların qəlbini və düşüncəsini nurlandıran, onları birlik, mənəvi saflıq və əxlaqi dəyərlərə dəvət edən mübarək aydır. Bütün İslam aləmi, o cümlədən Türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən bu müqəddəs bayram Türk Dövlətləri Təşkilatının əsas prinsiplərindən olan birlik, sülh və qardaşlıq dəyərlərini təşviq edir.

Bu əlamətdar bayram münasibətilə Zati-alinizə və dost, qardaş Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik və rifah diləyirəm.

Dərin hörmətlə,

Kubanıçbek ÖMÜRALIYEV,
Türk Dövlətləri Təşkilatının Baş katibi

*

Möhtərəm cənab Prezident!

Sizi və bütün Azərbaycan xalqını müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan xalqı digər bayramlar kimi Ramazan bayramını da böyük ruh yüksəkliyi ilə qeyd etdi.

Sizin ardıcıl siyasətiniz və qətiyyətiniz bütün məsələlərdə özünü göstərir. Əminəm ki, Zati-alinizin Azərbaycan xalqının dəyərlərinə əsaslanan uğurlu siyasəti sayəsində ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini daha da möhkəmləndirəcəkdir.

Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Dərin hörmətlə,

Asəf HACIYEV,
Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi

*

Hörmətli İlham Heydər oğlu!

Novruz bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu bayram təbiətin oyanmasının, sülh, birlik və əmin-amanlıq yolunda insanlar arasında əlaqələrin möhkəmlənməsinin rəmzidir.

Ənənələrlə və dərin məna ilə dolu bu parlaq bayram müasir dünyada xüsusilə aktual olan qarşılıqlı anlaşmanın, bir-birinə hörmət və dəstəyin vacibliyini xatırladır. Yenilənmə, dirçəliş və yeni həyat dövrünün başlanğıcını simvolizə edən Novruz qədim tarixə malikdir və mədəni irsin tərkib hissəsidir.

Bu əlamətdar bayram münasibətilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. Qoy Novruz ölkənizə və xalqınıza daha çox firavanlıq və əmin-amanlıq gətirsin!

Dərin hörmətlə,

İrina VİNER,
Rusiya Federasiyasının Əmək qəhrəmanı, Rusiyanın İctimai Palatasının Bədən Tərbiyəsi, İdman və Sağlam Həyat Tərzi üzrə Komissiyasının sədri

*

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Hörmətli İlham Heydər oğlu!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi və yaxınlarınızı təbrik edirəm. Uca Allah hamımızın bütün dualarını, oruclarını, sədəqə və zəkatlarını qəbul etsin, öz mərhəmətini bizdən əsirgəməsin, gələcək illərdə də bizə Ramazan ayını rifah, sağlamlıq, sülh və əmin-amanlıq şəraitində başa çatdırmağı nəsib etsin. Ramazandan sonra bütün insanların həyatı yalnız yaxşı istiqamətdə dəyişsin. Ulu Tanrı, həmçinin Fələstindəki qardaşlarımıza da kömək olsun, orada sülh və əmin-amanlığı bərqərar etsin.

Sizə və doğmalarınıza Allahın rəğbətini və sonsuz bərəkətini arzulayıram. Amin!

Ən xoş arzularla və xeyirxah dualarla,

Marat KABAYEV,
Rusiyada fəaliyyət göstərən İslam Biznesi Beynəlxalq Assambleyasının prezidenti

*

Möhtərəm cənab Prezident!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi təbrik edirəm. Allah bütün dualarınızı qəbul etsin, evinizdə həmişə sevinc və hüzur hökm sürsün.

Sizə və doğmalarınıza cansağlığı və xoşbəxtlik, ölkənizə firavanlıq, əmin-amanlıq, zəmanəmizin böyük dövlət rəhbəri və görkəmli siyasi xadimi kimi bütün gücünüzü daha parlaq gələcəyinə sərf etdiyiniz xalqınıza rifah arzulayıram.

Çox hörmətli cənab Prezident, icazə verin, fürsətdən istifadə edərək görkəmli ananız Zərifə xanımın adını daşıyan liseyimizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə bir daha təşəkkürümü bildirim. Xeyirxahlığınıza, xoş münasibətinizə görə ömrümün sonuna qədər Sizə dua edəcəyəm.

Dərin hörmət və ən xoş arzularla,

Valentina ANTONENKO,
Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı

Birinci vitse-prezidentə təbrik məktubları

Hörmətli Mehriban xanım!

Təbiətin yenilənməsinin rəmzi olan Novruz bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Tarixən birliyi, harmoniyanı və qarşılıqlı anlaşmanı tərənnüm edən Novruz bayramı saf düşüncələrlə, nəcib arzularla yeni ilin başlanğıcı kimi qeyd olunur.

Qoy Novruz bayramı parlaq anlarla, səmimi görüşlərlə dolu yeni imkanların başlanğıcına çevrilsin.

Hörmətli Mehriban xanım, Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Ayqul JAPAROVA,
Qırğız Respublikasının birinci xanımı

*

Hörmətli xanım Mehriban Arif qızı!

Bütün müsəlmanların müqəddəs Ramazan bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Qoy Ulu Tanrı bu müqəddəs ayda gördüyümüz bütün xeyirxah işləri qəbul etsin, mübarək bayram hüzur və xoşbəxtliyimizi artırsın.

Bəşəriyyəti şəfqət və mərhəmətə aparan, yüksək dəyərlərin təcəssümü olan bu bayram hər bir evə səadət və ruzi-bərəkət gətirsin, qardaş xalqlarımıza isə sülh və əmin-amanlıq bəxş etsin.

Hörmətli Mehriban xanım, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, ailə səadəti, rifah və uğurlar arzulayıram.

Hörmətlə,

Ayqul JAPAROVA,
Qırğız Respublikasının birinci xanımı

*

Hörmətli Mehriban xanım!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Təbiətin oyanışı, sülh, həmrəylik və əmin-amanlıq yolunda insanlar arasında münasibətlərin möhkəmlənməsini simvolizə edən bu bayram gözəl ənənələrlə və dərin məna ilə zəngindir. Bu əlamətdar bayram hazırda dünyada mühüm aktuallıq kəsb edən qarşılıqlı anlaşmanın, hörmətin və dəstəyin önəmini xüsusi qeyd edir. Qədim tarixə malik və mədəni irsin tərkib hissəsi olan Novruz yenilənmə, dirçəliş və yeni həyat dövrünün başlanğıcının rəmzidir.

Bu gözəl bayram münasibətilə Sizə möhkəm cansağlığı, səadət və Azərbaycan Respublikasının firavanlığı naminə mühüm dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm. Novruzun ölkənizə daha çox sevinc, rifah və əmin-amanlıq gətirməsini arzu edirəm.

Dərin hörmətlə,

İrina VİNER,
Rusiya Federasiyasının Əmək qəhrəmanı, Rusiyanın İctimai Palatasının Bədən Tərbiyəsi, İdman və Sağlam Həyat Tərzi üzrə Komissiyasının sədri

*

Hörmətli Birinci vitse-prezident!

Sizi Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Müsəlmanlar üçün böyük əhəmiyyət kəsb edən və müqəddəs Ramazan ayının başa çatmasının rəmzi olan bu əlamətdar bayram İslam aləmində ən çox ehtiram göstərilən bayramlardan biri kimi insanları mənəvi kamilliyə, şəfqət və mərhəmətə səsləyir.

Müxtəlif etnik və dini qruplar arasında qarşılıqlı anlaşmaya və əməkdaşlığa töhfə verərək insanları birləşdirən bu bayram millətlər arasında həmrəyliyin möhkəmləndirilməsi və mədəni müxtəlifliyə hörmətin artırılması baxımından mühüm rola malikdir. Siz bu dəyərləri dövlətçilik fəaliyyətinizdə daim rəhbər tutursunuz.

İdmanın inkişafı, vətəndaşların rifahının yaxşılaşdırılması və sabitliyin qorunub saxlanılması istiqamətində gördüyünüz işlər dərin rəğbət və heyranlıq doğurur. Sizin öz fəaliyyətinizlə göstərdiyiniz sədaqət və liderlik nümunəsi Azərbaycan Respublikasının firavanlığına və inkişafına töhfə verir.

Bu mübarək bayram münasibətilə Sizə möhkəm cansağlığı, mühüm dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, ölkənizə davamlı tərəqqi və əmin-amanlıq diləyirəm.

Hörmətlə,

İrina VİNER,
Rusiya Federasiyasının Əmək qəhrəmanı, Rusiyanın İctimai Palatasının Bədən Tərbiyəsi, İdman və Sağlam Həyat Tərzi üzrə Komissiyasının sədri

Venesuela parlamentarisi Milli Məclisdə

Milli Məclisin sədri Sahibə Qafarova Venesuela Bolivar Respublikası Milli Assambleyası sədrinin müavini, Venesuela-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Amerika Valentina Peres Davila ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Venesuela arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin mövcud olduğu qeyd edilib. Söhbət zamanı bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd edildiyi, əlaqələrimizin daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğu bildirilib.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində çox səmərəli şəkildə əməkdaşlıq etdiyi bildirilib, BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstəkdən məmnunluq ifadə edilib. Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin institusional inkişafı, təşkilatın məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Venesuela Milli Assambleyası sədrinin müavini Parlament Şəbəkəsinin fəaliyyətini yüksək qiymətləndirib, ölkəsinin Şəbəkənin işində fəal iştirak etdiyini söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

XQ

İqlim dialoqunda COP29-a yüksək dəyər verildi

Petersberq İqlim Dialoqu çərçivəsində Almaniyanın xarici işlər naziri Annalena Berbok, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) 30-cu sessiyasının müəyyən olunmuş prezidenti Andre Korrea və Avropa İttifaqının iqlim fəaliyyəti üzrə komissarı Vopke Hukstranın iştirakı ilə təşkil edilmiş birgə mətbuat konfransında Azərbaycanın sədrliyi və ev sahibliyi ilə keçirilmiş COP29 zamanı qazanılan tarixi nailiyyətlərdən növbəti dəfə danışılıb.

Mətbuat konfransında komissar Vopke Hukstra COP29 zamanı 100 milyard dollarlıq maliyyə hədəfini üç dəfə artırmaqla bağlı çətin, bir o qədər də tarixi qərarın verildiyini və bununla iqlim maliyyəsi sahəsində yeni bir eranın başlanğıcının qoyulduğunu diqqətə çatdırıb.

O, cari ildə Braziliyanın Belem şəhərində keçiriləcək COP30-un Paris Sazişinin tam icrasına, habelə COP28 və COP29 zamanı əldə edilən uğurların daha da möhkəmləndirilməsinə sadiqliyi təsdiqləmək şansı olduğunu bildirib.

XQ

“The Insider” də erməni lobbisinin toruna düşdü

Azərbaycan ərazilərində 33 il qanunsuz şəkildə mövcud olmuş separatçı xunta rejiminin varlığına son qoyulması, onun başçılarının həbs edilərək ədalət mühakiməsinə çıxarılmaları xaricdəki erməni diaspor və lobbisinin, necə deyərlər, yuxusuna haram qatıb. Onlar hər vəchlə məhkəmə prosesini nüfuzdan salmağa, onun obyektivliyinə xələl gətirməyə çalışırlar.

Erməni lobbisi bu istiqamətdə əsas gücünü xarici media orqanlarında prosesi qaralayan məqalələrin dərc etdirilməsinə yönəldib. Vaxtaşırı bununla bağlı qərəzli məqalələr dərc olunur. Belə yazılardan biri aprelin 2-də “The Insider” internet nəşrində dərc olunub. Məqalənin müəllifi isveçli antropoloq və keçmiş Qarabağ münaqişəsi üzrə mütəxəssis Rasmus Kanbekdir. O, diqqəti qondarma rejimin sabiq “dövlət naziri” Ruben Vardanyanın, guya, aclıq aksiyası keçirməsinə yönəldir. Sən demə, Vardanyan 2025-ci il fevralın 18-də aclıq aksiyasına başlayıbmış və bu aksiya 23 gün – martın 12-dək davam edib.

Bildirir ki, Ruben aclıq aksiyasına görə həddindən artıq arıqlayıb və onun görüntüləri Ermənistanı şoka salıb. Qeyd edib ki, Vardanyan Qarabağdakı keçmiş rejimin digər nümayəndələri ilə birlikdə mühakimə olunur. R.Kanbek qeyd edib ki, məhkəmə prosesi, eyni zamanda, Ermənistan daxilində sabitliyi pozur və Azərbaycan daxilində anti-erməni əhval-ruhiyyəsini (?) artırır.

Məqalədə qondarma rejimin sabiq ombudsmanı Geqam Stepanyanın “X” səhifəsində yazdığı fikirlərə istinad olunub. İddia olunub ki, “Artsaxın hərbi-siyasi rəhbərliyi”nin bir çoxu, guya, işgəncəyə və alçaldılmaya məruz qalır, aclıqdan və məhrumiyyətlərdən (?) əziyyət çəkirlər. Eyni zamanda, erməni qrupları, o cümlədən hökumət Avropa Parlamentində Azərbaycanı tənqid edən təcili qətnamənin qəbul olunmasını istəyir.

Materiallarını rus və ingilis dillərində təqdim edən, özünü “araşdırma jurnalistikası, saxta xəbərlərin ifşası və faktların yoxlanması sahəsində ixtisaslaşmış onlayn nəşr” adlandıran “The Insider”in bu məqaləsi bəyan etdiyi prinsiplərə tamamilə ziddir. Mühakimə olunan şəxslərin, guya, yuxarıda qeyd olunan hallarla üzləşməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu istiqamətdə Ermənistan baş naziri Nikol Paşinyan da bir müddət öncə cəfəng fikirlər irəli sürmüşdü. Demişdi ki, Bakıda saxlanılan “erməni məhbuslar”dan (?) ifadələr almaq üçün onlara qadağan olunmuş psixotrop maddələr (?) verilir. Paşinyan iddia etmişdi ki, Azərbaycan tərəfi bunu, guya, regionda eskalasiyaya rəvac vermək məqsədilə edir: “Bizdə belə bir məlumat var ki, regionda gərginliyin artmasına səbəb olacaq bəyanatları qızışdırmaq məqsədilə Bakıda saxlanılan “erməni məhbuslar”a qadağan olunmuş psixotrop maddələr verilir”. Ancaq onun bu cəfəng fikri elə qondarma rejimin başçılarından olmuş Arayik Arutyunyan tərəfinən təkzib edilmişdi. O bildirmişdi ki, sağlamlıqla bağlı problemi yarandıqda təcridxanada həll olunur. Arutyunyan səhhəti ilə bağlı şikayətinin olmadığını qeyd etmişdi. Bildirmişdi ki, ümumiyyətlə, digər təqsirləndirilən şəxslərdən sağlamlıqları ilə bağlı şikayət eşitməyib. Bu məqam “The Insider”in yazısının qərəzli olmasının daha bir sübutudur.

Bildirilib ki, Azərbaycan separatçıların nümayəndələrini son üç onillikdə hərbi cinayətlərdə və terrorizmi dəstəkləməkdə ittiham edir. Burada yalanın dozasını artıran müəllif məhkəmə prosesinin Avropa institutları və insan haqları qrupları tərəfindən tənqid olunduğunu, mümkün insan hüquqları pozuntuları və müttəhimlərin həbsdə işgəncələrə məruz qala biləcəyi barədə xəbərdarlıq edildiyini iddia edir. Zənnimizcə, bu məqamda BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun 2025-ci il martın 13-də dərc etdiyi rəyini xatırlatmaq yerinə düşər. İşçi qrup öz rəyində Ermənistan tərəfinin Vardanyanın ifadə azadlığı və siyasi fəaliyyətinə görə həbs olunduğu barədə iddialarını açıq şəkildə rədd etmişdi.

Sözügedən rəydə xüsusilə vurğulanırdı ki, Vardanyan Azərbaycan Respublikası tərəfindən bir sıra şəxslərin ölümündə və genişmiqyaslı dağıntılar törədilməsində, terrorçuluğun maliyyələşdirilməsində, qeyri-qanuni silahlı birləşmələr yaradılmasında və sair cinayətlərdə ittiham olunur və məhz bu ittihamlar əsasında həbs olunub. Bununla yanaşı, onun öz hüquqlarını müdafiə etməsi və bu çərçivədə bəyanatlar verməsi səbəbindən həbs olunduğu barədə Ermənistan tərəfinin iddiaları əsassız sayılıb. İşçi qrupunun rəyində qeyd olunub ki, ifadə və birləşmək azadlıqları mütləq hüquqlar deyil və onlar xüsusilə milli təhlükəsizlik və ictimai asayişlə bağlı səbəblərə görə məhdudiyyətlərə məruz qala bilər.

Rəyə əsasən, R.Vardanyana qarşı ittihamların onun hərəkətlərinin milli təhlükəsizliyə təhdid törətdiyi qənaətinə gəlməyə imkan verir. Ümumilikdə, Rubenin əsassız həbs olunduğu ilə bağlı Ermənistan tərəfinin İşçi qrup qarşısında qaldırdığı iddialara baxmayaraq, qurumun bu iddialara qarşı rəyi onun həbsi ilə bağlı və məhkəmə prosesinə qarşı Azərbaycan əleyhinə qarayaxma kampaniyasının tamamilə əsassız olduğunu bir daha sübut edib. Bununla da Ermənistan tərəfinin beynəlxalq hüquq normalarını manipulyasiya etmək cəhdi növbəti dəfə uğursuzluğa düçar olub.

Məqalədə bir sıra köhnə bayatılar da özünə yer tapıb. Bildirilib ki, 2023-cü il sentyabrın 19–20-də baş tutan lokal xarakterli antiterror tədbirlərindən sonra 100 mindən çox (?) erməni Qarabağı tərk etməyə məcbur olub. Ermənilərin Qarabağa Yaxın Şərqin müxtəlif yerlərindən köçürülməsindən iki əsrə yaxın vaxt keçməsinə baxmayaraq, bildirilib ki, bu kütləvi köç ermənilərin regionda nəinki min illərlə (?) davam edən mövcudluğuna, həm də üç onillik əvvəl başlayan münaqişəyə dramatik son qoyub. “Azərbaycanda Qələbə bayramlar, dövlət bayraqları ilə yürüşlər və gurultulu nitqlərlə qarşılanırdısa, Ermənistana doğru məcburi köçkün dinc əhali sonsuz axını görünürdü” yazan müəllifin materialı erməni təəssübkeşliyinə dair cümlələrlə doludur.

Yazıda əksini tapan digər məqamları da ümumiləşdirərək bu qənaətə gəlmək olar ki, irəli sürülən iddiaların heç bir əsası yoxdur və tamamilə gülüncdür. Bakıda mühakimə edilən təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub və izah edilib. Bütün məhkəmə prosesi və ifadələri qeydə alınır. Azərbaycanda saxlanılan şəxslərə qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə, o cümlədən bir müddət öncə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən araşdırılıb və bu iddiaların yalan olduğu təsbit edilib.

Səxavət HƏMİD
XQ

Ekspert rəyi

İlqar VƏLİZADƏ,
“Cənubi Qafqaz” politoloqlar klubunun rəhbəri, siyasi şərhçi:

– Təəssüflər olsun ki, bu cür hərəkətlər son vaxtlar ardıcıl siyasi xarakter almağa başlayıb. Baxmayaraq ki, Ermənistan İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğrayıb, Azərbaycan beynəlxalq hüquqla tanınan tarixi torpaqları üzərində suverenliyini bərpa edib. İndi isə ölkəmizə qarşı cinayət əməlləri törətməkdə təqsirləndirilən şəxslərin məhkəməsi keçirilir.

Regionda geosiyasi vəziyyət köklü şəkildə dəyişilib. O dərəcədə dəyişilib ki, bunu hətta Ermənistan rəhbərliyi də qəbul edir. Təbii ki, bu, könüllü deyil, məcburi qəbuletmədir. Rəsmi İrəvan əvvəlcə nala-mıxa vursa da, sonda Azərbaycanın irəli sürdüyü sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətnini qəbul etməyə məcbur olub. Yəni, bütün bunlar reallıqdır. Amma bu reallıqla barışmayan qüvvələr də var. Bunlar uzun illərdir, haradasa 35 ildən çoxdur fəaliyyət göstərən erməni lobbisi, bu lobbiyə tabe olan infrastruktur, korrupsiyaya bulaşmış müxtəlif siyasətçilər, media mənsubları, şəbəkə qismində fəaliyyət göstərən mütəşəkkil mafioz dəstələrdir. Qeyd etdiyimiz kimi, regionda yeni reallıqların yaranmasına baxmayaraq, bu struktur hələ də qalıb. Ona görə qalıb ki, onlar bizim regiondan kənarda – əsasən Qərb ölkələrində yerləşirlər. Bu struktur bir növ avtonom şəkildə, belə deyək, mafiya qanunlarına tabe olaraq işləməkdə davam edir. Onun işləməsi üçün maliyyə, maliyyənin ayrılması üçün mövzu lazımdır. Mövzu qismində separatçılarla bağlı keçirilən məhkəmə prosesi əsas götürülüb.

Yeri gəlmişkən, burada təkcə qərəzli məqalələrdən söhbət getmir. İsveçrə, Belçika parlamentlərindəki absurd, məsələyə dəxli olmayan dinləmələrin keçirilməsi də bunun bir elementidir. Sanki İsveçrədə, Belçikada, Avropa İttifaqının digər ölkələrində başqa problemlər yoxdur. Guya, bütün problemlər bitdiyi üçün onlar indi bizim bölgəmizlə bağlı məsələləri müzakirə etmək qərarına gəliblər. Bütün bunlar göstərir ki, burada siyasi sifariş var. Bu addımların atılması da siyasi sifarişin nəticəsidir. Bir daha qeyd etmək istəyirəm ki, yazılan bu qərəzli məqalələrin, qəbul edilən əsassız qətnamələrin regionda cərəyan edən proseslərə heç bir təsiri olmayacaq.

Onu da nəzərə almaq lazımdır ki, vaxtilə Türkiyəyə qarşı kampaniyalar aparılırdı. Hətta, Qərb ölkələrinin bəzilərinin parlamentləri “erməni soyqırımı”nı tanımışdılar. Yaxşı, bunun axırı nə oldu? Türkiyə hansı təsiri göstərdi? Real vəziyyəti dəyişdirdimi? Yalnız Ermənistanla Türkiyənin münasibətləri daha da korlandı və mürəkkəbləşdi. Təəssüf ki, bəzi şəxslər hazırda bu hadisələri yaddan çıxarıblar. Halbuki belə hadisələr nə Türkiyədə, nə də Azərbaycanda yaddan çıxmamalıdır. Buna baxmayaraq, biz sülh, əmin-amanlıq, müxtəlif ölkələrlə normal münasibətlər qurmaq istəyirik. Digər ölkələrin də bizimlə münasibətlərdə absurd məqamların olmasını istəmirik.

Onu da demək lazımdır ki, bu cür kampaniyalar, ucuz şoular davam edəcək. Amma heç vaxt nəticə verməyib və verməyəcək. Baxın, Avropa İttifaqı hazırda Mərkəzi Asiya ölkələri ilə sıx münasibətlər qurur, müxtəlif layihələrdən bəhs edirlər. Avropanı Mərkəzi Asiya ilə birləşdirən isə Cənubi Qafqazdır. Burada açar rolunu Azərbaycan oynayır. Avropa İttifaqı Azərbaycanla münasibətlərin gərginləşməsini istəyərmi? Təbii ki, yox. O cümlədən ayrı-ayrı Avropa ölkələri də istəmirlər. Almaniya Prezidentinin Bakıya ölkəmizə səfəri də bunu parlaq şəkildə nümayiş etdirdi. Amma şəxsi mənfəətlərini dövlətlərin, yaxud siyasi qrupların maraqlarından üstün tutan şəxslər dünən olub, bu gün var, təəssüf ki, sabah da olacaqlar. Əslində, onlara fikir vermək lazım deyil. Sadəcə olaraq, ölçü götürmək və Ermənistana göstərmək lazımdır ki, belə hallar İrəvanın vəziyyətini yaxşılaşdırmır. Əksinə, daha da pisləşdirir. Ermənistan özü onlara təsir göstərməsə, yaxud bunu istəməsə, onsuz da acınacaqlı olan vəziyyətini daha da pisləşdirəcək.

Farmazonluq

(əvvəli 1-ci səhifədə)

O da məlumdur ki, vaxtaşırı Aİ-nin missiyasını NATO qurumuna, yəni hərbiləşdirilmiş qruplaşmaya çevirmək niyyətləri ilə bağlı fikirlər də səslənir. Nəzərə alaq ki, hazırda müşahidəçilərin tərkibi keçmiş hərbçilərdən və polislərdən ibarətdir. Yəni, bu şəxslər üçün silah-sursat, belə demək mümkünsə, yad “inqridiyent” sayılmır. Digər tərəfdən, əvvəl məhdud sayda olan missiyanın tərkibi hazırda xeyli genişləndirilib. Yəni, missiya mükəmməl təsisat halına gəlib.

Bəli, Aİ-nin müşahidə missiyası Azərbaycan və Ermənistan arasında gərginliyin, konfliktli situasiyanın mövcudluğunu vurğulamağa, gərginlik faktorunu beynəlxalq ictimaiyyətin diqqətində saxlamağa hesablanıb. Guya ki, müşahidəçilər Ermənistanı Azərbaycanın təcavüzündən qoruyurlar. Sanki onlar olmasa, Bakı işğalçılıq planlarını reallaşdırmağa başlayacaq. Missiya, faktiki olaraq, anti-Azərbaycan mahiyyət daşıyan belə bir sərsəm egida altında fəaliyyətdədir.

Əlbəttə, müşahidəçilər Ermənistanın müdafiə məntiqini gizlədir və gördükləri işə bir növ, beynəlmiləl libas geyindirməyə, bəşəri obraz qazandırmağa çalışırlar. Sən demə, müşahidəçilər bölgədə Azərbaycan və Ermənistan arasında sülh gündəmini inkişaf etdirmək, sərhədə yaxın bölgələrdə əhalinin bir-biri ilə təmaslarını gücləndirmək niyyətindədirlər. Belə cəfəng deyimlərin yalnız gözdən pərdə asmağa xidmət etdiyi məlumdur. Müşahidəçilərin Ermənistan ordusuna kəşfiyyat məlumatları ötürdükləri də həmçinin.

Əvvəldə haqqında söz açdığımız farmazonluğa gəlincə, bildirək ki, Aİ-nin müşahidə missiyasının ən çox öyündüyü patrul fəaliyyətidir. İlk baxışdan, müşahidəçilər pikap avtomobillərdə Safari turuna çıxmış turistləri xatırladırlar. Bəzən “turistlərin” sırasına Avropanın və dünyanın bəzi ölkələrinin Ermənistandakı diplomatik təmsilçiləri, hətta dövlət başçıları da qoşulurlar. Əlbəttə, bu baxımdan digərlərindən “fərqlənən” Fransanın İrəvandakı səfiri Olivye Dekotinidir. Yeri gəlmişkən, səfir Dekotini də müşahidəçilərin 5 mininci patrul reydinə münasibət bildirib. Əslində, buna münasibət yox, ucuz populizmin işə salınması demək daha doğrudur.

Fransız diplomat müşahidəçilərin, guya, gecə-gündüz bilmədən hərbi təmas xəttində yorulmadan çalışdıqlarına dair gəlişigözəl cümlələrinə əlavələr olaraq deyib ki, onlar insident faktlarını müəyyənləşdirməyə, yalan məlumatları təkzib etməyə, eskalasiya motivli açıqlamaları yumşaltmağa, insanların həssas təbəqələrini sakitləşdirməyə çalışırlar. Hər halda, Dekotininin subliminal mesajının nədən ibarət olduğunun fərqinə vardınız.

Məlumdur ki, Ermənistan silahlı qüvvələri zaman-zaman qoşunların təmas xəttində atəşkəs rejimini pozublar. Bu ilin mart ayının ikinci ongünlüyündən belə faktların sayı çoxalıb və bir qayda olaraq, ölkənin müdafiə nazirliyi olanları danır. Dekotinin fikirlərindən gəlinən birinci qənaət budur ki, Aİ-nin müşahidəçilərinin rəsmi İrəvana erməni ordusunun atəşkəs rejimini pozmadığını iddia etməklə bağlı yardımları keçir. Necə deyərlər, dil çaşar, düzünü deyər.

Nəzərə alaq ki, bu “yardım” eskalasiya motivli açıqlamaları yumşaltmaq üçün də vacibdir. Yəni, Azərbaycanın Müdafiə Nazirliyi qarşı tərəfin silaha əl atdığına dair məlumat yayırsa və fakt danılırsa, bu, Ermənistana köməkdir. Digər tərəfdən, Ermənistan silahlı qüvvələri atəşkəsi pozurlarsa, aydındır ki, şərti sərhədə yaxın ərazilərdəki sıravi ermənilər Azərbaycanın cavab tədbirləri görəcəyindən təşvişə düşə bilərlər. Deməli, Aİ-nin müşahidəçiləri həmin ermənilərə “qorxma” deyib ürək-dirək verməklə də məşğuldurlar.

Səfir Dekotini pafosa, Aİ-nin təsisatını qlamur təşkilat kimi göstərərək bildirib ki, “EUMA-nın kişiləri və qadınları ilə fəxr edirik”. Bizə Dekotini kimi farmazon diplomatımızın olmadığına görə sevinmək qalır. Bu öz yerində. Sonda isə onu deyək ki, Aİ-nin Azərbaycanda binokl diplomatiyasının təmsilçiləri adlandırılmış mülki müşahidə missiyasının nümayəndələrinin şərti sərhədin bir başından o biri başına məsafə qət etmələri düzgün sayıla bilməz. Onların əsl məramının nədən ibarət olduğunu vurğuladıq.

Söhbət Azərbaycanla Ermənistan arasında gərginliyin mövcudluğu düşüncəsinin aşılanmasından gedir və missiya üzvlərinin sərhədyanı zonalarda keçirdikləri görüşlər erməni əhalidə təşviş yaratmağa xidmət edir. Axı Fransaya və rəsmi İrəvanın digər havadarlarına azərbaycanlılardan qorxan və daim silaha sarılmağa hazır kütlə lazımdır. O kütlə ki, haqqında söz açdığımız regional maraqları gerçəkləşdirmək naminə istifadə olunsun.

Bütün bunların nəzərə alaraq belə nəticəyə gəlmək mümkündür ki, Orta əsr feodalizminin xristian emissarlarına bənzəyən binokllu müşahidəçilərin patrul reysləri, Cənubi Qafqazla bağlı mənfur planların həyata keçməsi üçün edilən cəhdlərdir. Bu cəhdlərin hazırkı sayı isə 5 mindir. Nə deyək, davamını gözləyək...

Ə.RÜSTƏMOV
XQ

XİN Fransa nazirinin Azərbaycan iddialarını qətiyyətlə rədd edir

Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baronun Milli Assambleyanın Xarici İşlər Komissiyasında çıxışı zamanı Azərbaycan-Ermənistan sülh prosesi və ermənisilli şəxslərin məhkəmə işi ilə bağlı səsləndirdiyi iddiaları qətiyyətlə rədd edirik.

Bu barədə XİN-in mətbuat katibi Ayxan Hacızadənin şərhində bildirilib.

Mətbuat katibi qeyd edib ki, Azərbaycan ərazilərinə qarşı iddiaların mövcud olduğu Ermənistan konstitusiyasının dəyişdirilməsi kimi iki ildən çoxdur müzakirə edilən legitim tələbin sual altına alınması və bunun yeni şərt kimi təqdim olunması qəbuledilməzdir.

Müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum edilmiş ermənisilli şəxslərin azadlığa buraxılması çağırışlarına gəldikdə, A.Hacızadə bildirib ki, bu cinayətləri araşdırmaq, mühakimə etmək Azərbaycanın haqqıdır və BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun martın 13-də dərc olunmuş rəyi də bunu bir daha təsdiqləyib.

“Ümumiyyətlə, digər ölkələrdə məhkəmə prosesinə müdaxiləyə cəhd edən Fransa tərəfinin, ilk növbədə, öz ölkəsində siyasi təqibləri və müxtəlif aksiyalarda etirazçıların öldürülməsi, Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələri, Fransa parlamentində rüşvətxorluq və korrupsiya hallarının yayılması kimi faktları araşdırması daha uyğun olardı. Fransadan sülhə xidmət etməyən və regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik”, - deyə XİN rəsmisi diqqətə çatdırıb.

XQ

Azərbaycan–Monteneqro məsləhətləşməsi

Aprelin 3-də xarici işlər naziri Ceyhun Bayramov Monteneqro Xarici İşlər Nazirliyinin dövlət katibi Perişa Kastratoviç ilə görüşüb.

Görüşdə Azərbaycan-Monteneqro əməkdaşlığının hazırkı vəziyyəti, perspektivləri, ikitərəfli və çoxtərəfli səviyyələrdə münasibətlərin inkişaf etdirilməsi imkanları, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Söhbət zamanı iki ölkə arasında əməkdaşlığın inkişafı, bu istiqamətdə mövcud potensialdan istifadə imkanlarının müzakirəsi baxımından qarşılıqlı səfər və təmasların, o cümlədən siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi, parlamentlərarası əlaqələr qeyd olunub. Azərbaycanla Monteneqro arasında xüsusilə iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, turizm və humanitar istiqamətlər üzrə əməkdaşlığın daha da inkişafı üçün münbit şəraitin olduğu diqqətə çatdırılıb. Bu xüsusda, yaşıl enerji üzrə tərəfdaşlığın genişləndirilməsinin əhəmiyyətinə toxunulub.

Monteneqrolu dövlət katibi, eyni zamanda, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesinin hazırkı vəziyyəti barədə məlumatlandırılıb. Ölkəmizin təşəbbüsü ilə başlayan ikitərəfli danışıqlar nəticəsində sülh müqaviləsinin mətninin razılaşdırıldığı, lakin müqavilənin imzalanması üçün əsas əngəllərin, xüsusilə də Ermənistan konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə qarşı iddiaların qalmaqda olduğu vurğulanıb.

*

Həmin gün Azərbaycan və Monteneqro Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Monteneqro tərəfindən isə dövlət katibi Perişa Kastratoviç rəhbərlik ediblər.

XQ

Müharibə caniləri, qatillər "hərbi əsir" deyil!

Milli Məclisin işçi qrupu rəhbəri Birləşmiş Krallığın parlament qrupuna etiraz məktubu ünvanlayıb

Azərbaycan-Birləşmiş Krallıq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə Birləşmiş Krallıq parlamentinin Ermənistan üzrə parlament qrupuna etiraz məktubu ünvanlayıb. Bu barədə Milli Məclisdən məlumat verilib.

Məktubda deyilir ki, Birləşmiş Krallıq hökumətinə bu yaxınlarda etdiyiniz müraciətlə əlaqədar biz 30 illik erməni işğalı dövründə törədilmiş müharibə cinayətləri, etnik təmizləmələr və hərbi təcavüz üçün məsuliyyət daşıyan şəxslərin mühakiməsi prosesini nüfuzdan salmağa yönələn əsassız ittihamları qətiyyətlə rədd edirik. Bu insanların "hərbi əsir" adlandırılması, azadlığa buraxılmasına çağırışlar edilməsi onların törətdikləri və əsaslı sübutlarla təsdiqlənən cinayətlərinə göz yumulması deməkdir.

İşğal zamanı Ermənistan bir milyona yaxın azərbaycanlını zorla yurd-yuvasından didərgin salıb, Xocalı soyqırımı, urbisid, kultursid və ekosid aktları törədib. Azərbaycan şəhərləri və kəndləri yerlə-yeksan edilib, onun mədəni və dini mirası dağıdılıb, ətraf mühitə ciddi ziyan vurulub. Bundan əlavə, Ermənistan işğal olunmuş ərazilərdə minalar basdıraraq Azərbaycanı dünyanın minalarla ən çox çirklənmiş ölkələrindən birinə çevirib. Bu minalar mülki insanları öldürməyə və yaralamağa davam edir, keçmiş köçkünlərin geri dönməsini və bərpa səylərini ləngidir.

Məktubda göstərilir ki, bütün bu hadisələrin daha bir dəhşətli nəticəsi isə itkin düşmüş 4 minə yaxın azərbaycanlının, o cümlədən qadınların və uşaqların aqibətidir. Ermənistan kütləvi məzarlıqlar barədə məlumat verməkdən imtina edir, halbuki bu cür məlumat onların yerini müəyyənləşdirməyə kömək edə bilər. Bununla yanaşı, erməni liderləri uzun müddətdir ki, azərbaycanlılara qarşı etnik nifrəti qızışdırırlar. Ermənistanın sabiq prezidentləri azərbaycanlıların qovulmasını və Xocalı soyqırımını dəstəkləyən bəyanatlar verərək etnik təmizləməyə açıq-aşkar haqq qazandırmışlar. Bütün bu cinayətlərə baxmayaraq, Ermənistanda heç kəs məsuliyyətə cəlb edilməyib, hərbi cinayətkarlar isə hələ də hörmət sahibidirlər.

Əksinə, Azərbaycan ərazi bütövlüyünün bərpasından sonra ədalət mühakiməsini təmin edir. 200-dən çox erməni Azərbaycan tərəfindən humanitar akt qaydasında azad edilsə də, müharibə cinayətlərində təqsiri olanlar hazırda Bakıda məhkəmə qarşısına çıxarılırlar. Azərbaycan qanunvericiliyinə uyğun olaraq, onlar hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və s. kimi cinayətlərdə ittiham edilirlər. Məhkəmə prosesi şəffafdır, hüquqi təmsilçilik təmin edilir və amansız rəftarla bağlı heç bir şikayət daxil olmayıb.

Bu prosesin tənqid edilməsi haqq-ədalətə etinasızlıq göstərilməsi, etnik təmizləmənin və təcavüzün dolayısı ilə dəstəklənməsi deməkdir. Həqiqi sülh yalnız cavabdehlik yolu ilə əldə edilə bilər – haqq-ədalət olmadan möhkəm sülh mümkün deyil.

Bildirilir ki, davam edən məhkəmə prosesi Ermənistan tərəfindən törədilmiş hərbi təcavüzə və işğala, eləcə də onun siyasi və hərbi xadimlərinin daşıdıqları məsuliyyətə işıq salır. Bu proseslə bağlı narahatlıq mühakimənin gedişini pozmaq və məhkəmənin işinə müdaxilə etmək cəhdlərinə səbəb olmuşdur. Lakin bu cür səylərə qoşulmaq əvəzinə, hüquqi prosesə kömək göstərilməsi ədalət mühakiməsinə və bölgədə möhkəm sabitlik yaradılmasına töhfə verə bilərdi. Sülhə həqiqi sadiqlik məsuliyyətin tanınmasında və müharibə cinayətlərində əli olanların cavabdehliyinin təmin olunmasında əksini tapa bilər.

Bu cür məhkəmə yanaşması beynəlxalq birlik üçün gələcək münaqişələrin və beynəlxalq hüquq pozuntularının qarşısının alınmasında önəmli nümunədir. Cinayətlərə göz yumulması ədalətin bərqərar edilməsinə mane ola bilməz. Həqiqi və ədalətli məsuliyyət boş ritorika deyil, anlayışlı hərəkətlər tələb edir.

Məktubda vurğulanır ki, Birləşmiş Krallıq parlamentinin bəzi üzvlərinin bu mövqeyi hazırda iki ölkə arasında cərəyan edən sülh prosesinə mənfi təsir göstərir.

Biz Ermənistanla Azərbaycan arasında keçmiş münaqişə barəsində Birləşmiş Krallıq hökumətinin tarazlı mövqeyini qiymətləndiririk. Beynəlxalq hüququn normalarına və prinsiplərinə uyğun olaraq, Birləşmiş Krallıq həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Bununla belə, Birləşmiş Krallıq parlamentinin bəzi üzvləri tərəfindən Azərbaycanın Qarabağ bölgəsinin "Artsax" adlandırılması təkcə Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik deyil, həm də Birləşmiş Krallıq hökumətinin keçmiş münaqişəyə dair rəsmi mövqeyinə ziddir və beynəlxalq hüququn kobudcasına pozulmasıdır.

Azərbaycan 30 illik ağrılı-acılı münaqişə səhifəsini çevirməyə və normallaşma istiqamətində irəliləyiş əldə etməyə çalışarkən bu prosesi dəstəkləmək və Ermənistanla Azərbaycan arasında sülh sazişinin mətni nəhayət imzalansın deyə Ermənistanı mümkün qədər tez bir zamanda son mühüm addımları atmağa sövq etmək çox vacibdir. Bu, regionumuzda sülhə və firavanlığa nail olmağın yeganə yoludur.

XQ

Zərurətdən doğan addım, yoxsa...

Rusiyanın miqrasiya qanunvericiliyindəki dəyişikliklərdə məqsəd nədir?

2025-ci il iyunun 30-dan etibarən Rusiyaya səfər etmək istəyən xarici ölkə vətəndaşları, o cümlədən vizasız gediş-gəliş rejimi tətbiq olunan ölkələrin, həmçinin Avrasiya İqtisadi İttifaqının üzvü olan ölkələrin bütün vətəndaşlarından 72 saat əvvəl, fövqəladə hallarda isə 4 saatdan gec olmayaraq, məlumat verələri tələb olunacaq. İnternet tətbiqi vasitəsilə ərizə təqdim edildikdən sonra və Rusiya Federasiyasına daxil olmazdan əvvəl müvafiq orqanlar vətəndaşın məlumatlarını yoxlayacaq. Əgər vətəndaşın ölkəyə girişinə icazə verilərsə, o, sərhədçiyə təqdim etməli olduğu müvafiq kodu alacaq.

Bu kod olmadan xarici ölkə vətəndaşı Rusiyaya buraxılmayacaq. Qeyd edək ki, bu ilin əvvəlindən Rusiya Federasiyasında miqrasiya sahəsində yeni qaydalar qüvvəyə minib. Bu qaydalara əsasən, yanvarın 1-dən etibarən Azərbaycan Respublikası vətəndaşlarının Rusiya Federasiyası ərazisində müvəqqəti olma müddəti bir təqvim ili ərzində 90 gün müəyyən edilib. Həmin müddət Rusiya qanunvericiliyində nəzərdə tutulmuş əsaslar mövcud olduqda (əmək fəaliyyəti üçün patent aldıqda, müvəqqəti yaşamaq üçün müraciəti qəbul olunduqda və s.) uzadıla bilər. Eyni zamanda, yeni qaydalarda digər məsələlər də yer alıb.

Həmçinin Rusiya Federasiyasının mövcud qanunvericiliyinin tələblərinə əsasən, bu ölkəyə daxil olan zaman əcnəbilərdən, o cümlədən Azərbaycan Respublikası vətəndaşlarından miqrasiya kartının doldurulması tələb olunur.

* * *

Cari il fevralın 5-dən isə Rusiyada miqrasiya siyasətinin təkmilləşdirilməsinə yönəlmiş daha iki yeni qanun qüvvəyə minib. Həmin tarixdən etibarən qeyri-qanuni miqrantların deportasiyasının sadələşdirilmiş proseduru həyata keçirilir. Yəni polis əməkdaşları ölkədə qanunsuz yollarla məskunlaşan xarici vətəndaşları məhkəmə qərarı olmadan deportasiya edə biləcəklər. Eyni zamanda, miqrasiya qaydalarının pozulmasına görə inzibati məsuliyyət də nəzərdə tutulur. Rusiyaya giriş və çıxış qaydalarının pozulmasına, habelə nəzarət edilən şəxslərin reyestrinə daxil edilmiş miqrantlara xidmət göstərməyə görə məsuliyyət müəyyən edilir. Rusiyada yaşamaq üçün qanuni əsası olmayan və nəzarət edilən şəxslərin reyestrinə daxil edilmiş əcnəbilər olduqları yer barədə polisə məlumat verməlidirlər. Onlar mənzil və ya avtomobil ala, kredit götürə, ölkə daxilində sərbəst hərəkət edə bilməyəcəklər. Ümumiyyətlə, miqrasiya qanunvericiliyində tətbiq olunan son dəyişikliklərdə məqsəd nədir? Dəyişikliklər Rusiyaya səfər etmək istəyən Azərbaycan vətəndaşları üçün hansı çətinlikləri yarada bilər?

Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri Xəyal Bəşirov mövzu ilə bağlı XQ-yə bildirdi ki, Rusiyanın miqrasiya qanunvericiliyində bundan öncə də məhdudlaşdırıcı və çətinləşdirici istiqamətdə dəyişikliklər olub: "Yəni, qanunun daha da sərtləşdirilməsi, tələblərin gücləndirilməsi həyata keçirilib. Düşünürəm ki, Rusiya dövləti tərəfindən miqrasiya qanunvericiliyinə nəzərdə tutulan yeni dəyişikliyə görə, əslində, çox böyük ərazisi olan və gediş-gəlişin intensiv olduğu Rusiyaya daxil olan hər bir şəxsə nəzarət etmək, onun şəxsiyyətini müəyyənləşdirməkdən savayı, həm də onun Rusiyaya, bu dövlətin atdığı bütün addımlara qarşı münasibəti (Rusiya – Ukrayna müharibəsi və digər məsələlər barəsində) də əsas götürüləcək". X.Bəşirov onu da əlavə edib ki, miqrasiya sahəsində dünyada mövcud olan bəzi qaydalar var: "Vizalı gedişlərin müəyyən edilməsi, təbii ki, artıq bu təcrübə mövcuddur. Məsələn, Avropa İttifaqına üzv dövlətlərə Şengen vizası vasitəsilə daxil olmaq mümkündür. Bunun üçün müəyyəm müddət, eyni zamanda, bu müddət ərzində həmin şəxsin şəxsiyyəti, onun səfərinin məqsədləri və digər məqamlar müəyyənləşdirilir. Hesab edirəm ki, Rusiya tərəfi də buna doğru addımlar atır. Bu, dünyada ənənə halını alıb.

Amerika Birləşmiş Ştatlarında da miqrasiya qaydalarına ciddi dəyişikliklər edilir. Hətta konkret mövzular üzrə insanlardan münasibət soruşulur. Məsələn, Qəzzada baş verənlərlə bağlı fələstinlilərə münasibət, İsrail dövlətinə münasibət və sair. Artıq miqrasiya məsələsində əsas prinsplərdən biri kimi ABŞ Dövlət katibi Marko Rubionun göstərişinə əsasən, bu ölkəyə təhsil, ticarət, turist və hansı məqsədlərlə gəlməsindən asılı olmayaraq, Yaxın Şərqdə baş verən proseslərə mövqeyinə nəzər yetirilməsi məsələsi tapşırılıb. Bu, əslində, faktiki olaraq insan hüquq və azadlıqlarına, demokratik dəyərlərə zidd olan bir addımdır.

Qeyd etdiyim kimi bu təcrübə var və Şengen vizası ilə bağlı ayrı-seçkilik uzun müddətdir tətbiq edilir. Hər bir insan istədiyi vaxt Avropa məkanına, Aİ ölkələrinə səfər edə bilməz. Digər dövlətlər – ABŞ bir tərəfdən, Rusiya digər tərəfdən, gələcəkdə isə başqa ölkələr bu ənənədən yararlanaraq öz qanunvericiliklərinə dəyişikliklər edə bilərlər. Hesab edirəm ki, burada əsas məqsəd Rusiyaya qarşı olan insanlara, ümumiyyətlə, məhdudiyyət tətbiq edilməsidir".

Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri onu da vurğuladı ki, dəyişikliklər vizasız gediş-gəliş tətbiq olunan ölkələrə, o cümlədən Azərbaycan vətəndaşlarına da şamil olunacaq: "Bu məsələdə bir sıra texniki çətinliklər yaşana bilər. Məsələn, səfərdən 72 saat əvvəl məlumat verməli olacaqlar. Yaxud fövqəladə hallarda 4 saat ərzində. Təminat yoxdur ki, aidiyyəti qurumlar müraciətə operativ cavab verəcəklər. Cavab verilsə belə, bu müddətdən sonra şəxsin Rusiyaya getmək imkanı olacaqmı? Yəni təyyarəyə biletin alınması, digər məsələlərə də zaman lazımdır. Hər halda bu addım insanların çətinlik yaşamasına gətirib çıxaracaq".

Sonda qeyd edək ki, Rusiyada miqrasiya qanununun sərtləşdirilməsinin əsas səbəbi daxildəki problemlərin baiskarını axtarmaqdır. Bir milyondan çox azərbaycanlının da yaşayıb işlədiyi Rusiyada baş verən bu dəyişikliklər ölkəmizdə də diqqətlə izlənilir.

Azər MUSTAFAYEV

David İşxanyan Azərbaycana qarşı döyüşdüyünə görə orden alıb

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 3-də davam etdirilib.



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesində dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən qondarma rejimin "parlament sədri" və digər "vəzifələrdə" işləmiş David İşxanyana suallar ünvanlanıb.

Təqsirləndirilən şəxs cinayətkar birliyin tərkibində funksiya və vəzifələri, Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində hakimiyyətin zorla ələ keçirilməsi, qondarma rejimin "parlamenti"nin fəaliyyəti, onun həmin "qurum"da "deputat" və "parlament sədri" kimi funksiya və vəzifələri, qanunsuz silahlı birləşmə olan "özünümüdafiə batalyonu"nun tərkibində iştirak dərəcəsi və rolu, "Daşnaksütyun" partiyasının ideologiyası, fəaliyyət istiqamətləri, siyasi əlaqələri, partiyanın Azərbaycanın işğaldan azad edilmiş suveren ərazilərində fəaliyyəti, onun partiya daxilində vəzifəsi və rolu, habelə qeyd olunan proseslərdə Ermənistan dövlətinin, onun dövlət qurumlarının, silahlı qüvvələrinin, yüksəkvəzifəli şəxslərinin rolu və iştirakına dair sualları cavablandırıb.

O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən 1992-ci ilin yayından qondarma rejimdə "tabor komandiri" vəzifəsini tutduğunu və Azərbaycana qarşı müharibədə iştirak etdiyini etiraf edib.

D.İşxanyan "Daşnaksütyun" partiyasının fəal üzvü olduğunu, iki il müddətində qondarma rejimin "parlamenti"ndə partiyanın "fraksiya rəhbəri" "vəzifəsini" icra etdiyini deyib.

Təqsirləndirilən şəxs 1992-ci ilin yayında Azərbaycana qarşı müharibəyə də "Daşnaksütyun" partiyasının üzvü kimi qoşulduğunu etiraf edib.

David İşxanyan dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandırarkən qondarma rejimin "ordusu"nun idarə olunmasının "özünümüdafiə komitəsi" tərəfindən həyata keçirildiyini bildirərək deyib: "Rəhbərlər Serj Sarkisyan və Samvel Babayan idi. Amma idarəetmə mexanizmi ilə bağlı bir şey deyə bilmərəm".

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zaman qeyd edib ki, Birinci Qarabağ müharibəsində "tabor komandiri" olarkən Monte Melkonyana tabe olub.

D.İşxanyan müharibə zamanı Ağdərədə, Xocavənddə, Kəlbəcərdə, Ağdamda Azərbaycan hərbçilərinə qarşı döyüşdüyünü etiraf edib.

"Xocavənddə 8 tabor var idi, mən də onlardan birinin "komandir"i idim. Səkkiz tabor rayonun "müdafiə xətti"nə tabe idi, onun rəhbəri Monte Melkonyan, "ordu"nun komandiri isə Samvel Babayan idi", - deyə o bildirib.

Məhkəmə prosesində dövlət ittihamçısı Fuad Musayev Azərbaycanın dövlət suverenliyi təmin olunduqdan sonra 2023-cü ilin oktyabrında təqsirləndirilən şəxs David İxşanyana məxsus "Park" adlı hoteldə silah-sursat və rabitə vasitələri aşkarlandığını bildirərək ona bu barədə sual ünvanlayıb. D.İşxanyan rabitə vasitələrinin hotelə məxsus olduğunu deyərək, silah-sursatla bağlı məsələdə isə digər erməni sakinləri günahlandıraraq qeyd edib: "Mənim fikrimcə, hadisədən bir həftə əvvəl Ağdərədən gəlmiş sakinlər həmin hoteldə məskunlaşmışdılar. Ehtimal ki, onlar qoyublar".

Təqsirləndirilən şəxs İkinci Qarabağ müharibəsində Azərbaycanın həmin vaxt işğal altında olan Xocavənd rayonunda hərbi hissədə hərbçilərlə görüşdüyünü etiraf edib: "Orada kiçik oğlum xidmət edirdi. Həm də "deputat" olaraq bu işləri görmək borcum idi".

O, Azərbaycan hərbçilərinə qarşı döyüşdüyünə görə təltif olunduğunu da bildirərək deyib: "Döyüş xaçı" ordeni təbii ki, mənim döyüş fəaliyyətlərimə görə verilib".

D.İşxanyan dövlət ittihamçısının "Siz 2023-cü il avqustun 30-da mətbuat konfransında bildirmisiniz ki, Rusiya, İran, Fransa, ABŞ və Avropa ölkələrinin parlament rəhbərlərinə açıq məktublar göndərərək, onları Azərbaycana təzyiq göstərməyə çağırmısınız. Bu məktubların məzmunu nə idi? Azərbaycana hansı istiqamətdə təzyiq göstərməyə çağırırdınız?" sualına isə belə cavab verib: "Bəli, mən belə məktublar göndərmişəm. Amma o məktubların ünvanına çatıb-çatmadığını bilmirəm".

Təqsirləndirilən şəxs dövlət ittihamçısı Vüsal Abdullayevin Ermənistanın Azərbaycana hərbi təcavüzünün məqsədi barədə sualını isə belə cavablandırıb: "O dövr üçün mən deyə bilmərəm, çünki o vaxt çox gənc idim. Amma yetkinləşdiyim dövrdə strateji məqsədlərin, strateji prinsiplərin nə olduğunu artıq başa düşmüşdüm. Strateji məqsəd Qarabağın Ermənistana birləşdirilməsi idi".

D.İşxanyan Ruben Vardanyanla tanışlığından, sahibi olduğu hoteldə qalmasından da danışıb: "Vardanyanla 2010-cu, yaxud 2011-ci ildə tanış olmuşam, hotelimizi sevirdi. O, "dövlət naziri" olan ərəfədə, ya da sonra hoteldə görüşlər keçirirdi".

O, doğum haqqında şəhadətnaməsində Azərbaycan SSR-də anadan olmasının yazıldığını, lakin Ermənistan Respublikasının vətəndaşı olduğunu söyləyərək bildirib: "Sovet İttifaqı dağılandan sonra 150 minlik erməni sakin kimi, mən də Ermənistan Respublikasının vətəndaşlığını qəbul etdim. Məndə Ermənistan Respublikasının pasportudur. Mən Ermənistan Respublikasının vətəndaşıyam. Bu, mənim istintaq orqanında olan pasportumda da qeyd edilib".

Məhkəmənin növbəti iclası aprelin 4-nə təyin olunub. Növbəti proses təqsirləndirilən şəxslərə sualların verilməsi ilə davam etdiriləcək.

XQ

Sülhün iki şərti

Ermənistan rəhbərliyinin populizmi kontekstində

(əvvəli 1-ci səhifədə)

Əlqərəz, ölkəsinin sülh prosesinin inkişafı üçün konstruktiv addımlar atdığını deyən S.Xandanyan bildirib ki, İrəvan Bakının həm konstitusiyanın dəyişdirilməsi, həm də ATƏT-in Minsk qrupunun buraxılması tələbinə dəfələrlə cavab verib. Onun sözlərinə görə, Ermənistanın əsas qanununda Azərbaycana qarşı heç bir ərazi iddiası yoxdur. İkinci məsələyə gəlincə, erməni komissiya sədri Minsk qrupunun ləğvinin paralel olaraq və ya sülh müqaviləsi imzalandıqdan sonra həyata keçiriləcəyini açıqlayıb: "Bunun üçün (Minsk qrupunun buraxılması – red.) institusional səviyyədə sülhün bərqərar olması, yəni sülh müqaviləsinin imzalanması lazımdır. Yalnız, bu, münaqişənin aradan qaldırılmasına yönəlmiş mexanizmlərdən imtina etməyə imkan verəcək. Prosesin necə bitəcəyini zaman göstərəcək".

Əslində, Xandanyanın söylədikləri, böyük ölçüdə, yenilik deyil. İndiyədək də rəsmi İrəvan eyni mövqeyi açıqlayıb. Baş nazir Nikol Paşinyan dəfələrlə bu barədə söz açıb. Ancaq erməni parlamentarinin dilə gətirdiklərində bir vacib nüans var. O, "münaqişənin aradan qaldırılmasına yönəlmiş mexanizmlərdən imtina" məntiqini qabardıb. Bu məntiq ATƏT-in Minsk qrupunun mövcudluğunun Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının qalması olduğunun təsdiqidir. Hesab edirik ki, məsələyə belə yanaşma həm ziddiyyətli və səmimiyyətdən uzaqdır, həm də təhlükəlidir. Ziddiyyətlidir ona görə ki, Ermənistan rəsmiləri, o cümlədən Paşinyan dəfələrlə Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü və suvereliyini tanıdığını bəyan edib. Deməli, bu fikirlər səmimiyyətdən uzaq imiş.

İrəvanın Xandanyanın dili ilə ifadə olunmuş mövqeyi təhlükəlidir o səbəbdən ki, ölkəmizə qarşı ərazi iddiasının Ermənistanın üçün hansı acınacaqlı aqibəti yaşatdığını bütün dünya gördü. Azərbaycan isə həmin Azərbaycandır. Hətta indi 44 günlük müharibədə olduğundan daha güclüdür. Bəlkə, Xandanyana və təmsil etdiyi iqtidar komandasına yeni müharibə lazımdır?

*

Bütün bəndlərinin razılaşdırılması başa çatdırılmış sülh müqaviləsi mətinin imzalanması üçün Azərbaycanın Ermənstana qarşı irəli sürdüyü iki şərt bir-birini tamamlayır. Yəni, iki şərtin bir başlıca məramı var. Söhbət ərazi iddiasının, yəni, işğalçılıq təmayülünün tamamilə sıradan çıxmasından və belə halların təkrarlanmaması üçün tutarlı təminatdan gedir. Buna görə də Prezident İlham Əliyev ölkəmizdə səfərdə olan almaniyalı həmkarı Frank-Valter Ştaynmayerlə birgə jurnalistlərin suallarını cavablandırarkən deyib: "Birincisi, ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bunun da məntiqi ondan ibarətdir ki, 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun mandatı Qarabağ münaqişəsinin həlli idi. Qarabağ münaqişəsini Azərbaycan özü həll edib – BMT Nizamnaməsi əsasında və beynəlxalq hüquq çərçivəsində. Münaqişə həll olunduğu üçün və Ermənistan rəsmən Qarabağı Azərbaycan torpağı kimi tanıdığı üçün ATƏT-in Minsk qrupunun de-yure fəaliyyətinə heç bir əsas qalmamışdır. Onsuz da de-fakto bu qrup fəaliyyət göstərmirdi. Ermənistanın buna razı olmaması bizdə haqlı olaraq şübhələr doğurur. Görəsən, nə üçün? Bəlkə Ermənistan bizə qarşı yenə də ərazi iddiası ilə çıxış etmək istəyir?".

Göründüyü kimi, Prezident İlham Əliyev ölkəmizin ATƏT-in Minsk qrupunun rəsmən ləğvi məsələsini nə üçün sülh müqaviləsinin imzalanması şərti kimi irəli sürdüyünə yetərincə geniş və təfsilatlı aydınlıq gətirib. Əslində, dövlətimizin başçısının digər fikirləri də bu baxımdan vacibdir. Məsələn, Azərbaycan Prezidenti Ermənistanın hazırkı rəhbərliyinin vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı ilə danışıqlar prosesinin pozduğunu, müharibəyə səbəb olduğunu açıqlayıb. S.Xandanyanın diqqətə çatdırdığımız "münaqişənin aradan qaldırılmasına yönəlmiş mexanizmlərdən imtina" fikri isə o deməkdir ki, hazırkı durumda rəsmi İrəvan sülh müqaviləsini Qarabağ münaqişəsindən kənar tutur.

Bəli, nəzərə alsaq ki, Ermənistan rəhbərliyinin 2020-ci ilin 44 günlük müharibədən əvvəl həm "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı, həm də Azərbaycanın Qarabağdakı keçmiş separatçı rejimlə danışıqlar aparmasına dair sərsəmləməsi olmuşdu. O zaman kim təminat verə bilərdi ki, rəsmi İrəvan barış sazişi imzalandıqdan sonra Bakının ATƏT-in Minsk qrupunun ləğvinə dair şərtini yerinə yetirəcək? Aydındır ki, belə bir təminat yoxdur. Üstəlik, N.Paşinyanın 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən öncə "Qarabağın özünün seçkili hakimiyyəti var", – deməsi də yaddan çıxmayıb. Hələ rəsmi İrəvanın "Qarabağ ermənilərinə beynəlxalq təminat" oyunu da olub. Ümumən, erməni iqtidarının oyunları saysız-hesabsızdır.

Deməli, sülh müqaviləsi Qarabağ münaqişəsinin unudulması, konfliktin ayrı prizmada qiymətləndirilməsinə şərait yaradacaq ehtimalların saxlanılması ilə ərsəyə gələ bilməz. Ən azından ona görə ki, hazırda olmayan barış mühitinin, baş vermis iki müharibənin səbəbkarı elə həmin münaqişə, daha böyük ölçüdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasıdır. Bu iddianın aradan qalxdığını paşinyanların, xandanyanların və digər yanların sözlü bəyanatları sübuta yetirə bilməz. Ölkəmizə gerçək təminat lazımdır. Təminatın ilk kazusunu isə Bakının və İrəvanın ATƏT-in Minsk qrupunun rəsmən ləğvi üçün müştərək müraciət ünvanlaması təşkil edir.

*

Ermənistan konstitusiyasının dəyişdirilməsi də təminatdır. Prezident İlham Əliyev Almaniya lideri ilə birgə jurnalistlərin suallarını cavablandırarkən, bu məsələnin də üzərində ətraflı dayanıb: "İkinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır. Ermənistan konstitusiyasında Ermənistanın müstəqillik aktına istinad var. O, konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir".

Bəli, Prezident İlham Əliyev həm də otuz ilə yaxın davam etmiş işğal səbəbindən bildirir ki, "bu iki şərt təmin ediləndən sonra sülh müqaviləsini imzalamaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər doğrudan da Ermənistan sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir". Habelə, ortada olduqca sadə məntiq var. Nəzərə alınmalıdır ki, biz yox, Ermənistan bizə qarşı təcavüzkar siyasət yürüdüb. 1988-ci ildə "Miatsum" bağıran xalqımız deyil, erməni millətçiləri olublar. Danışıqlar adı ilə Azərbaycan torpaqlarının işğalının düşüncələrdə möhkəmlənməsinə çalışan, bunun üçün vaxt uzadıb Azərbaycanda nəsillərin dəyişilməsinə, Qarabağın gənclərimiz tərəfindən unudulacağına siyasi sərmayə yatıran da rəsmi İrəvan və havadarları idi. Belə olan halda, Bakı, əlbəttə ki, sülh müqaviləsini təminat altına almaqda tam haqlıdır.

Digər tərəfdən, Ermənistan silahlı qüvvələri ötən ayın ikinci ongünlüyündən başlayaraq şərti sərhəddə atəşkəsi pozmağa başlayıblar. Hesab edirik ki, Prezident İlham Əliyev İrəvanın sürətlə silahlanmasını, öldürücü silahlar əldə etməsini, Fransanın Ermənistanı yeni təxribatlara çəkməsini, eyni zamanda, bu səbəbdən vurğulayıb. Qarşı tərəfin həyasızlığında isə güllə səslərinə görə Azərbaycanı günahlandırmaq motivi yer alır. Fikirlərini diqqətə çatdırdığımız S.Xandanyan da, guya, Azərbaycan Silahlı Qüvvələrinin atəşkəsi intensiv şəkildə pozmağa başladığına dair sualı cavablandırıb. "Hesab edirəm ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi məsələsində müsbət beynəlxalq ab-hava formalaşıb və ola bilsin ki, bu ab-havanı bir az korlamaq, problemlərin hələ də qaldığı təəssüratı yaratmaq məqsədi var".

*

Sonda bir daha populzmə, daha doğrusu, Xandanyanın özünə ünvanlanmış "pupulist"in o qədər də pis söz olmadığını bildirməsinə qayıdaraq, bir məqamı vurğulayaq ki, İrəvan və havadarları hər zaman Azərbaycanla sülh müqaviləsinin yarımçıq şəkildə ərsəyə gəlməsinə çalışıblar. İstər baş nazir N.Paşinyanın, istərsə də digər erməni rəsmilərinin barış sazişi mətninin əvvəl 13, sonra 15 bəndinin razılaşdırıldıqdan sonra sənədi imzalamağa çağırış yüklü açıqlamaları, beynəlxalq ictimai rəyi çaşdırmağa, Ermənistanı "sülh göyərçini" kimi göstərməyə, müvafiq olaraq Azərbaycanı qeyri-konstruktiv tərəf qismində təqdim etməyə yönələn çoxsaylı açıqlamalarının mövcudluğu faktdır. Hazırda Xandanyanın dediklərinin qayəsini də təşkil edən məhz budur. Deməli, erməni komissiya sədri barədə işlədilmiş "populist" ona görə yerinə düşür ki, indiki durumda bu söz özündə bütövlükdə Ermənistan rəhbərliyinin spekulyativ və manipulyativ yanaşma tərzini ehtiva edir. Belə bir tərzin sülhdən uzaq zərərli mahiyyət daşıdığını anlamamaq isə fəlakətdir.

Ə.CAHANGİROĞLU
XQ

Arzunuz gözünüzdə qalacaq!

(əvvəli 1-ci səhifədə)

Bu zaman imkanlı amerikalı ermənilər konqresmenləri ələ almaqdan ötrü məqbul və qeyri-məqbul vasitələrdən, o cümlədən yalandan gen-bol yararlanırlar. Fəallar 2023-cü ilin sentyabrında Qarabağdan könüllü köçən ermənilərin sayını şişirdərək, əvvəlki 120 mindən 150 minə çatdırıblar. ANKA-nın "milli təəssübkeşləri" bununla da kifayətlənməyib, konqresmenlərdən Azərbaycanın dövlət rəsmilərinə qarşı "Maqnitski Aktı"nın tətbiqini xahiş ediblər.

ARAYIŞ: Maqnitski aktı 2012-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş qanun layihəsidir. İnsan hüquqlarının pozulmasında günahkar sayılan şəxslərə qarşı tətbiq edilir. Bu sənəd Hermitage Capital Fondunun hüquqşünası Sergey Maqnitskinin Moskvadakı təcridxanalarının birində istintaqın gedişi zamanı öldükdən sonra qəbul edilib.

Uzun illər ABŞ-dakı erməni diasporunun pulları ilə yemlənən, qanuna, ədalətə və məsləyinə xəyanət edən bəzi konqresmenlərin bu layihəsi də əvvəlkilər kimi, havadan asılı qalacağı, az sonra isə sabun köpüyünə dönəcəyi şübhəsizdir. Bəli, həmin konqresmenlər haylardan qopardığı pulların qarşılığını ödəməyə məcburdurlar. Axı, erməni diasporu onlara "artsax" mövzusunu gündəmdən çıxarmamağı tapşırıb. Yəqin onları inandırmağa çalışırlar ki, Ermənistandakı mövcud hakimiyyət müvəqqətidir və nə vaxtsa tarixi fürsət yaranacaq və "Dağlıq Qarabağı" yenidən ələ keçirə biləcəklər. Əlbəttə ki, xəstə hay təxəyyülünün məhsulu sayılan bu utopik plan, heç vaxt çin olmayacaq arzudur. Türklərlə bir yerdə yaşamağı mümkünsüz sayan ermənilərin geri qayıdışı, burada təzədən qondarma rejim yaratmaq ideyası məhv olmuş gündəliyin çoxdan çürümüş səhifəsidir. Kaliforniyadan təlimatlar alan haypərəst konqresmenlərin bu yöndə fəaliyyəti, sadəcə, məsələni gündəmdə saxlamaq cəhdindən başqa heç nə deyil. Keçən ilin avqustunda ABŞ Konqresinin qondarma "artsax"la bağlı ermənilərlə birlikdə tədbir keçirməsini də unutmamışıq. ABŞ Nümayəndələr Palatasının Ermənistan üzrə qrupunun həmsədrləri Frank Pallone, Qus Bilirakis, Adam Şiff və David Valadao dəfələrlə Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırıblar. Son beş ildə Konqres anti–Azərbaycan xarakterli bir çox qanun layihələri, qətnamələr qəbul etməyə çalışıb, fəqət heç biri qəbul olunmayıb.

* * *

Oxuculara xatırladaq ki, bir il bundan əvvəl Konqresin erməni lobbisinin pulunun əsirinə çevrilmiş bəzi üzvləri Azərbaycanın dövlət strukturlarının yüksək rütbəli şəxslərinə qarşı qanun layihəsi hazırlamışdılar. O zaman bu məsələyə Bakının sərt reaksiyası ilə üzləşən ABŞ Dövlət Departamenti məsuliyyəti öz boynundan atmağa, ədalətsiz qətnaməni "malalamağa" hesablanmış açıqlama vermişdi. Azərbaycana həmişə soyuq yanaşmış demokratları Ağ evdə respublikaçılar əvəz edəndən sonra ümid edirdik ki, yeni administrasiya qanunverici orqanda erməni lobbisinin qazdığı korrupsiya bataqlığını qurudacaq və dünyanın "demokratiya beşiyi"ndə hüququn aliliyini, xarici siyasətin neytrallığını, idarəetmə sisteminin şəffaflığını təmin edəcək. Amma göründüyü kimi, ABŞ Konqresində dərin yuva salmış ermənipərəst parlamentarilərin Azərbaycana qarşı hikkəsi bitib-tükənmir. ABŞ-ın siyasi, iqtisadi, eləcə də hüquqi sistemində kifayət qədər güclü dayaqlara malik erməni lobbisi tərəfindən on illər ərzində bəslənən, beyinləri "miatsum"la yuyulan bu zatlar ölkəmizin ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə bərpa etməsi faktını hələ də həzm etməkdə çətinlik çəkir, Azərbaycana qarşı hər cür təzyiq göstərməkdən qalmırlar. Mövcud vəziyyəti maraqlı edən məqamlardan biri də Donald Tramp Administrasiyasının Cənubi Qafqazla bağlı xarici siyasətini açıqlamaması, konkret mövqe bildirməməsidir. Belə ziddiyyətli durum hayların Konqresdə Azərbaycana qarşı növbəti demarşına zəmin yaradan amillərdəndir. Maraqlıdır ki, ABŞ Konqresi və Fransa Senatında ölkəmizə qarşı hücumlar münaqişədən sonrakı dövrdə – Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması üçün ilkin şərtlər yarananda, Bakı ilə İrəvan arasında vasitəçisiz danışıqlar başlananda gücləndi. Amma indi aydın olur ki, hazırda başı ABŞ və Rusiya ilə münasibətlərini aydınlaşdırmağa qarışan Fransanın, Avropa İttifaqının haypərəst missiyasını ABŞ Konqresi yerinə yetirir. ANKA-nın bu qurumda hərəkətə keçməsinin səbəblərindən biri də budur.

* * *

Bu arada bir qrup konqresmen "erməni soyqırımı" ilə bağlı maarifləndirici proqramın yaradılmasını nəzərdə tutan qanun layihəsini təqdim edib. Bu cəfəng layihənin təşəbbüskarı konqresmen Dina Titusdur. Ona həmkarları Qus Bilirakis, David Valadao və Ted Liu də qoşulublar. Ermənistan mediası ABŞ-ın "Hay Dat" Komitəsinə istinadən xəbər verir ki, layihə beş il ərzində tədris materiallarının hazırlanması və yayılması, müəllimlərin təlimi, onlayn resursların yaradılması və müvafiq mövzuların məktəb kurslarına daxil edilməsi üçün 10 milyon dollar ayırmağı planlaşdırır. Dina Titusun sözlərinə görə, onun təşəbbüsü tələbələrə "erməni soyqırımı" haqqında məlumat vermək, onun inkarına qarşı mübarizədə bir addım olmaqla yanaşı, qurbanların xatirəsini ehtiramla yad etmək üçün bir vasitə olacaq. O, layihə ilə bağlı "bu qanunvericilik həqiqətə və ədalətə sadiqliyi, təhsilin dünyanı gələcək nəsillər üçün daha şüurlu və humanist bir məkana çevirmək gücünə malik olduğuna inamı təlqin edir" – deyə bildirib.

ABŞ-ın hay lobbisi tərəfindən fəal şəkildə təbliğ edilən qondarma "erməni soyqırımı" mövzusu mütəmadi olaraq ABŞ Konqresinin gündəliyinə daxil edilir. Xatırladaq ki, layihə ilk dəfə 2022-ci ilin aprelində konqresmenlər Karoline Maloney və Qus Bilirakis tərəfindən təklif edilmiş, amma uğurlu alınmamışdı. Məhz buna görə ardıcıl anti-Azərbaycan mövqeyi, ölkəmizə qarşı gülünc çıxışları və hücumları ilə tanınan Dina Titus bu dəfə təşəbbüsü irəli sürmək missiyasını öz üzərinə götürüb.

Bir il bundan əvvəl – 2024-cü ilin aprelində D.Titus ABŞ Konqresini Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırıb. Bu barədə sosial şəbəkələrdə yazmışdı: "Mən indicə "artsaxda" ermənilərin etnik təmizlənməsi və siyasi müxalifətin vəhşicəsinə repressiya edilməsindən sonra Azərbaycanın 44 rəsmisinə qarşı tədbirlər görmək üçün nəzərdə tutulmuş sanksiyalar haqqında qanun layihəsini təqdim etdim". Azərbaycana qarşı hərbi cinayətlərdə ittiham olunan Qarabağdakı keçmiş separatçı rejimin nümayəndələrini müdafiə edən absurd açıqlamaları Titusun ermənipərəst mövqeyini bir daha təsdiqlədi.

* * *

Aydın məsələdir ki, Vaşinqton özünün xarici siyasətini erməni lobbisinin istəyi ilə qurmur. Ağ ev işini daha geniş planda, aldığı kəşfiyyat məlumatlarının, diplomatik informasiyaların əsasında görür. Dövlət Departamenti ermənilərin istək və arzularından asılı olmayaraq, Cənubi Qafqaz bölgəsində maraqlarının hansı şəkildə təmin olunacağına üstünlük verəcəyini özü qərarlaşdırır.

Hələlik xaricdəki daşnak-separatçı hay toplumu "artsaxı" unutdurmamaq siyasətinə sadiqdir. Fəqət, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanacağı, kommunikasiyaların açılacağı təqdirdə bu adamların "erməni məsələsi" üzərindən maddi və siyasi dividendlər əldə etmək imkanları da sıfırlanacaq. Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkdikdən, tərəflər arasında diplomatik əlaqələr qurulduqdan sonra, avtomatik olaraq, haypərəst konqresmenlərin xidmətlərinə də ehtiyac qalmayacaq.

İrəvan da hələlik altdan-altdan Bakı və Ankara ilə dialoq qurmaq əvəzinə, revanşist əhval-ruhiyyəni təşviq edir, erməni lobbisi isə Azərbaycanı ləkələyən qətnamələrin qəbuluna can atır. Bunun üçün Qərbin qanunverici orqanlarındakı xəfiyyələrinə böyük vəsaitlər xərclənir. İntəhası, bunun da tükənən məqamı olacaq...

İmran BƏDİRXANLI
XQ

Ekspert rəyi

Tofiq ABBASOV,
siyasi şərhçi

– Bu gün aydın olur ki, ermənilərin kütləvi şəkildə Qarabağı tərk etmələri nəyə görə lazım imiş. İrəvan, guya, uzaqgörənlik etməklə ermənilər oradan qovub çıxardı ki, sonra "etnik təmizləmə" vay-şivəni qaldırsın. 1988-1991-ci illərdə azərbaycanlıları tarixi yurdlarından amansızlıqla deportasiya edənlər il yarım bundan əvvəl bu məsələdə "heç-heçə" variantı yaratmaqdan ötrü bu işə qol qoydular. Bunun birinci səbəbi müharibəni uduzmaları idisə, ikinci səbəb vəziyyətdən çıxış yolu kimi bu məsələni gündəmə gətirməyi düşünmüşdülər. İndi hər tərəfdən hay-küy qaldırırlar ki, Qarabağ ermənilər deportasiyanın qurbanı olublar, Azərbaycan vəhşi dövlətdir və sairə. Yəni, özləri törətdikləri cinayətlərin hamısını bizim ayağımıza yazmağa çalışırlar. Digər tərəfdən, bu minvalla dünya birliyini, aparıcı siyasi gücləri öz tərəflərinə çəkmək və Azərbaycan üçün problem yaratmaq məqsədini güdürlər.

Əslində, bu, növbəti uğursuz bir cəhddir. Biz ermənilər Qarabağdan qovmamışıq. Az sayda olsa da, indi orada qalanlar, Azərbaycan vətəndaşlığını qəbul edənlər, hətta son seçkilərdə səs verənlər də var. Kənar güclər artıq yaxşı başa düşürlər ki, düz yerdə Azərbaycan üçün problem yaratmaq hayların köhnə şakəridir. Amma, necə deyərlər, bu həna o hənadan deyil. Çünki münaqişənin ağır yükünü Azərbaycan özü çiynindən atmağı, beynəlxalq hüququ, tarixi ədaləti bərpa etməyi bacardı. İndi ermənilər bütün imkanlarını ona görə səfərbər ediblər ki, biabırçı məğlubiyyətdən sonra özlərinə bəraət qazansınlar. Ermənistan Azərbaycanı belə ucuz üsullarla hədələməklə özünə problem yaratmaqla məşğuldur. Bizim müharibəmiz də, mübarizəmiz də beynəlxalq hüquqa və ədalətə söykənir. Azərbaycan pozulmuş hüququnu bərpa edib və haqqı çatanı alıb. Hər halda amerikalı konqresmenlər o dərəcədə dardüşüncəli və satqın deyillər ki, erməni lobbisinin oyununun qurbanları olsunlar.

Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda

VI MƏQALƏ

Milli ideya 2020-ci il Zəfərindən sonra

2020-ci il Vətən müharibəsində Azərbaycanın Zəfəri o dərəcədə əhəmiyyətli və təsirli oldu ki, postmüharibə mərhələsinin asan keçməyəcəyi öncədən bəlli idi. Burada əsas ağırlığın informasiya və ideologiya üzərinə düşəcəyini təxmin etmək olardı. Çünki Azərbaycan müharibə paradiqmasına əsaslanan dövlət deyildir və ərazi bütövlüyü bərpa ediləndən, suverenlik isə tam təmin olunandan sonra bizimlə dost olmaq istəməyən məlum dairələrin əsas gücü informasiya və ideologiyaya verəcəyi daha çox gözlənilən idi. Bu prosesin yeni geosiyasi çağırışlar fonunda vüsət alması isə ayrıca mürəkkəb situasiya yarada bilərdi. İndi baş verənlərin təhlili göstərir ki, gözlənilən proqnozlar özünü doğruldur. Burada Azərbaycanın ikiqat informasiya və ideologiya dalğalarının təsiri altında mübarizə apardığı özünü göstərir.

İnformasiya dalğası

Vətən müharibəsindən sonra müxtəlif istiqamətlərdən Azərbaycanı yolundan sapdırmaq məqsədi ilə aktiv informasiya dalğası başladı. O, iki istiqamətdə özünü daha çox göstərir.

Birinci istiqamət iqtidarı xalqın gözündən salmaqla bağlıdır. İkinci istiqamət isə Vətən müharibəsindən sonra seçilən kursa qarşı şübhələr oyatmaqla əlaqəlidir.

Onların ortaq hədəfi də vardır – real olmayan informasiyaları yaymaqla (əsasən sosial şəbəkələrdə) gerçəyi gizlətmək, vətəndaşlarda özünə, ətrafına və bütövlükdə cəmiyyətə qarşı inamsız münasibət formalaşdırmaq. Bunun üçün etnik, mədəni, məişət, tarixi, sosial mühit, mənəvi-əxlaqi dəyərlər və s. aspektlərdə yalan informasiyaları tez-tez "neytral mövqe" kimi dövriyyəyə buraxmaq kimi hiyləgər yol seçmişlər. Daha doğrusu, bir sıra xüsusi peşəkar dairələr (məsələn, USAID və ona bənzər digər qurumlar) "faktlara əsaslanan həqiqətlər" kateqoriyası adı altında çaşdırıcı informasiyaları daha intensiv olaraq cəmiyyətə sırımaqdadırlar.

Bu prosesdə yad dairələrə bir sıra KİV orqanları qulluq göstərməkdədir. Onlar "milli media" adı altında ayrı-seçkilik, cəmiyyətin əsas etnosunun təhrif olunmuş kimliyini yaratmaq, müxtəlif ziyalılar, siyasilər və hətta hakimiyyətdə təmsil olunanlar arasında əsassız intriqalar törətmək və sair kimi anti-Azərbaycan xarakterli "obyektiv" informasiyaların yayımını çoxlatmaqdadırlar.

Bəzən onları "5-ci kolon", "6-cı kolon" və ya neçənci kolon kimi xarakterizə edirlər. Lakin gerçəklikdə vəziyyət "kolonvari" deyildir. Çünki o bölgü artıq köhnəlmişdir, keçmişdə qalmışdır. Bəs onda 2020-ci il Zəfərindən sonra Azərbaycana qarşı tətbiq edilən bu "yumşaq informasiya gücü"nü necə xarakterizə etmək olar?

"Posthibrid informasiya"

İndi bizim ölkəyə qarşı informasiya təsirlərini məhz "posthibrid informasiya müharibəsi" kimi xarakterizə edə bilərik. Bu, "hibrid informasiya müharibəsi"ndən sonrakı mərhələdir. Əsas əlamətləri aşağıdakılardır:

Birincisi, "posthibrid informasiya"nın hədəfi açıq olmur – o, müxtəlif hədəfləri eyni anda "vura biləcək maska" altında yayılır. Nümunə: "Filan tarixçi milli kimliyi yeni "faktlar" əsasında araşdırmışdır. Məlum olmuşdur ki, burada hələ çox qaranlıq məqam vardır". Məqamlar kimi də yad mənbələrdə yer almış informasiyaların anti-Azərbaycan ruhda "elmi izahı" olur. Burada açıqca "Azərbaycan toplumunun böyük əksəriyyəti türkdürmü?" sualı qoyulmur. Əvəzində dolayısı ilə "yeni obyektiv faktlar" əsasında bütün hallarda bir cavaba apara biləcək formada informasiya verilir. Həmin öncədən hazır cavab belədir: "Azərbaycan toplumu hələ özünün kim olduğunu bilmir". Və bundan sonra əsas məqsəd üstüörtülü ifadə edilir: "Azərbaycan türk dövləti deyil"! Həm də bunu ağıllarınca ehtiyatla və "tam faktiki və məntiqi baza" hazır olandan sonra yenə də birbaşa deyil, müxtəlif kontekstlərdə deyirlər.

Bu, indi Azərbaycanda yayılan oxşar xarakterli informasiyalardan bəlkə də ən sadələrindən biridir. Bəzən 3-4 qat gizlədilmiş və "tarixi, mədəni, əxlaqi məzmunu aydın olan" təxribat xarakterli, sırf anti-Azərbaycan ruhlu informasiyaları müxtəlif "milli" şəbəkələr vasitəsilə yaymağa çalışırlar.

İkincisi, "posthibrid informasiya" ən yeni texnologiyaların fonunda təqdim edilir. Yəni hansısa süni intellektin "çıxardığı məntiqi nəticə" olaraq cəmiyyətə sırınır. Nümunə: süni intellektə hansısa etnos və ya cəmiyyət haqqında sual verilir və onun cavabı "neytral, obyektiv statusunda" yayılır. Bundan, adətən, tarixi keçmişin təhrif olunmuş obrazını yaratmaq məqsədilə konkret sərkərdələr, dövlət başçıları, hökmdarlar, siyasi liderlər barədə arzu etdikləri məzmunda məlumat yaymaq üçün istifadə edirlər. Və yaxud "posthibrid informasiya" adi məlumat kimi primitiv məzmunda yayıla bilər.

Məsələnin milli təhlükəsizliklə bağlı çox əhəmiyyətli aspekti də mövcuddur. Dünya miqyasında bu barədə Henri Kissincer yazmışdır. Azərbaycanın da milli təhlükəsizliyi üçün risklər yarada bilən və süni intellektin funksional imkanlarına əsaslanan, bir sıra kənar dairələrə məxsus avtonom informasiya-idarəetmə sistemləri vardır. Onların mümkün təsirlərinin neytrallaşdırılması milli ideya kontekstində ayrıca bir fəaliyyət tələb etməkdədir.

Üçüncüsü, "posthibrid informasiya" müharibəsinin konkret "səngəri" yoxdur – o, bütövlükdə cəmiyyəti, o cümlədən, onun mental sahəsini hədəfləyə bilər. Burada onun "kolonluq" xüsusiyyəti pozulur, ümumiyyətlə, hər yerdə və hər zaman məhdudiyyətsiz qaydada təsir potensialına malikdir. Bu üsuldan, adətən, dövlətin görkəmli xadimlərinə, yazıçılara, şairlərə, alimlərə, bütövlükdə ziyalı təbəqəsinə, xalqın qəhrəmanlarına qarşı istifadə etməyə çalışırlar. Burada əsas məqsəd Azərbaycan cəmiyyətini özünün gözündən salmaqdan ibarətdir.

Asimmetrik ideoloji təsirlər

Asimmetrik ideoloji təsirlər posthibrid informasiya müharibəsinin daha sistemli və çoxpilləli mərhələsidir. Burada asimmetriklik ideoloji təsirin fərqli kəsimlər üçün fərqli təsir gücü yaratması ilə bağlıdır. Yəni bir ideoloji informasiya elementi sosiumun hansısa kəsimi üçün çox, digəri üçün isə az həssas ola bilir. Lakin bu qeyri-xəttilik başqa ideoloji elementlərlə balanslaşdırılır. Həmin balanlaşdırma bir kontekstdə reallaşmır – fərqli situsiyalarda özünü göstərdiyinə görə, onu adi gözlə görmək mümkün olmur. İdeoloji element ətrafında elə mühit yaradırlar ki, ziddiyyəti anlamaq çox çətin olur. Yalnız arxa planda olan müxtəlif parçaları birləşdirəndə ümumi mənzərə görünür.

Nümunə: "Azərbaycanı "İbrahim uşaqları" sazişinə dəvət edirlər" informasiyası ətrafında "Azərbaycan – ABŞ – İsrail strateji tərəfdaşlıq üçbucağı yaradıla bilər" ideoloji mühitini formalaşdırırlar. Bu iki informasiya, üzdə, doğrudan da, normal və hətta faydalı görünür. Çünki İsrail – Azərbaycan münasibətləri yaxşıdır, qarşılıqlı faydalılığa əsaslanır, hər iki dövlət öz maraqlarını gözləməklə əməkdaşlığa doğru can atır. Burada anormal nə var ki? Və yaxud bütün dünya etiraf edir ki, ABŞ yeni dünya nizamı yaradır və D.Tramp Azərbaycana önəm verir. Həqiqətən, çox gözəl! Buna görə də Azərbaycan – ABŞ – İsrail strateji üçbucağı lazımlı görünür. Lakin...

Birincisi, Azərbaycan 2020-ci ildən sonra öz geosiyasi seçimini etmişdir və həmin istiqamətdə fəallıq və fədakarlıqla addımlar atır. Həmin seçim belədir: "Biz türk ailəsinin üzvüyük və Türk Dövlətləri Təşkilatının (TDT) inkişafı üçün çalışacağıq"! Bu seçimlə "İbrahim uşaqları" proqramı nə dərəcədə uyğunlaşır? Üstəlik, həmin proqramda TDT-nin 3 üzvü – Azərbaycan, Qazaxıstan və Özbəkistanın adını hallandırırlar. Bu türk dövlətləri Türkiyə ilə bütün sahələr üzrə strateji müttəfiqlik sazişləri imzalamışlar. İsraillə Türkiyənin münasibətləri isə hamıya məlumdur.

Deməli, məsələ asan, sadə və birmənalı deyildir. Hətta, deyərdim ki, xeyli kateqorik və sərtdir: "TDT, yoxsa "İbrahim uşaqları"? Düşündürücüsü odur ki, bu suallar Azərbaycanda özünü "milli" təqdim edən bir sıra saytlarda Azərbaycan jurnalistlərinin yazdıqları məqalə və ya informasiya blokunda ifadə edilən məzmunların fonunda yaranır. Aydın görünür ki, müəyyən ideoloji təbliğatı "Azərbaycanın maraqları" qismində üstüörtülü şəkildə yaymaq cəhdləri vardır. Daha düşündürücüsü: Azərbaycan toplumunda, media ilə bağlı qurumlarda bu vəziyyətə reaksiya hiss edilmir. Yanlışlıq varsa, öncədən üzr istəyirəm!

Başqa bir nümunə kimi son zamanlar dillə bağlı müşahidə edilən mübahisələri göstərə bilərik. Düzdür, indi o, bir qədər səngimişdir. Lakin ideoloji hədəf baxımından hələ də aktual olaraq qalır. Bu prosesdə də azərbaycançılıq, vətənçilik, dövlətçilik və milliliklə dövlət dilinin vəhdətini ya görə bilməyənlər, ya da görməzlikdən gələnlər fəal olmağa çalışırlar.

Deyirlər ki, rus dilində təhsil almaq nəinki zərərlidir, hətta, əsl azərbaycanlı elə onlardır! Təbii ki, məsələ konkret rus dilini bilməyə münasibətlə qətiyyən əlaqəli deyildir. Anormal olanı hətta deputat səviyyəsində rus təhsili almağı prioritet kimi təqdim etməyə çalışanların olmasıdır. Əlbəttə, rus dilində təhsil almaq olar, lazımdır da. Lakin etiraz buna deyil: Azərbaycanda hansı mentalitetin dominantlığının doğru olması ilə bağlıdır! Dövlət dilində təhsilin savadlılıq, yaxşı mütəxəssis olmaq, əsl milli olmaq nümunəsinə çevrilməsi zəruridir! Heç bir yad dil bu kontekstdə dövlət dilini əvəz edə bilməz və etməməlidir!

Həssas məqamlar

Vurğuladığımız informasiya və ideologiya xarakterli məqamlar bir daha göstərir ki, "Azərbaycanın Zəfəri çox daşları yerindən tərpətmişdir"! Bunun fonunda aydın olur ki, ideoloji mübarizə nəinki səngimişdir, hətta yeni səviyyədə daha da kəskinləşmişdir. Bunlar yeni çağırışların müxtəlif aspektlərdə təzahürləri kateqoriyasına daxildir. Bir tərəfi isə milli ideyaya bağlıdır. İndi söhbət elə geosiyasi seçimdən gedir ki, bütün maddi və maliyyə faydalarından daha üstün olan milli maraqların Azərbaycanın müstəqil dövlət olaraq regionlararası miqyasda söz sahibi olması təmin edilməlidir. Bunun kökündə düzgün geosiyasi seçim dayanır. Bu seçimi rəsmi Bakı qətiyyətlə etmişdir: TDT-yə alternativ yoxdur!

Deməli, açıq və ya gizli, məhdud və ya geniş əhatədə cəmiyyət özündən asılı olmayaraq, böyük informasiya və ideologiya savaşının mərkəzindədir. "Posthibrid informasiyalar", üstüörtülü ideoloji elementlər, şirniklendirici geosiyasi konfiqurasiyalara dəvət və digər cəhdlər güzəştsiz və sərhəddsiz savaş meydanı açır. Biz oradayıq, tarixi mübarizəmizin strateji baxımdan ən həssas mərhələsindəyik. Bu prosesdə Prezidentimizə fəal surətdə tam dəstək vermək məsuliyyəti içərisindəyik!

Vurğuladığımız kontekstdə XXI əsrin yeni çağırışları fonunda milli ideyanın strateji rolunu ayrıca dərk etməyimiz gərəkdir. Milli ideya elə məzmun almalıdır ki, həm milli ideologiya olan azərbaycançılığı, həm də mulitkulturalizmi maksimum inkişaf etdirməyə təkan versin.

Bununla yanaşı, Azərbaycanın regionlararası miqyasda aparıcı rolu təmin edilməlidir. Milli ideya vurğulanan bu iki daxili və xarici miqyaslarda Azərbaycanın müstəqil güclü dövlət kimi qarşısında duran vəzifələri həyata keçirməyə əsas yaradan baza ideya olaraq məzmunlaşmalıdır.

Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru

Süni intellektin "yol xəritəsi"

II

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 19 mart 2025-ci ildə imzalanan sərəncamda süni intellektin tətbiqi ilə bağlı xüsusi vurğulanan aspektlərdən biri də dövlət orqanlarında məlumatların işlənməsinin təkmilləşdirilməsi məsələsidir. Diplomatik nümayəndəliklər də dövlətin beynəlxalq səviyyədəki əlaqələrini idarə edən əsas orqanlar olaraq, ölkənin xarici siyasətini, təhlükəsizlik məsələlərini və iqtisadi münasibətlərini koordinasiya edir. Süni intellektin tətbiqi bu nümayəndəliklərdə hazırlanan məlumatların daha sürətli və effektiv şəkildə işlənməsinə, həmçinin beynəlxalq məsələlərə daha operativ və məqsədyönlü reaksiya verilməsinə imkan yaradacaq və Azərbaycanın diplomatik missiyalarını daha yüksək effektivliklə həyata keçirməsinə çalışacaq.

Diplomatik nümayəndəliklər xarici siyasət məsələlərini tənzimləmək və dövlətlərarası əlaqələri gücləndirmək üçün daimi məlumat axınına ehtiyac duyur. Məlumatın doğruluğu, sürəti və operativliyi diplomatik danışıqların nəticələrinə birbaşa təsir edən faktorlar arasında yer alır. Süni intellekt diplomatların qarşılaşdığı məlumat yükünü asanlaşdırmaq və məlumatları daha sürətli təhlil edərək müvafiq qərarların qəbulunu sürətləndirmək üçün böyük potensiala malikdir. Süni intellekt alətləri diplomatların məlumatların böyük miqdarını təhlil etmələrinə və müxtəlif ölkələrdəki siyasi vəziyyətlər, iqtisadi göstəricilər və mübahisəli məsələlərlə bağlı analitik hesabatlar hazırlamalarına kömək göstərə bilər.

Süni intellekt sistemləri müxtəlif mənbələrdən – sosial media, xəbər portalları, beynəlxalq təşkilatların hesabatları və dövlətlərin rəsmi açıqlamaları – məlumatları real zamanda toplaya və təhlil edər və bu da diplomatlara beynəlxalq aləmdəki dəyişiklikləri dərhal izləməyə və vəziyyəti qiymətləndirərək operativ qərarlar qəbul etməyə imkan verər. Nümunə üçün qeyd edə bilərik ki, hər hansı bir ölkədə siyasi böhran başlayarkən süni intellekt müvafiq xəbərləri və təhlilləri toplayaraq, diplomatların hadisəyə dair düzgün fikir yürütmələrini təmin edər.



Prezident İlham Əliyevin sərəncamında süni intellektin tətbiqi ilə əlaqədar olaraq informasiya təhlükəsizliyinin təmin edilməsi məsələsi xüsusi vurğulanıb. Dövlət orqanları arasında süni intellektin tətbiqi məlumatların təhlükəsizliyinin qorunması məqsədilə ciddi tədbirlərin görülməsini tələb edir. Azərbaycanın xarici siyasətində həssas məlumatların idarə edilməsi və qorunması çox önəmlidir. Diplomatik nümayəndəliklər və xarici siyasət qərarlarını verən dövlət orqanları gündəlik olaraq strateji əhəmiyyətə malik məlumatlarla işləyirlər. Bu məlumatlar yalnız daxili təhlükəsizliyə deyil, həm də beynəlxalq münasibətlərə, ölkənin nüfuzuna və təhlükəsizliyinə birbaşa təsir edir.

Rəsmi məlumatlar, adətən, yüksək səviyyəli dövlət məxfiliyini ehtiva edir və onların sızması, ya da təhlükəsizliyinin pozulması milli təhlükəsizlik üçün ciddi risklər yarada bilər. Süni intellektin tətbiqi bu məlumatların qorunması və təhlükəsizliyinin artırılması üçün müxtəlif yeni üsullar təqdim edir. Diplomatik sənədlərin qorunması, məxfiliyi və dövlətin xarici siyasətinin effektiv icrası üçün məlumatın sızması və ya kiberhücumlardan qorunması vacibdir. Süni intellekt alətləri məlumatların şifrələnməsi və təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Məlumatların şifrələnməsi yalnız müvafiq və səlahiyyətli şəxslər tərəfindən əldə olunmasını təmin edir. Süni intellektin tətbiqi ilə təhlükəsizlik protokolları avtomatik olaraq izlənə və məlumatların yalnız müvafiq səlahiyyətə malik şəxslər tərəfindən açılmasına şərait yarada bilər.

İnformasiya təhlükəsizliyi yalnız məlumatların sızdırılmasından deyil, həm də kiberhücumlar və məlumatların manipulyasiya edilməsindən də qorunmalıdır. Süni intellekt dövlətin informasiya sistemlərində potensial kiberhücumları aşkar etmək və onlara qarşı sürətli müdaxilə üçün geniş istifadə edilə bilər.

Azərbaycanın informasiya təhlükəsizliyini qorumağa yönəlik dövlət siyasəti həm daxili, həm də beynəlxalq münasibətlərdə ölkənin strateji maraqlarının qorunmasında vacibdir. Süni intellektin bu sahədə tətbiqi ölkənin informasiya təhlükəsizliyini müasir və innovativ alətlərlə gücləndirəcək. Bu sərəncam çərçivəsində tətbiq edilən texnologiyalar, həmçinin Azərbaycanın kiber təhlükəsizliyini qurması, beynəlxalq təşkilatlarla əməkdaşlığını gücləndirməsi və kiberhücumlara qarşı effektiv müdafiə sistemlərinin inkişafı baxımından da böyük əhəmiyyət kəsb edir.

Prezidentin sərəncamında qeyd olunan ən vacib aspektlərdən biri də bu sahədə tədbirlərin icrasının monitorinqinin aparılmasıdır. Monitorinq və qiymətləndirmə süni intellektin tətbiqinin nəticələrini izləmək və onun effektivliyini qiymətləndirmək məqsədi daşıyır. Süni intellektin tətbiqi müddətində hansı mərhələlərin tamamlandığını, hansı addımların atıldığını və nə kimi çətinliklərlə qarşılaşıldığını təhlil etmək vacibdir. Monitorinq yalnız layihənin gedişatını yoxlamaqla kifayətlənmir, həm də tətbiqin düzgün icrasını və hər hansı bir təxirəsalmanın və ya problemlərin zamanında aşkarlanmasını təmin edir.

İcranın monitorinqi və qiymətləndirilməsi süni intellektin effektiv tətbiqini və onun qarşıya qoyulan dövlət hədəflərinə xidmətini təmin edəcək. Bu da Azərbaycanın inkişaf strategiyasına müvafiq olaraq süni intellektdən tam potensialda istifadə edilməsinə gətirib çıxaracaq. Eyni zamanda, bu tədbirlər ölkənin diplomatik fəaliyyətinə, iqtisadiyyata və daxili idarəetməyə müsbət təsir göstərəcək.

Azərbaycanın süni intellekt strategiyası təkcə texnologiyaların tətbiqini deyil, həm də elmi tədqiqatların inkişafını və kadr hazırlığını əhatə edir. Strategiya çərçivəsində süni intellekt sahəsində aparılan elmi araşdırmaların genişləndirilməsi, bu sahədə ixtisaslaşmış mütəxəssislərin hazırlanması və təlim proqramlarının həyata keçirilməsi nəzərdə tutulur. Bu, ölkədə innovativ biliklərin yaradılmasını və süni intellektin davamlı inkişafını təmin edəcək. Eyni zamanda, süni intellekt sahəsində beynəlxalq əməkdaşlıq və bilik mübadiləsi də dəstəklənəcək. Bu təşəbbüslər Azərbaycanın süni intellekt texnologiyalarında qlobal miqyasda rəqabət qabiliyyətini artırmağa yönəlib.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 19 mart 2025-ci ildə imzalanan sərəncam Azərbaycanın süni intellekt sahəsində qlobal tendensiyalara uyğun inkişafını sürətləndirərək, ölkəni beynəlxalq arenada innovasiya mərkəzinə çevirmək potensialına malikdir. Süni intellekt texnologiyalarının diplomatiya, iqtisadiyyat və təhlükəsizlik sahələrində tətbiqi Azərbaycanın qlobal aktor kimi mövqeyini gücləndirəcək və beynəlxalq nüfuzunu artıracaq. Bu strateji addım ölkənin dünya dövlətləri ilə texnoloji əməkdaşlığını dərinləşdirəcək, Azərbaycanın rəqəmsal transformasiya prosesində öncül mövqeyə yüksəlməsinə töhfə verəcəkdir.

Şəbnəm ZEYNALOVA,
siyasi elmlər üzrə fəlsəfə doktoru

Bakıda nazirlərin enerji toplantısı

Bu gün Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci toplantısı və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclası öz işinə başlayır.

Energetika Nazirliyinin məlumatına görə, nazirlərin Bakı toplantısına Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkəti qatılacaq. İclasda nazirlər, nazir müavinləri və digər yüksək səviyyəli nümayəndələr iştirak edəcək. Toplantı açılış sessiyasından sonra nazirlər sessiyası, "Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizinin uğurlu istismarı, inkişafında tərəqqi və növbəti addımlar" və "Yaşıl enerji layihələri və yaşıl enerji dəhlizləri" üzrə plenar sessiyalarla davam edəcək.

Bununla yanaşı, Məşvərət Şurası çərçivəsində Azərbaycan, Türkiyə, Gürcüstan və Bolqarıstan arasında "yaşıl" enerjinin ötürülməsi və ticarəti üzrə 2-ci Nazirlər Görüşü, Xəzər – Qara Dəniz – Avropa Yaşıl Enerji Dəhlizi üzrə qeyri-rəsmi Rəhbər Komitə/Nazirlər Görüşü və Azərbaycan ilə Avropa İttifaqı arasında dənizdə külək enerjisinin inkişafı üzrə dəyirmi masa keçiriləcək.

Toplantıda enerji sahəsində əməkdaşlıq üzrə sənədlərin imzalanması nəzərdə tutulur. Tədbirin sonunda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarının yekunlarına dair mətbuat konfransı keçiriləcək.

Xatırladaq ki, Məşvərət Şurası çərçivəsində nazirlər 2015-ci ildən bəri hər il fevral ayında toplaşsalar da, ötən il ilk dəfə olaraq bu görüşlər mart ayında keçirilib. Ümumilikdə isə, artıq ənənəvi xarakter almış Cənub Qaz Dəhlizi Məşvərət Şurasının ötən iclasları müzakirə olunan məsələlər, aparılan diskussiyalar baxımından xeyli maraqlı və yaddaqalan olub. Elə iştirakçıların say tərkibinin ildən-ilə genişlənməsi, tədbirə bir sıra yeni ölkələrin dövlət və hökumət nümayəndələrinin qatılması da tədbirə olan beynəlxalq maraqdan irəli gəlir.

Yeri gəlmişkən, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda bir araya gəlməsi ölkəmizin Avropanın enerji təminatında getdikcə artmaqda olan rolununun bariz nümunəsidir. İqtisadiyyatını getdikcə şaxələndirərək inkişaf etdirən Azərbaycan Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə deyil, həm də bərpaolunan enerji mənbələri hesabına təmin etməsi işində əhəmiyyətli addımlar atıb.

Aprelin 4-də Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü toplantısından gözləntilər daha çoxdur. Bir sıra ölkələrin nazirlərinin, beynəlxalq enerji şirkətlərinin nümayəndələrinin və digər qonaqların iştirakı ilə keçiriləcək budəfəki iclasda Avropa bazarına daha çox qaz ixrac edilməsi ilə bağlı imkanların nəzərdən keçirilməsi, "yaşıl" enerji əməkdaşlığının genişləndirilməsi, bərpaolunan enerjinin nəqli və digər məsələlərin ətraflı müzakirəsi gözlənilir.

Cənub Qaz Dəhlizi layihəsinə "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi, Bakı–Gürcüstan–Türkiyə sərhədi Cənubi Qafqaz boru kəməri magistralının genişləndirilməsi, Türkiyənin şərq sərhədindən qərb sərhədinə qədər Trans-Anadolu Qaz Kəmərinin (TANAP) və Yunanıstan, Albaniya və İtaliyanın cənubunu birləşdirən Trans-Adriatik Qaz Kəmərinin (TAP) tikintisi daxildir. Layihənin ümumi dəyəri 33 milyard ABŞ dolları təşkil edir.

Azərbaycan qazının Avropaya ixracına isə 2020-ci il dekabrın 31-də başlanıb. 2021-ci ildə "köhnə qitə"yə ixrac 8,1 milyard kubmetr, 2022-ci ildə 11,4 milyard kubmetr, 2023-cü ildə 12 milyard kubmetr, 2024-cü ildə isə 12,9 milyard kubmetr təşkil edib. Azərbaycan qazının Avropa alıcıları İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır. Bütövlükdə isə, hazırda Azərbaycan Türkiyə və Gürcüstan da daxil olmaqla 12 ölkəyə "mavi yanacaq" ixrac edir.

Göründüyü kimi, son illər bir sıra Avropa ölkələri Azərbaycandan daha çox qaz almağa can atır. Bunun üçün isə fəal danışıqlara, fikir mübadiləsi aparmağa daha çox ehtiyac duyulur. Bu baxımdan artıq ənənəvi xarakter almış Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclası xüsusi əhəmiyyət kəsb edir. Enerji sahəsində beynəlxalq əməkdaşlığın Bakı platforması kimi dəyərləndirilən bu tədbir Azərbaycanın imkanlarının nümayişi ilə yanaşı, ötən illərdə qazanılan uğurlar, ölkəmizin Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə verdiyi mühüm töhfələr haqqında da aydın təsəvvür yaradır.

Təsadüfi deyil ki, tədbirin əhəmiyyətini xüsusi vurğulayan Prezident İlham Əliyev Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlərin əldə olunduğunu qeyd edib. Eyni zamanda, Bakıda bu görüşün keçirilməsi təşəbbüsünə verdikləri dəstəyə görə iştirakçı ölkələrin rəhbərlərinə təşəkkürünü bildrən dövlətimizin başçısı Məşvərət Şurasının iclasları zamanı aparılan müzakirələrin, fikir mübadiləsinin Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsinə yeni töhfələrin verəcəyinə əminliyini ifadə edib.

Yeri gəlmişkən, artıq üçüncü dəfədir ki, nazirlərin Bakı toplantısında qaz ixracı məsələləri ilə yanaşı, "yaşıl" enerji ilə bağlı müzakirələrə də geniş yer verilir. Ötən ilin noyabr ayında Azərbaycanın COP29 konfransına uğurla ev sahibliyi etməsi, həmin toplantıda qəbul olunmuş mühüm qərarlar məsələnin aktuallığını bir qədər də artırıb. Bu baxımdan energetika nazirlərinin növbəti Bakı toplantısının müzakirə mövzuları baxımından daha səmərəli, daha rəngarəng olacağı gözlənilir.

Dünya Bankının ölkəmizə "yaşıl" dəstəyi

(əvvəli 1-ci səhifədə)

Bildirilib ki, görüşdə Dünya Bankı ilə enerji sahəsində əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edilib. Bank tərəfindən Azərbaycanda ötürücü şəbəkənin gücləndirilməsi (AZURE) layihəsinə 173,5 milyon ABŞ dolları məbləğində kreditin ayrılması bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasına töhfə olaraq dəyərləndirilib. Qeyd olunub ki, ölkənin enerji sisteminə 2027-ci ilə qədər 2 qiqavatdan çox, növbəti mərhələdə isə, təxminən, 700 meqavat "yaşıl" enerji gücünün inteqrasiyası planlaşdırılır.

Müzakirələr zamanı şəbəkənin gücləndirilməsi və bərpaolunan enerjinin tədarük layihələri üzrə əməkdaşlığa dair məsələlər nəzərdən keçirilib. Azərbaycandan və Mərkəzi Asiyadan Avropaya müxtəlif interkonnektorlarla enerji ixracı üzrə hazırda reallaşdırılan təşəbbüslərin icra vəziyyətindən bəhs edilib. Bu layihələrin Avropanın enerji təhlükəsizliyinin təminatında gələcək rolu vurğulanıb.

Görüşdə, həmçinin Beynəlxalq Maliyyə Korporasiyası ilə dənizdə külək enerjisindən istifadə sahəsində əməkdaşlıq çərçivəsində hazırlanan Yol Xəritəsindən söhbət açılıb və hazırda enerji şirkətləri ilə həyata keçirilən tədbirlərdən danışılıb.

Söhbət zamanı Dünya Bankı ilə nasoslu hidroenerji anbarları və digər perspektiv layihələr üzrə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi də aparılıb.

İpoteka və Kredit Zəmanət Fondunun uğurları

İndiyədək 60 min 549 ailənin mənzil şəraiti yaxşılaşdırılıb

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) "2024-2026-cı illər üzrə Kommunikasiya strategiyası"na uyğun olaraq, daşınmaz əmlak ekspertləri və müstəqil iqtisadçılarla görüş keçirilib. İKZF-dən bildirilib ki, yaşayış maliyyəsi vasitələrinə həsr olunan görüşdə fondun vəsaiti hesabına ipoteka kreditləşməsi və satmaq öhdəliyi ilə kirayə mexanizminə dair təqdimatlar edilib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış İpoteka və Kredit Zəmanət Fondu Qafqaz bölgəsinin ilk ipoteka bazarı operatorudur. Bu günədək fondun həyata keçirdiyi ipoteka kreditləşməsi və satmaq öhdəliyi ilə kirayə mexanizmi vasitəsilə 60 min 549 ailə özünün mənzil şəraitini yaxşılaşdırıb. O cümlədən 53 min 785 ipoteka krediti verilib və 6764 vətəndaşla satmaq öhdəliyi ilə kirayə müqaviləsi bağlanılıb. Fondun yaşayış maliyyəsi alətləri vasitəsilə mənzil şəraitini yaxşılaşdırmış ailələrin 70 faizə yaxını gənclərdir.

Bildirilib ki, 2024-cü ilin sonuna olan məlumata görə, ümumilikdə, ölkə üzrə verilən ipoteka kreditlərinin həcmi 4,7 milyard manat təşkil edib ki, onun da 3,3

milyard manatı və ya 81,4 faizi dövlət xətti ilə verilən kreditlərin payına düşüb. İndiyədək fondun vəsaiti hesabına verilən ipoteka kreditlərinin həcmi 3,4 milyard manatı keçib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) məlumatına əsasən, cari ilin ilk iki ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 485 milyon ABŞ dolları olub. Bu dövrdə yeyinti məhsullarının ixracı 12,3 faiz çoxalaraq 153,9 milyon dollara yüksəlib.

2 ayda qeyri-neft ixracı 485 milyon dollara çatıb

Hesabat dövründə ixrac olunan qara metallar və ondan hazırlanan məmulatlar 66,9 faiz, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 47 faiz, alkoqollu və alkoqolsuz içkilər 10,2 faiz, kimya sənayesi məhsulları 30 faiz, çay 21,3 faiz, alüminium və ondan hazırlanan məmulatlar isə 2,8 faiz artıb.

Bu ilin yanvar-fevral aylarında aqrar məhsulların ixracı 9,5 faiz artaraq 119,7 milyon dollara, aqrar-sənaye məhsullarının ixracı 17,7 faiz artaraq 43 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 11,6 faiz artaraq 162,8 milyon dollara yüksəlib. Bu dövrdə ixraca yönəldilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (40,2 milyon dollar) birinci, karbamid (36 milyon dollar) ikinci, xurma (30,5 milyon dollar) isə üçüncü yerdə qeydə alınıb.

müddətdə respublikamız 37 ölkədən 90-a yaxın şirkətə peyk telekommunikasiya xidmətləri həyata keçirib. Xidmət ixrac olunan ölkələr arasında isə Birləşmiş Krallıq, Lüksemburq, Nigeriya, Misir, Türkiyə və Pakistan böyük pay sahibi kimi qeydə alınıb.

İxrac əməliyyatlarında diqqətçəkən bu uğurlu göstəriciləri bir sıra amillər şərtləndirir. Məsələn, respublikada ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni

İİTKM-nin məlumatına görə, cari ilin ilk iki ayında Rusiya Federasiyasına 150,8 milyon dollar, Türkiyəyə 82,8 milyon dollar, Gürcüstana 52,9 milyon dollar, İsveçrəyə 43,6 milyon dollar, Ukraynaya 41,2 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Onu da deyək ki, hesabat dövrü üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "MKT İstehsalat Kommersiya", "LEPIN LM" məhdud məsuliyyətli cəmiyyətləri, "Baku Steel Company", "Export Stream", "Avrora", "Sahdag Sy", "6LSYSTEMS","Agrarco" və "KHAN-EL" şirkətləri təmsil olunublar:

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus müəssisələrin siyahısında isə birinci yerdə Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi qərarlaşıb. Daha sonra bu siyahıda "SOCAR Polymer", "Azəralüminium", "AzerGold" müəssisələri, Qaz İxrac İdarəsi,"Azərpambiq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yollari" QSC, "Azərenerji" ATSC, Naxçıvan MR Dövlət Energetika Xidməti və "Qaradağ Şüşə Zavodu" ASC yer alıb.

Hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") dünyanın 37 ölkəsinə 2,7 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edib. Qurumun bu sahədən gəliri isə onun ümumi gəlirinin 66 faizinə çatıb. Onu da qeyd edək ki, bu

zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Azərbaycanda Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Bütün bunlarla bərabər, respublikamızda prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti aparılır, makroiqtisadi və büdcə dayanıqlığının reallaşdırılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir. Məhz bütün bunların nəticəsidir ki, hazırda qeyri-neft-qaz sənayesində artım neft–qaz sektorundakı artımı üstələyir.

Mövcud sahədə əlavə dəyərin 7 faizə yaxın artması, ümumi halda isə qeyri–neft sektorunda 3 faizdən çox artım müşahidə olunması, həmçinin 2003-cü ildən başlayaraq, ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərcinin, təqribən, 4 dəfə, ixracın 15,6 dəfə yüksəlməsi, iqtisadiyyatın orta artım tempinin dünya üzrə orta səviyyədən 4 faiz çox olması bunun parlaq ifadəsidir.

Gənclər innovativ biznesi mənimsəyirlər

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata əsasən, keçən il "Startap" şəhadətnaməsi alan kiçik və orta biznes subyektlərinin 30 faizdən çoxu, qrant dəstəyindən yararlanan sahibkarların isə 30 faizi gənc sahibkarlar və startaplardır.

KOBİA gənclərin sahibkarlıq fəaliyyətinə təşviqi və bu sahədə onların təşəbbüslərinin dəstəklənməsi üçün peşə və ali təhsil müəssisələri ilə sıx əməkdaşlığa daim maraq göstərir. Bu əməkdaşlıq çərçivəsində agentliyin biznes üzrə mütəxəssisləri müxtəlif peşə və ali təhsil müəssisələrinin tələbələri ilə görüşərək gənclərin suallarını cavablandırır, biznes fəaliyyətinə marağı olan tələbələr üçün təlimlər təşkil edirlər.

Eyni zamanda, KOBİA və tərəfdaş qurumların birgə təşkilatçılığı ilə gənclərin biznes təşəbbüslərinə dəstək məqsədilə müxtəlif layihə və proqramlar həyata keçirilir. Gənclərin biznesə başlaması üçün ilkin dəstəyi təmin edən "Gənclərin biznes emalatxanası" və biznes ideyalarının maliyyələşdirilməsinə töhfə verən

"Bizdən biznesə" layihələrindən 60 gənc faydalanıb.

Agentliyin "KOB könüllüləri" proqramı da idarəetmə, biznes və menecment ixtisasları üzrə təhsil alan tələbə və magistrlərin sahibkarlıq sahəsində ilkin biliklərə yiyələnmələri üçün faydalıdır. Bu günədək 700-dən çox gənc proqramı uğurla başa vurub. Onlar arasında özəl sektorda çalışan gənclər xüsusilə seçilir.

Səhifəni hazırladı:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ

Qayıdışın ikiqat bayram sevinci

Ağdam da köçkün sakinlərinə qucaq açdı

Baharın ilıq nəfəsinin duyulması ilə Novruz çal-çağırına bürünmüş Qarabağda bayram şənliyi şənliyə qarışdı, mənfur düşmən işğalından azad edilmiş daha bir rayonumuz yenidən öz sakinlərinə qucaq açdı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bölgəyə növbəti səfərləri zamanı xalqımıza bəxş etdikləri bayram müjdəsindən isə, sözsüz, ağdamlılara ən böyük sevinc payı düşdü.

Belə ki, dövlət başçısı və birinci xanım martın 27-də Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak edərək yeni mənzillərə köçən sakinlərlə görüşdülər, onlara evlərin açarlarını təqdim olundu. Bundan sonra 32 illik Vətən həsrəti sona çatan sarıcalılar ata-baba torpağında yeni tikilmiş, müasir, yarlı-yaraşıqlı evlərində xoşbəxt yaşayacaq, qalib ölkənin qürurlu vətəndaşları kimi doğma Qarabağın inkişafında, dirçəlişində iştirak edəcəklər.

Böyük Qayıdışın mövbəti ünvanına çevrilən Ağdama səfərləri çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində körpələr evi-uşaq bağçasının, tam orta məktəbin və yerli icra strukturları üçün inşa olunmuş çoxfunksiyalı inzibati binanın açılışında iştirak etdilər, yeni tikilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə də tanış oldular.

Bununla da dövlətimizin başçısı keçmiş məburi köçkünlərin öz doğma yurdlarına qayıdışı, burada onlar üçün əlverişli həyat şəraitinin yaradılması və məşğulluqlarının diqqətdə saxlanılması, xüsusilə gələcəyimiz olan uşaqların və gənclərin təlim-tərbiyəsi üçün bütün zəruri infrastrukturun mövcudluğu məsələlərinə nə qədər həssaslıqla yanaşdığını bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev Sarıcalıya yeni köçən sakinlərlə görüşü zamanı çıxışında bu il Ağdam rayonunun digər kəndlərinə reallaşacaq qayıdışın müjdəsini də verdi: "Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək".

Qeyd edək ki, əvvəllər 239 ailənin, ümumilikdə, 1024 nəfər əhalinin yaşadığı Sarıcalı kəndi 1993-cü il iyulun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilib, burada yaşayış evləri ilə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də ermənilər tərəfindən vəhşicəsinə məhv edilib. Rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı şanlı qələbədən sonra Ağdam rayonu 2020-ci il noyabrın 20-də Azərbaycana qaytarılıb və işğaldan azad edildikdən sonra Sarıcalıda azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb.

Təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulan yeni Sarıcalı kəndinə 1873 nəfər əhalinin köçürülməsi planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur və ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Sosial məsələlər də diqqətdən kənarda qalmayıb. Belə ki, daxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, kənd qazla təmin olunub. Birinci mərhələ üzrə buraya 895 nəfərdən ibarət 203 ailənin köçürülməsi planlaşdırılır və artıq iki, üç, dörd və beşotaqlı 203 fərdi ev inşa olunub. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

Dövlətimizin başçısının və birinci xanımın martın 27-də bölgəyə növbəti səfərləri Qarabağın incisi olan Şuşa şəhəri üçün də əlamətdar oldu. Belə ki, Prezident İlham Əliyev və Mehriban Əliyeva Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak etdilər, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış oldular.

Məscsiddə 2023-cü ildən başlanan bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə aparılıb. Ötən müddət ərzində məscidin həyətinin deformasiyaya uğrayan əksər döşəmə daşları sökülərək möhkəmləndirilib və fərş döşəmə bərpa edilib. Dəmir giriş qapısı və hasar üzərindəki məhəccərlər Qarabağ memarlığına xas bəzəklərlə hazırlanıb. Yerli daşdan tikilmiş məscidin fasadının dağılmış hissələri tam bərpa olunub, təhlükəli vəziyyətə düşmüş atma və guşə daşları çıxarılaraq yenidən restavrasiya edilib. Mərtəbələrarası taxta örtük konstruksiyası quraşdırıldıqdan sonra yaranan eyvan şüşəbəndlə tamamlanıb. Məscid giriş hissə, ibadət zalı və köməkçi otaqlardan ibarətdir. Şuşanın digər məscidlərindən fərqli olaraq, burada giriş sağ tərəfdən daş pillələrlə təmin olunub. Açıq tamburdan otağa və ibadət zalına keçid var. Məscidin inşasında istifadə olunan daşlar bərpa edilib, mehrab yenidən qurularaq üzərinə "Qurani-Kərim"dən ayələr və naxışlar işlənib.

Çöl Qala məscidinin yaxınlığında yerləşən və XIX əsrə aid olan Çöl Qala bulağı da bərpa edilib. Dördbucaqlı formada olan bulaq yaxınlıqdakı məscidlərin üslubunda inşa edilib. Bərpa prosesində bulağın orijinal memarlıq üslubu qorunub, strukturu möhkəmləndirilib və əvvəlki görünüşü özünə qaytarılıb.

Qeyd edək ki, XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş Çöl Qala məscidi həmin dövrdə Şuşada fəaliyyət göstərən 17 məsciddən biri olub. Bu tarixi abidə və bulaq Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış və talan edilmişdi. Ancaq Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdiyi kimi, tarixi irsinə, dini-mədəni abidələrinə sahib çıxmağı da bacardığını bütün dünyaya nümayiş etdirir. Dövlətimizin başçısının və birinci xanımın bölgəyə növbəti səfərləri isə xalqımıza ikiqat bayram sevinci yaşatdı, Qarabağın dirçəlişinin və inkişafının yeni mərhələsinə rəvac verdi.

Mahir RƏSULOĞLU,
XQ-nin Qarabağ müxbiri

Qarabağda dirçəlişin əhatəsi genişlənir

(əvvəli 1-ci səhifədə)

Keçən il ərzində işğaldan azad edilən ərazilərdə 6 ümumi təhsil müəssisəsi fəaliyyətə başlayıb, 3 məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti təmin olunub. Yaşayış məntəqələrində əlçatan və keyfiyyətli tibb xidmətləri infrastrukturunun qurulması istiqamətində də işlər davam etdirilib. Ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 739 kilometr 110 kv-luq, 262 kilometr 330 kv-luq uzunluqda elektrik verilişi xətləri çəkilib, 11 ədəd 110 kv-luq, 1 ədəd 330 kv-luq yarımstansiya tikilib.

İİTKM-in sektor müdiri əlavə edib ki, geri qayıdan əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə regionda fəaliyyət göstərən bank filiallarının sayı ümumilikdə 6-ya (Laçın, Cəbrayıl, Füzuli, Zəngilan rayonları və Xankəndi şəhəri olmaqla) çatdırılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilən ərazilərdə banklar və Azərpoçt tərəfindən quraşdırılan POS-terminalların sayı isə 904 ədəd (Ağdam, Füzuli, Şuşa, Xocavənd, Xocalı, Zəngilan, Laçın, Cəbrayıl, Qubadlı, Kəlbəcər rayonları və Xankəndi şəhəri üzrə) olub. Bütün bunlarla yanaşı, əhalinin dayanıqlı məskunlaşması və məşğulluğunun gerçəkləşdirilməsi üzrə tədbirlər həyata keçirilib, ümumilikdə, 40 minə yaxın insanın Qarabağ və Şərqi Zəngəzurda yaşayışı və fəaliyyəti təmin edilib.

Elşən Yusifli bildirib ki, Dövlət Proqramı çərçivəsində sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə bərabər, güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Eyni zamanda, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında, ümumilikdə, 400-dən artıq müəssisənin fəaliyyəti təmin edilib. Ağdam Sənaye Parkındakı müəssisələrdə istehsal olunan məhsulların ixracına başlanılıb.

Yaşayış məntəqələrində mədəni irs obyektlərinin bərpası istiqamətində bir sıra layihələr keçirilib. Prezident İlham Əliyevin iştirakı ilə ötən il Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışı olub. "Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi"nin inşası başa çatdırılaraq dövlətimizin başçısı İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə açılış mərasimi reallaşıb.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi qələbə ölkəmizdə yol-nəqliyyat məsələləri ilə bağlı vəzifələri və hədəfləri də yenilədi. İşğaldan azad edilmiş ərazilərdə dövlət başçısının şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturunun yaradılmasına başlandı. Bu gün işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturu yaradılır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, eləcə də dövlətimizin başçısının imzaladığı sərəncamlar əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44-ə, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometrə çatdırılıb. Ötən illər ərzində 7 yolun tikintisi yekunlaşdırılıb. Hazırda tikintisi həyata keçirilən 38 layihənin isə 2025-2026-cı illərdə tamamlanması nəzərdə tutulub. Bundan əlavə, 6 şəhərin (Şuşa, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər və Cəbrayıl) daxili yollarının, eləcə də 7 kəndə gedən avtomobil yollarının tikintisi davam etdirilib.

İşğaldan azad olunmuş ərazilərdə çəkilən avtomobil yollarının üzərində 70,8 kilometrlik 45 tunel, 9 min 581,6 metrlik 447 körpü və 3 min 871 metrlik 16 viaduk inşa edilir. Şanlı Zəfər tariximizin ötən 4 ilində 59,6 kilometrlik 28 tunelin, 8 min 339,1 metrlik 392 körpünün və 1695 metrlik 9 viadukun tikintisi tamamlanıb. Ümumilikdə, ötən müddətdə 28,5 kilometrlik Tərtər–Suqovuşan–Talış, 101 kilometrlik Zəfər, 22 kilometrlik Talış–Tapqaraqoyunlu–Qaşaltı sanatoriyası, 44,5 kilometrlik Bərdə –Ağdam, 12,3 kilometrlik Füzuli –Hadrut avtomobil yollarının, həmçinin Hacıqabul–Bəhramtəpə –Mincivan – Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun 173,6-235 kilometrlik hissəsinin (61,4 kilometr) tikintisi başa çatdırılıb. Bununla yanaşı, Laçın şəhərinə daxil olmadan 22 kilometrlik yeni alternativ çəkilib.

Hazırda icrası davam etdirilən Əhmədbəyli – Füzuli –Şuşa, Şükürbəyli – Cəbrayıl – Hadrut, Xudafərin – Qubadlı – Laçın, Toğana – Kəlbəcər – İstisu, Kəlbəcər – Laçın, Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd, Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd – İranla dövlət sərhədi, Ağdam – Füzuli, Ağdam – Hindarx – Ağcabədi, Qubadlı – Eyvazlı, Qubadlı – Mahmudlu – Yazdüzü – Ermənistan sərhədi, Xudafərin – Qubadlı – Laçın, Hadrut – Tuğ – Azıx avtomobil yollarının, eləcə də Araz çayı üzərində avtomobil körpülərinin tikintisi layihələrinin isə 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulub.

Dövlət Proqramına uyğun olaraq, Şuşa, Ağdam, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Laçın şəhərlərinin daxili yollarının tikintisi də uğurla həyata keçirilir. Bundan əlavə, ölkə Prezidentinin müvafiq sərəncamına əsasən, Cəbrayılın Horovlu, Ağdamın Kəngərli, Qubadlının Mahrızlı, Zilanlı, Zəngilanın Cahangirbəyli, Xocalının Malıbəyli və Suqovuşan – Sərsəng su anbarı – Qozlukörpü – Kəlbəcər avtomobil yolunun 24-cü kilometrliyindən ayrılan Umudlu kəndinə gedən magistral, eləcə də 6 rayonlararası avtomobil yollarının tikintisi işləri də aparılır.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Əhmədbəyli– Füzuli – Şuşa avtomobil yolunun tikintisi yekunlaşdırılır. Xatırladaq ki, mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol 19,3 kilometr qısadır. Hazırda layihə üzrə son tamamlanma işləri görülür, asfalt-beton örtüyünün aşınma layının döşənməsi işləri icra olunur. Bundan başqa, yol boyu dəmir-beton baryerlərin, əyrixətli metal sədd çəpərlərinin, işıqlandırma qurğularının və yol avadanlıqlarının quraşdırılması, yolun üfiqi nişanlanma xətlərinin çəkilişi, istirahət və parkinq yerlərinin tikintisi davam etdirilir. Xatırladaq ki, Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul – Horadiz – Ağbənd – Zəngəzur dəhlizi magistral avtomobil yolundan (M6) götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam–Füzuli avtomobil yolunun inşası da hazırda sürətlə davam edir. Sözügedən yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.

Uzunluğu 65,7 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin eni hər bir istiqamətdə 3,75 metr, ayırıcı zolağın eni 4 metr olmaqla yol yatağının eni 26,5 metr təşkil edir. Hazırda yol boyu dəmir-beton tipli küveytlərin tikintisi və ayırıcı zolaqda yerləşdirilən dəmir-beton konstruksiyalı baryerlərin quraşdırılması işləri davam etdirilir.

XQ

Lənkəranda 1918-ci il Mart soyqırımı

Erməni quldurların qanlı caynağı yurdun bu kənar bölgəsinə də çatmışdı

1918-ci il Mart qırğını XX əsr Azərbaycan tarixinin ən faciəli səhifələrindən biri – xalqımıza qarşı törədilən qanlı soyqırımıdır. Bu faciə Lənkərandan da yan keçməmiş, dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədilmişdir.

Tədqiqatçı alim Hacı Mirhaşım Talışlı ilə araşdırmalarımızda qeyd olunur ki, Bakı qırğınından sonra Lənkəranda və ətraf rayonlarda 40-a qədər kənd yandırılmış, günahsız insanlar qılıncdan keçirilmiş və güllələnmişlər. Faktlar isə belədir: həmin dövrdə Gərmətük və Kərgəlan kəndlərinin hər birində 70-dək, Mamusta kəndində 30-dək, Sütəmurdovda 25-dən çox günahsız insan hadisənin qurbanı olmuşdur.

Şıxəkəran, Xolmili, Şağlakücə kəndlərində, Ləkər körpüsü ətrafında görünməmiş talanlar və qırğınlar törədilmişdi. Vilvan, Veravul, Girdəni, Cil, Osakücə kəndlərinin sakinləri qırğından qurtulmaq üçün yaxınlıqdakı meşələrə çəkilmişdilər. Şəhərdə görünməmiş talanlar və qırğınlar törədilmiş, mayakın yanında yüzlərlə insan güllələnmişdir.

2002-ci il martın 31-də Lənkəranın vağzalyanı meydanının iki addımlığında soyqırımı qurbanlarına həsr edilmiş Xatirə-park kompleksi salınıb. 2007-ci ildə park yeni tərtibatda qurulub. 1918-ci il mart soyqırımı qurbanlarının xatirəsi hər zaman hüzn və hörmətlə yad edilir. Hər dəfə yolumuz bura düşəndə xəyalım qanadlanır. Postamentdən ətrafa boylanan ana abidəsinə baxdıqca qəlbimizdə kədər qarışıq kövrək hisslər baş qaldırır.

Ağabacı nənəmin yaddaşında 1918-ci il mart ayı "qaçhaqaç" dövrü kimi qalmışdı. Ömrünün axırınadək üzü gülmədi - nə çəkdisə, ürəyində çəkdi. Hüzr məclislərində isə elə bayatı çəkərdi ki...

1918-ci il mart soyqırımı gözlərinin qabağında olmuşdu. Gözlənilmədən ətraf kəndləri dəniz tərəfdən top atəşinə tutmuşdular. Əri Ağacan Əzimov (bu sətirlərin müəllifinin ata tərəfdən babası - müəl.) kəndin cavanları ilə kənddən kənara çəkilərək erməni - denikinçi dəstələri ilə vuruşurdu. Atışma qızışanda qadınlar uşaqlarını yanına alıb Osakücə meşəliyinə tərəf üz tutmuşdular. Ağabacı nənəm uşaqlardan yalnız ikisini - Babacan və Zülfünü çiyninə alıb qaça bilmişdi. Hələ bir yaşına çatmamış körpəsi Əliağanı isə Allahın ümidinə buraxaraq həyətdəki yekə nil ağacının oyuğunda gizlədə bilmişdi.

Ağabacı nənəm ətraf sakitləşəndə evə - oğluna tərəf qaçır. Görür ki, körpə hələ də sakitcə uyuyur. İllər keçdi, övladları yaşa doldu. Dörd oğul övladından təkcə Əliağa Əhədov müharibədən qayıtdı. Babacan, Zülfü və Əjdər 1941–1945-ci illərdə faşistlərlə vuruşmada həlak olmuşdular.

Soyqırımı günlərində kənddə təkcə Əhməd Əkbərovun beşatılanı var imiş. O, köməksiz insanları müdafiə edə-edə onları Osakücə meşəliyinə tərəf apara bilmişdi. Ağabacı nənəm danışardı ki, Əhməd Əkbərov qohumumuz Hacı Hacıhüseyn Gəncəli oğlunun öldürüldüyünü eşidib dərhal hadisə yerinə qaçır.

Hacı Hacıhüseyn kəndin hörmətli, nüfuzlu ağsaqqallarından idi. Aclıq illərində o, qonşu Astraxanbazara (indiki Cəlilabad rayonu) gedərək, oradan gətirdiyi taxılı savabına imkansız ailələrə paylayardı. Gecə qaranlığında atəşin parıltısına erməni quldurları Əhmədin gizləndiyi yeri gülləyə tuturlar. Əhməd gülləsi tükənənədək vuruşmuşdu. Onun ölümünə bütün kənd ağlayırdı.

1918-ci ilin martında Lənkərana gələn rus-erməni daşnakları quldur Şıvkunovun dəstəsi ilə əlaqəyə girərək şəhəri dənizdən və sahildən top atəşinə tutmuşdular. Ağabacı nənəmin dediyinə görə, dənizdən top mərmilərindən biri Molla Davudun evinə düşmüşdü. Xoşbəxtlikdən mərmi partlamamış, tüstülənə-tüstülənə sönmüşdü. Amma təsirindən Molla Davud "Yasin" oxuyan yerdə keçinmişdi. Bir yaşında olan qızı Balabəyim beşikdə yatmışdı. Köməyə gələn qonum-qonşu tüstüdən boğulmaqda olan körpəni tələm-tələsik beşik qarışıq evdən çıxarmağa nail olmuşdular. Balabəyim 1968-ci ildə 50 yaşında vəfat edib.

Vilvan kəndində yaşayan ana tərəfdən babam Əmənulla Əzimov danışardı:

– 1918-ci il mart-aprel ayları idi. Kəndimizə bir dəstə atlı gəlib cavanları bir yerə yığdı. Onlar rus və başa düşmədiyimiz dildə danışırdılar. Şıvkunovu ilk dəfə onda gördüm. Dəstə bizi başına yığıb Ləkər körpüsünədək müşayiət etdi. Ali Əzimov, Mikayıl Quliyev, Davud Rəhimov, Mahmud Şərifov və başqaları da bizimlə idilər. Hərəmizə bir tüfəng verib dedilər ki, səngər qazın, vuruşacaqsınız.

Biz düşmənin kimlər olduğunu bilmirdik, amma itaət edərək səngər qazdıq. Bizə güllə verməmişdilər. Deyirdilər ki, patronu "düşmən" yaxınlaşanda verərik. Qaranlıq düşərkən özümüzü Ləj meşəliyinə tərəf verdik, oradan özümüzü kəndə çatdırdıq. Bundan qəzəblənən şıvkunovçular Girdəni, Veravul və Vilvan kəndlərini top atəşinə tutdular. Vilvan kəndində bir neçə ev yandı, ölənlər də vardı.

Adamlar Osakücə meşəliyinə çəkildiyindən tələfat çox olmadı. Atışma sakitləşəndə Şıvkunov öz quldur dəstəsi ilə yenidən kəndə gəldi, tüfəngləri istəyirdi. Ağsaqqalların təkidi ilə silahları qaytardıq. Gülləmiz olsaydı quldurlarla döyüşərdik, amma o vaxtlar güllə tapmaq müşkül məsələ idi. Şıvkunovun əmrinə itaət etmədiyimizə görə bizi ağaca sarıyıb öldürmək istəyirdilər. Amma təsadüfən kəndimizə gələn İbi İbayevin partizan dəstəsi onlarla döyüşə girdi. Nəticədə Şıvkunovun dəstəsi qaçmaq məcburiyyətində qaldı.

Ləkər körpüsü ətrafında 10 nəfər öldürülmüş, kəndə yaxın tərəflərdə 5 ev yandırılmışdı. Təsadüfi deyildir ki, buradakı qanlı döyüşlər barəsində söz də qoşulmuşdur. El-obada deyilən sözlər bu gün də yaddaşlarda qalmışdır. Yas yerlərində qadınlar göz yaşlarını tökə-tökə deyirdilər:

Girdəni elə bir kənd idi,
Dörd yanı gülbənd idi.
Xaraba qalsın o Ləkər,
O da bir səngər idi.

Veravul məktəbinin direktoru Şahrza Abdullayev mart soyqırımı hadisələrindən ürək ağrısı ilə danışardı:

– Girdəni kəndində, Ləkər körpüsünə tərəf uzanan yerdə, Əli meydanı adlanan ərazidə bazar yerləşirdi, - dedi. - Qəzanın Ucarud tərəfindən və digər yerlərdən gələnlər bazara öz mallarını çıxarırdılar. Vilvandan olan Boylu qızı Gülbanu ilə Girdəniyə gedirmiş. Yolda arabanı gülləyə tuturlar, ata və qızı vəhşicəsinə qətlə yetirilir.

Lənkəranın keçmişi ilə bağlı tarixçi-müəllim Əlibala Nurullayevlə neçə-neçə maraqlı yazı hazırlamışıq. Sonra Lənkəran Ağasaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov da bizə qoşuldu. 2014-cü ildə birgə hazırladığımız "Gərmətük salnaməsi" kitabı işıq üzü gördü. Nələr yazılmayıb bu kitabda?! Vaxt olub ki, igidlər silaha sarılıb qaçaq-quldurlarla, erməni daşnakları ilə mübarizə aparıblar. Sonra partizan dəstələri yaradaraq pusquya keçiblər. Bu dövrdə bölgəni qorumağa gəlmiş Camal paşanın qərargahı Gərmətükdə Kərbəlayı Nurullanın evində yerləşirdi. Qərargahı 300 nəfərdən çox döyüşçü mühafizə edirdi.

Jurnalist Hacı Mehman Fərzullayev babası Ayazın dediklərinə istinadən danışır ki, o günlərdə Kərgəlan kəndində 70 kişini çay qırağında al-qana boyamışdılar. İsmayıl Əliyev, Əli Ağayev, Mahmud Əzizov, Mirqulamhüseyn Miriyev, İsa Qurbanov, Fərzəli Quliyev, Mikayıl Əliyev və başqaları bu faciənin qurbanıdırlar: "Həmin günlərdə Əliyevlərin məhəlləsində bir gəlinin paltar yuduğunu görən erməni daşnakları həyətə hücum çəkirlər. Qayınata gəlini tez xalçaya büküb evin küncünə söykəyir. Əsgərlər gəlinin yerini demədiyinə görə, qayınatanı tüfəngin qundağı ilə vurub öldürmüşdülər. Bu kişi hazırda kənddə yaşayan Əliyevlərin babası olub, gəlin isə 1970-ci ilə kimi ömür sürmüş Səriyyə nənə idi".

Tarixçi-müəllim Ə.Nurullayevin məlumatına görə, Gərmətük kəndinin çayqırağı qəbiristanlığında denikinçi əsgərlərdən birinin güllə ilə vurulması qırğın üçün bir bəhanə olmuşdu. Vələdili Mirsalam Gərmətükə gələrək xəbər verir ki, ermənilər gəlirlər, ehtiyatlı olsunlar. Vahiməyə düşən silahsız adamlar rayonun dağ kəndlərinə - o cümlədən, Yuxarı Nüvədi, Sefidor, Lüvəsər, Rvo və digər yerlərə üz tuturlar.

Cavanlardan bir hissəsi kənddən çıxmır. Kəndin adlı-sanlı adamlarından biri, ikimərtəbəli evi olan Kərbəlayı Səfərəli deyir ki, bizdən taxıl istəsələr taxıl, pul istəsələr pul verərik, təki bizə dəyməsinlər. Buna baxmayaraq, kəndə soxulan əsgərlər tabe olmayanları sorğu-sualsız gülləyə tutmuş, evləri yandırmışdılar. Yusif Fərzulla oğlunun çayxanasına və onunla üzbəüz olan İbrahim Səfər oğlunun evinə od vurulmuşdu.

Qonşuluqda Abuzər Ağababa oğlu Babayevi və onun meyitinin üstünə sərilən arvadını da güllələyirlər. Bundan ürəyi soyumayan ermənilər Kərbəlayı Səfərəli Cabbar oğlunun taxıl anbarına girərək onu güllələyib, sonra qapını bağlayaraq ikimərtəbəli evini yandırırlar.

Əsgərlər gənc Mirəbdülvahabı həyətlərində güllələyərkən atası Mirtağı özünü oğlunun üstünə atır, Mirtağını da güllələyirlər. Bu vəziyyətdə seyidin başından düşən əmmaməni təpikləyərək meyitdən uzaqlaşırlar. Bunlara qonşu olan Məşədi Həsəni (Qurbanəlinin atası), Əhməd Əkbər oğlunu (mərhum Eyvazın ana babası), Mirmusa Mirmustafa oğlu Həsənovu, Sadıq Nəzərəli oğlunu, Musa Qasım oğlunu güllələyirlər.

Müəllim Əbülqasım Qasımovun məlumatına görə, Balasən Lələyevin darısqal evində yeddi cavan sığınacaq tapıbmış. Əsgərlər evin qabağından keçərkən qapının səsinə geri dönürlər. Cavanları evin qabağına düzüb güllələyirlər. Onlardan İzzət bəy Lənkəran konsulxanasında işləyirdi, fars dilini yaxşı bilirdi. İzzət babası Nəsirin (kəndin yuxarı başında yaşayan Əşrəf Axundovun atası) evinə qonaq gəlmişdi. Öldürülənlər arasında Məşədi Museyib Kərbəlayı Nurulla oğlu da vardır.

Qəbiristanlıqda onun başdaşı üzərində belə yazılıb: "Məşədi Museyib Kərbəlayı Nurulla oğlu, 1336, rəcəb ayının 20-si, cümə günü, miladi 26 aprel 1918-ci il". Yunus Nəsir oğlu, Fətəli Şükür oğlu (Şükürün ikinci oğlu evdə, xəstə yatağında ikən boynu kəsilir), Əli Qasımlələ oğlu və başqaları da vəhşicəsinə qətlə yetirilmişlər.

Məşədi Zülfüqar Məmməd oğlu Məmmədov (1880-1968) yaralı halda canını qurtara bilmişdi. Qaçanda güllə ayağının arxa hissəsinə dəymişdi. Qəbri, öldürülən qardaşının qəbri ilə yan-yanadır. Mikayıl Qasımov da canını qurtara bilmişdi. O, öldürülmüş qardaşı Əliyə kömək edə bilməyəcəyini görüb ağaclıqlar arasından qaçmışdı.

Şahüseyn Məmmədovun ana babası Əhməd Hacı Məhəmməd oğlu da bu faciənin qurbanıdır. Axund Hacı Asif Əsgərov onun başdaşının üzərində nəstəli xətlə ərəb əlifbası ilə yazılmış "Məşədi Əhməd Hacı Məhəmməd oğlu (hicri 1336, rəcəb ayı 20)" sözlərini oxudu.

Əlimuxtar Rəhimov atası Qənidən babası Rəhimlə bağlı bir hadisə haqqında danışaraq dedi:

– 26 aprel 1918-ci il qırğını zamanı babam Rəhim ailəsi ilə sığınacaq üçün dağ kəndi Əşləyə gəlib. Ailəni tanışının evində qoyandan sonra Gərmətükə qayıdıb. Həyətində bir erməni əsgəri ilə üz-üzə gəlib. Erməni əsgəri silahını ona tuşlayır. Rəhim cəld tərpənərək özünü küçəyə tərəf atır. Güllələr ondan yan keçərək heyva ağacına dəyir. Güllə izləri son illərədək qalmışdı. Həmin gün kənddə 70-dək günahsız insan güllələnmişdi.

Gərmətük ağsaqqalları Kərbəlayı Nurulla, Kərbəlayı İsaq, Məşədi Qasım və başqaları 26 aprel 1918-ci il qırğınından sonra gəmidə olanlarla danışıq aparmaq istəyirlər. O zaman gəmi sahildən, təqribən, 1 kilometr aralı dayanırdı. Gəmiyə qayıqla gedirdilər. Ağsaqqalların əlində ağ bayraq vardı. Ağsaqqalları tanıyan şəhər sakinləri məsləhət görürlər ki, gəmiyə getməsinlər, yoxsa onları da qana qəltan edərlər. Bu sözdən sonra ağsaqqallar geri qayıdırlar.

Ötən əsrin 80-ci illərində Gərmətük qəsəbə sakini Məmmədəli Məmmədov Bakı Dəmiryol Vağzalında 1918-ci ildə onların kəndindəki qırğında iştirak etmiş yükdaşıyan bir erməni ilə rastlaşır. Erməni kənddəki məscidin yanında Kərbəlayı Nurullanın ikimərtəbəli evini necə yandırdığından danışır. Kərbəlayı Nurullanın nəvəsi Əlibala müəllim Bakıya gələrək erməninin sorağına düşür. Qarabağ hadisələrinin təzə-təzə vaxtları imiş. Dəmiryol vağzalında ona deyirlər ki, Rostom Xaçaturyan adında həmin şəxs Montində yaşayırdı, hadisələrdən bir qədər əvvəl ölüb.

Dəhşətli faciələr Nuru Paşanın rəhbərlik etdiyi Qafqaza İslam Ordusunun Azərbaycana gəldiyi günədək davam etmişdir. Lənkəran qəzasına gələn dəstəyə Camal Paşa rəhbərlik edirdi. Camal Paşanın qərargahı Gərmətük kəndində Kərbəlayı Nurullanın evində yerləşirdi. Qərargahı 300 nəfərdən çox döyüşçü mühafizə edirdi. Türklər barabanların müşayiəti ilə oxuya-oxuya kəndə daxil olmuşdular. Mahnı belə idi:

Türk oğluyam, ölmək istərəm,
Canım qurban olsun Azərbaycana.
Torpaq-tikan olsun yatağım, yerim,
Canım halal olsun Azərbaycana.

Qəni Nurullayev (1905-1998), Əbülqasım Qasımov (1911-2001) Camal Paşanı yaxından görmüşdülər. Onların dediyinə görə, Camal Paşa sağlam bədənli, eyni zamanda çox sərt və qəddar adam olmuşdur. O, hətta öz əsgər və zabitlərinə qarşı çox amansız idi. Qanun-qaydanı pozanı qırmancla döyür, ayaqlarını fallaqaya saldırardı. Camal Paşanın yarımmetrlik uzunluğunda bəzəkli bir əl ağacı vardı. Onu həmişə əlində oynadardı. Həm yürüşdə, həm də döyüşdə ordunun qabağında olardı və deyərmiş: "Gavur gülləsi mənə dəyməz".

Əlibala müəllim danışardı ki, Lənkəranın denikinçi rus-erməni birləşmələrindən təmizlənməsində türk qoşununun mühüm xidmətləri vardır. Gərmətük yaxınlığında belə bir hadisə oldu. Yolu azmış bir denikinçi az qala əsir götürüləcəkdi. O, Küənil kəndi tərəfində kolluğa girərək gizlənir. Tutulacağını gördükdə isə ətrafa od vurub kolluq qarışıq özünü yandırır.

Mamusta kəndinin tarixinə yaxşı bələd olan və dünyaya bu kənddə göz açmış II Dünya müharibəsinin veteranı, kəndin ilk ali təhsilli ədəbiyyat müəllimi, qayınatam Şükür Şükürovun məlumatına görə, xalqımızın qanına susamış quldurlar 1918-ci ilin mart ayında Mamusta kəndində Bəhram Cəfər oğlunun gözünü çıxarmış, qulağını kəsmiş və onu diri-diri yandırmışdılar. Erməni quldur dəstələri kənddə axtarış apararkən gənc qız Cavahirin köməyinə gələn cavanları qətlə yetirmişdilər.

Maraqlıdır ki, lənkəranlı qadınlar da erməni daşnakları ilə mübarizə aparmış, hünərdə heç də kişilərdən geri qalmayıblar. Rayonun Tükəvilə kəndindən Vəsmican Məmmədova, Veravul kəndindən Səkinə xanım at çapmış, tüfəng oynatmış, yaşadıqları kəndi qaçaq-quldurlardan, erməni daşnaklarından qorumuşlar. Tükəvilə kəndindəki özünümüdafiə dəstələrindən birinə Vəsmican Məmmədova rəhbərlik edirmiş.

Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı ilə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində anılması çox qaranlıq məsələləri üzə çıxartdı. 1918-ci il hadisələri tariximizin qanlı faciələrindəndir. Tariximizin həmin anları unudulan deyil. Həqiqət gec-tez üzə çıxır, haqq qalib gəlir.

Hacı Etibar ƏHƏDOV,
"Aşkarlıq" qəzetinin baş redaktoru
Lənkəran

Azərbaycan Milli Mətbuatı – 150

Milli oyanış və tərəqqimizin "Əkinçi"si

Azərbaycanda torpaqşünaslıq elminin əsasını qoyan Həsən bəy Məlikov-Zərdabi özünün yaratdığı ilk qəzeti məhz "Əkinçi" adlandıraraq milli mətbuatımızın "tarla"sına elə saf toxumlar səpib ki, barı-bəhəri bir əsr yarımdır, sovulmaq bilmir. Millətin gözünü-könlünü maarif ziyası ilə nurlandıran "Əkinçi" ötən 150 ildə, sözün əsl mənasında, qol-qanad açaraq şaxələnib, bu gün artıq ən müasir ənənəvi çap və elektron media səviyyəsinə yüksəlib.



Həsən bəy Zərdabi ensiklopedik biliyə malik olan bir alim kimi dünya miqyasında tanınmış şəxsiyyətlərdəndir. Onun biologiya, coğrafiya, astronomiya, iqtisadiyyat, tibb və əlbəttə, mətbuat sahələrində böyük xidmətləri olub. Mədəni həyatımızda yeni bir səhifə açan "Əkinçi"nin nəşri xüsusilə qeyd edilməlidir. Şərəfli yol keçmiş milli mətbuatımızın banisi özünün bu qəzeti ilə Azərbaycanda yeni düşüncənin, müasirliyin "əkinçi"si kimi tarixə düşüb.

Akademik Rafael Hüseynovun fikrincə, biz bu gün yubilyar qəzetin "Əkinçi" adlandırılmasını rəmzi mənada qavrayırıq. "Lakin o vaxt – XIX əsrin sonlarında Azərbaycanın da tərkibində olduğu rus çar hökuməti azad sözdən ehtiyat etdiyindən yalnız kənd təsərrüfatı, əkin-biçin məsələlərindən yazacaq bir qəzetin buraxılmasına icazə vermişdi. Hərçənd ilk Azərbaycan qəzetinin yaradıcıları bütün məhdudiyyətlərə baxmayaraq, ölkənin və regionun həyatındakı müxtəlif ictimai-siyasi problemlərdən də mütəmadi olaraq söz açmağı bacarmışdılar".

Azərbaycan peşəkar teatrının təməli sayılan ilk tamaşa, Xeyriyyə Cəmiyyəti açmaq təşəbbüsü, Bakı real məktəbində müəllimlik, rus mətbuatında əməkdaşlıq, camaat arasında könüllü vəkillik və nəhayət, "Əkinçi"nin nəşri xalqın xeyri üçün hər bir işə böyük həvəslə girişən Həsən bəy Zərdabinin adı ilə bağlıdır. O, "Rusiyada əvvəlinci Azərbaycan qəzeti" adlı məqaləsində yazırdı: "Hər kəsi çağırıram – gəlmir, göstərirəm – görmür, deyirəm – qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də. Ələlxüsus doğru söz... belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur". Daha sonra: "Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. Sonra düşmənin düşmənliyi, dostun doğruluğu və dost göstərən doğru yolun doğru olması aşkar olar". – Mərhum alim Əziz Mirəhmədov bu sözlərdə bir neçə mühüm mətləb – maarifçilik məsləki, mübarizə əzmi, xalqa məhəbbət, bir də "doğru söz", "doğruluq" eşqi olduğunu vurğulayırdı.

"Əkinçi"nin tarixi əhəmiyyətini layiqincə qiymətləndirmək üçün belə bir həqiqəti də nəzərə almaq lazımdır ki, o zaman Azərbaycan dilində kitab çap eləmək "dağ çapmaq kimi" (M.F.Axundzadə) bir iş idi: əsər yazmış müəllif onu kitab halında buraxdırmaq üçün pul tapanda mətbəə tapmırdı, mətbəə tapanda senzuradan icazə ala bilmirdi, icazə alıb çap etdirməyə müvəffəq olanda isə oxucu tapmaqda çətinlik çəkirdi"... Belə bir "mətbuat aclığı" dövründə nəşrə başlayan "Əkinçi"nin təkcə Qafqaz və Rusiya miqyasında deyil, Avropada da böyük mədəni hadisə kimi qiymətləndirilməsi həm də bununla izah olunmalıdır.

Düzdür, çar senzurası hələ "Əkinçi"nin proqramını nəzərdən keçirdiyi zaman bildirmişdi ki, gərək bu qəzetin "məqalələri yalnız əhalinin məişətinin iqtisadi və ən yaxın mülki məsələlərinə aid olsun və dəbdə olan siyasi görüşlərlə, yaxud bütün müasir həyat quruluşunu müzakirə etmək cəhdləri ilə doldurulmasın". Lakin qəzet çapına belə bir məhdudlaşdırıcı şərtlə icazə almasına baxmayaraq, mütərəqqi jurnalistika təcrübəsinə yaxşı bələd olan Zərdabi öz əməli işində senzuranın təsdiq etdiyi proqramdan məharətlə kənara çıxıb, "Əkinçi"ni əsl mənada demokratiyanın tribunasına, Azərbaycan ictimai-siyasi, fəlsəfi, bədii, elmi, iqtisadi, pedaqoji və etik fikrinin aynasına çevirə bilmişdi.

Ali məfkurəsini həyata keçirmək yolunda mübarizədə Həsən bəy Zərdabi dövrünün görkəmli ziyalıları – M.F.Axundzadə, S.Ə.Şirvani, N.Vəzirov, Əhsənül-Qəvaid, Ə.Gorani, Ə.Heydəri və başqalarının qüvvəsinə, köməyinə arxalanırdı. Məhz tərəqqipərvər müəlliflər heyətinin sayəsində "Əkinçi" zamanının mühüm elmi, texniki, kənd təsərrüfatı, mədəni yenilikləri haqqında müntəzəm məlumat verə bilib, öz səhifələrində Azərbaycan ictimai fikrinin inkişafı baxımından faydalı polemika açıb, yeni elmi dünyagörüşünün parlaq nümunələrini verib. Qəzetdə siyasət və iqtisadiyyat, mədəniyyət və sosiologiya, fəlsəfə və ədəbi tənqid, biologiya və nəbatat haqqında irəli sürülmüş müddəa və tövsiyələrin böyük bir qismi bu gün də öz təravət və əhəmiyyətini saxlayır. "Əkinçi" XIX əsr Azərbaycan ictimai fikri, mətbuatı, ədəbiyyatı və dilinin, habelə təbiətşünaslığın tarixini öyrənmək üçün çox qiymətli məxəzdir.

Ə.DOSTƏLİ
XQ

Kino aləmində

"İtkin" film tapıldı

Bu yaxınlarda Azərbaycan Dövlət Film Fondunda Əməkdar artist, teatr və kino aktrisası Ətayə Əliyevanın 105 illiyi münasibətilə yazılmış "Bir ömürlük xatirə" kitabının (müəllif Rəhilə Soltanqızıdır) təqdimatı keçirilirdi. Mərasimdə mərhum sənətkarın haqqında danışılan xatirələrlə, göstərilən videoçarxlarla bərabər, illərdən bəri itkin düşmüş qısametrajlı bir film də nümayiş etdirildi. 1963-cü ildə çəkilmiş həmin filmdə Ətayə Əliyeva da oynayıbmış.

Söhbət geniş tamaşaçı kütləsinə çox az məlum olan "Axırıncı namaz" filmindən gedir. Yubiley mərasiminin iştirakçıları sözügedən filmdə Ətayə Əliyeva (Xeyransa) ilə bərabər, məşhur aktyorlar Ağadadaş Qurbanov (Molla Müştəba), Möhsün Sənani (Şahbala), Münəvvər Kələntərli (burada ifa etdiyi Qoca arvad rolu onun ekranda son işi olub, həmin il vəfat edib) və digərlərinin yadigar kadrlarını böyük maraqla izlədilər.

"Azərbaycanfilm" kinostudiyasında istehsal edilmiş bu dramın rejissoru Zeynəb Kazımova, operatoru Əsgər İsmayılov, rəssamı Məmmədağa Hüseynov, bəstəkarı Zakir Bağırov olub. Dövlət Film Fondunda Zeynəb Kazımovanın 110 illik yubileyinə hazırlıq tədbirləri zamanı aşkarlanıb ki, 1968-ci ildə Moskvada çap edilmiş "Sovet bədii filmləri. Annotasiyalı kataloq"un 4-cü cildində yazıldığına görə, kinorejissor həmin adda ikihissəli qısametrajlı bədii film çəkibmiş. Axtarışa başlanıb və ekran əsərinin yeganə nüsxəsi Naxçıvan Dövlət Film Fondunun bazasından tapılaraq, Bakıda elektronlaşdırılıb. Qəribəsi budur ki, ötən onilliklərdə "Axırıncı namaz"ın adına

Azərbaycanda kino haqqında hazırlanmış heç bir kataloq və ya siyahıda rast gəlinməyib.

Cəhalətin tənqidi və fırıldaqçı mollaların ifşası mövzusunda olan dram cəmi 17 dəqiqədən ibarətdir. Tacirlik edən əri Şahbalanın yetim bir qızı qaçırıb onun üstünə günü gətirməsini istəməyən Xeyransa kələkbaz Molla Müştəbadan dua yazmasını istəyir. O isə həm Xeyransa üçün dua yazıb nəzir-niyazını alır, həm də şorgöz tacirin xahişi ilə onun üçün Səriyyə ilə saxta kəbin kəsir. Əvəzində isə sövdələşirlər ki, mollanın camaatdan aldığı qənd, çay və digər nəzirlər Şahbalanın dükanında "xırıd" edilsin. Mollaya qulluqçuluq edən qohumu Şəmsiyyə bunu kənd camaatına xəbər verir və fırıldaqçılar ifşa olunub gülüş hədəfinə çevrilirlər...

P.S: Qeyd edək ki, bu il unudulmaz aktrisa Ətayə Əliyevanın 105 yaşı tamam olur. Onun iştirakı ilə çəkilmiş "Axırıncı namaz" qısametrajlı bədii filminə isə oxucularımız populyar "YouTube" internet platforması vasitəsi ilə baxa bilərlər.

Ə.NƏCƏFXANLI
XQ

Naxçıvanlı alim xarici müsabiqə qalibidir

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, mətnşünas alim, filologiya elmləri doktoru, dosent Səbuhi İbrahimov beynəlxalq tədqiqat müsabiqəsinin qalibi olub.

"Elmdə sonsuz işıq" Beynəlxalq Tədqiqat Mərkəzi tərəfindən təşkil olunan və elmi-pedaqoji müəssisələr arasında keçirilən müsabiqə elmi tədqiqatların stimullaşdırılması, alimlər arasında beynəlxalq elmi əməkdaşlığın təşviqi və fundamental araşdırmaların dəyərləndirilməsi məqsədilə təşkil olunmuşdu. Dosent Səbuhi İbrahimovun filologiya və mətnşünaslıq sahəsində apardığı tədqiqatlar elmi-nəzəri əhəmiyyətinə görə münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Sınağın nəticələrinə əsasən, alim I dərəcəli Diplom və "Ən yaxşı gənc alim" medalı ilə təltif edilib.

Bu mükafat Səbuhi İbrahimovun klassik ədəbiyyatın tədqiqi, mətnşünaslıq və ədəbi irsin qorunması istiqamətindəki elmi

fəaliyyətinin beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınmasının göstəricisidir. Bu cür beynəlxalq nailiyyətlər Azərbaycan elminin qlobal elmi məkanda tanıdılmasına və elmi əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

XQ

Gözəllik ondursa doqquzu dizayn, bəzəkdir

Getdiyimiz bütün məkanlarda gözoxşayan dizayn ilə hazırlanmış al-əlvan dekor işləri həmişə diqqətimizi cəlb edir. Müasir dövrdə bütün bu işlər müxtəlif dizayn və dekor şirkətləri tərəfindən həyata keçirilir. Artıq 10 ildən çoxdur fəliyyət göstərən "Bakı Strafor Kəsim" MMC də belə məkanlardandır.

Bura Bakının mərkəzindən xeyli uzaq məsafədə – Mərdəkanda yerləşir. Bir çox tədbirlərdə gördüyüm qeyri-adi əl işlərinə olan həvəsim və marağım məni bura gətirib çıxardı. Ustalar hər biri öz işini peşəkarlıqla yerinə yetirirdi. Kimisi, strafor (penoplast) üzərində oyma işləri görür, dizayn verir, kimisi də hazır olan maketi boyayırdı. Şirkətin rəhbəri Nahid Eminov və ofis meneceri Zeynəb Nəsirova bizi mehriban qarşıladılar. Nahid bəy sahibkar vəzifəsinə peşə təhsili ilə yüksəldiyini dedi:

– Mədəniyyət və Sənətkarlıq üzrə Peşə Təhsil Mərkəzindən "Tornaçı" ixtisası üzrə məzun olmuşam. Öz işimin sahibi olana

qədər çətin yollardan keçmişəm. Uzun illər başqa bir müəssisədə usta kimi çalışırdım. Daha sonra bu kiçik emalatxananı yaratdım. Burada rəssam və dizayner kimi işləməyə başladım. Hazırda həm dizayner, həm də rəhbər kimi fəaliyyət göstərirəm. Şirkətin əsas məqsədi dövlət əhəmiyyətli tədbirlərin yüksək səviyyədə təşkil olunmasıdır. Çox sayda maraqlı layihələrə imza atmışıq. Ən yaddaqalan işimiz isə Şuşada – Cıdır düzündə nümayiş olunan səməni maketi idi.

Nahid Eminov məhsulların hazırlanma prosesindən də danışdı:

– Bizimlə bir çox rəssam, heykəltəraş və dizaynerlər əməkdaşlıq edirlər. Straforun üstünlükləri çoxdur. Sifarişlərin tez və vaxtında hazırlanması üçün olduqca əlverişli materialdır. Mənfi cəhəti isə kövrək olmasıdır. Biz bunu istehsal zamanı nəzərə alır, daha davamlı materiallardan istifadə edirik. Bütün mərhələlər yüksək dəqiqlik və ən son texnologiyalar ilə həyata keçirilir. Şirkətimizdə dövlət əhəmiyyətli tədbirlərdən əlavə, 3d və 2d dizaynda toy və ad günü dekorlarının kəsimi, hazırlanması və qurulması işləri də icra olunur. Müştərinin sifariş etdiyi eskizləri əvvəlcə dizaynerlər hazırlayır. Bunun üçün Siensi adlanan aparat vasitəsilə kəsimlər həyata keçirilir. Müəyyən hissələr kəsildikdən sonra heykəltəraşlar tərəfindən yonulma prosesinə başlanır. Sonra hazır olan maketləri ustalar xüsusi maye ilə üzləyir, daha gözəl və əlvan görünməsi üçün örtük çəkirlər. Sonda isə rəssam tərəfindən boyama texnikası həyata keçirilir.

N.Eminovdan bu iş üçün tələbə hazırlayıb-hazırlamadıqlarını da soruşduq. Bildirdi ki, bu sahəyə marağı olan tələbələr var ki, oxuduqları peşə liseyindən təcrübə keçmək üçün müraciət edirlər. Ötən il Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən 5 saylı peşə liseyindən bura müraciət olunmuşdu və 4 tələbə təcrübə keçməyə gəlirdi. Artıq həmin təhsil ocağında dekor-dizayn tərtibatı işləri üzrə ayrıca fakültə yaradılıb. Məhz yaradıcılığın bu sahəsi ilə məşğul olan tələbələr orada təhsil alırlar. Onlarla əməkdaşlıq etmək üçün müqavilə imzalanıb.

Xatırladaq ki, əsası 2013-ci ildə qoyulmuş bu şirkət yarandığı gündən korporativ və özəl tədbirlərin, o cümlədən şəhər və dövlət miqyaslı geniş tədbirlərin peşəkar səviyyədə təşkil edilməsi ilə fərqlənir. Şirkət çox sayda maraqlı və müxtəlif layihələrə imza atmışdır. Mərkəz Azərbaycan Hava Yolları, Gənclər və İdman Nazirliyi, "Nargis Fund", Heydər Əliyev Fondu, bir sıra dövlət və özəl müəssisələri ilə əməkdaşlıq edir.

Fidan SALMANOVA
XQ

Tibb professorumuz beynəlxalq akademiyaya üzv seçilib

Azərbaycan Tibb Universitetinin professoru, tanınmış plastik-rekonstruktiv cərrah, tibb elmləri doktoru Vaqif Qələndər dünya tibb elmi və təhsili sahəsində göstərdiyi xidmətlərinə görə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (TDABEA) həqiqi üzvü seçilib. Akademiyanın qərarına əsasən, V.Qələndər "Qızıl ulduz" medalı ilə də təltif edilib.

Bundan əlavə, TDABEA-nın rəsmi tövsiyəsi ilə İsveçrənin Cenevrə şəhərində yerləşən Beynəlxalq Mükafat Komitəsi tərəfindən professor V.Qələndərə "1-ci dərəcəli Hippokrat ordeni" təqdim olunub.

Məlumat üçün bildirək ki, ABŞ-ın Florida Universitetində Rui Fernandesin müəllifi olduğu "Local and Regional Flaps in Head Neck Reconstruction" dərsliyində professor Vaqif Qələndərin "Daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsulu "Vaqif Qələndər metodikası" kimi yer alıb və tədris olunur. Bu istiqamətdə bir çox dərslik və dərs vəsaitlərinin müəllifi olan V.Qələndərin 6 yeni cərrahiyyə metodu, 78 elmi əsəri xarici ölkə jurnallarında və beynəlxalq konfrans materiallarında nəşr edilib.

Qeyd edək ki, professor xaricdə bir çox elmi konfranslarda məruzəçi kimi iştirak edib, ölkəmizdə isə 3 dəfə Beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə konfranslarına qatılıb. O, Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyinin qurucusu və sədri olmaqla, həm də Beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə Konfederasiyasının idarə heyətinin üzvü, Beynəlxalq Plastik və Estetik Cərrahiyyə Assosiasiyasının milli katibidir.

Qəzənfər QASIMOV
XQ

Beynəlxalq həyat

Rusiya–Ukrayna səmasında "dron buludu"

3 ildən çoxdur ki, Rusiyanın Ukraynaya hücumu ilə başlanan ağır müharibə davam edir. Eyni zamanda, son günlər ərzində Vaşinqtonun gərgin səyləri ilə tərəflərin tezliklə atəşkəsə imza atacaqlarına ümidlər də artır. Bununla bərabər, dünən rəqiblər qarşı tərəfin şəhər və kəndlərinə kəskin aviazərbələr endiriblər.

Ukrayna Müdafiə Nazirliyindən mediaya bildiriblər ki, gün ərzində Rusiya aviasiyası tərəfindən Ukrayna ərazisinə 39 dron atılıb, onlardan 28-i səmada zərərsizləşdirilib. Rusiya tərəfi isə rəqibin aviazərbələri barədə açıqlama verməyib.

Aprelin 3-də Rusiya aviasiyasının Ukraynanın Krivoy Roq şəhərinə endirdiyi raket zərbələri nəticəsində 4 nəfər həlak olub, 13 nəfər yaralanıb. Bir gün qabaq isə Xarkov şəhəri ağır dron hücumuna məruz qalıb. Buradakı bir çox inzibati binalara və özəl mülklərə ciddi zərər dəyib. Xarkovun inzibati ərazisində və ətraf qəsəbələrdə 8 nəfərin yaralandığı məlum olub.

Bundan başqa, dünən Rusiya hərbçiləri Donetsk vilayətindəki Pokrovsk şəhərinə də ağır raket və dron zərbələri endiriblər. Pokrovskdan verilən məlumata görə, bu zaman 1 nəfər ölüb, 6 nəfər yaralanıb. Görünən budur ki, Rusiya Silahlı Qüvvələri bu mühüm strateji obyekti nəyin bahasına olursa-olsun ələ keçirməyə can atırlar.

Bir çox ekspertlər hazırda cəbhədə mövqe döyüşlərinin getdiyini bildirirlər. Rəqiblər, həmçinin uzaq məsafələri vuran raket və dron silahlarının "mübadiləsi" ilə məşğuldurlar. Məqsəd qarşı tərəfi hərbi, iqtisadi və texniki cəhətdən mümkün qədər çox tükəndirməkdir.

Ukrayna hərbçiləri də son günlər xeyli fəallaşıblar, onlar Rusiyanın şəhər və kəndlərini mümkün qədər tez-tez "rahatsız" etməyə çalışırlar. Dünən Rusiyanın Belqorod şəhəri yenidən aramsız dron zərbələrinə məruz qalıb. Orada dağıntıların olduğu barədə məlumatlar yayılıb. Canlı itkilərin olub-olmadığı haqqında isə informasiyalar daxil olmyaıb.

Ukrayna prezidenti V.Zelenski aprelin 3-də ölkəsinin hərbi strukturlarının rəhbərləri ilə görüşərək, Ukraynada xarici hərbi kontingentin yerləşdirilməsi ilə bağlı bir çox zəruri məsələləri müzakirə edib. Bəllidir ki, atəşkəs elan olunacağı təqdirdə Ukrayna ərazisində bir çox ölkələrin hərbçiləri yerləşdirilə bilər. Lakin bu məsələnin təfərrüatları bəlli deyil.

Bu arada Rusiyanın birbaşa investisiyalar fondunun rəhbəri Kiril Dmitriyev Vaşinqtona səfər edib. Gündəmdə Ukrayna ilə bağlı müzakirələrdir. Dmitriyev eyni zamanda Vaşinqtona Kremlin tələblərini çatdıracaq.

Ağ ev Ukraynada atəşkəsin əldə olunması üçün bütün rıçaqları işə salmağa hazırdır. ABŞ prezidenti Donald Trampın Ukrayna və Rusiya üzrə xüsusi nümayəndəsi Keyt Kelloq deyib ki, Vaşinqton 30 günlük atəşkəsə nail olmaq istəyir. Onun sözlərinə görə, Ukrayna və Rusiya tam atəşkəsə yaxınlaşıb. Belə bir addımın atılması üçün sadəcə iki ölkənin şərtlərini razılaşdırmaq lazımdır.

Kelloq, həmçinin bildirib ki, cənab Tramp həm Zelenski, həm də Putinlə əlaqə saxlayır və o, iki ölkə arasında razılaşma əldə edilə biləcəyinə əmindir. Yeri gəlmişkən, qlobal mediada ABŞ-ın NATO-nu tərk edəcəyi barədə xəbərlər yayılır. Dövlət katibi Marko Rubio deyib ki, dünya və yerli mediada Avroatlantik Alyans ilə bağlı yayılan "bəzi isterikalar" yersizdir: "Biz NATO-nun daha güclü olmasını istəyirik".

Dünən qəzetimiz çapa hazırlanarkən məlum oldu ki, Ukrayna ordusu Donetsk vilayətinin Andreyevka qəsəbəsi ərazisində rusların 20-dən çox hərbçisini və 19 zirehli texnikasını məhv edib. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. "Ukrayna əsgərlərinin effektiv hücumlarının nəticəsi olaraq düşmənin zirehli texnikalarından 7-si tamamilə məhv edilib, 12-si isə zədələnib. Canlı qüvvəyə gəlincə, onların 18 hərbçisi öldürülüb, 7-si isə yaralanıb", - məlumatda deyilir.

Göründüyü kimi, Ağ evin yeni sahibinin gərgin səylərinə baxmayaraq, Rusiya ilə Ukrayna arasındakı savaşı hələlik heç cür dayandırmaq mümkün olmur. Hər iki xalq bundan böyük əziyyət çəkir.

M.HACIXANLI
XQ

58 min ailəyə torpaq çıxarışı verilib

Prezident İlham Əliyevin 7 oktyabr 2021-ci il tarixli "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" Fərmanına əsasən, 58 min ailə pay torpaqlarına çıxarış əldə edib.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sədr müavini Elşad Məmmədovun sözlərinə görə, indiyədək 375 min torpaq sahəsinin dövlət aktı dövlət reyestrindən çıxarışla əvəzlənib.

XQ

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının

balansındakı bəzi əmlakların (aktivlərin) satışa çıxarılması bərədə

ELAN

I. Lotlar üzrə satılacaq əmlaklar barədə məlumat:

1. Qızıl-ziynət əşyaları.

2. Alqı-satqıda iştirak etmək istəyən şəxslər satış gününə ən geci bir gün qalmış "Aqrarkredit" QSC-nin baş ofisinə ərizə ilə müraciət etməlidirlər (Ünvan- AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125).

II. Əmlakla, onun növü, parametrləri ilə tanış olmaq, satın alınması qaydası və müddəti:

1. Qızıl-ziynət əşyalarının satışı 5 may 2025-ci il saat 14.00-da "Aqrarkredit" QSC-nin baş ofisi - Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda yerləşən ofisində həyata keçiriləcəkdir. Alıcılar qızıl-ziynət əşyalarının çeşidi və lot üzrə onların satış qiymətləri ilə göstərilən ünvanda tanış ola bilərlər.

2. Eyni əşyaya iki və daha çox təklif irəli sürülərsə, əşya daha çox qiymət təklif edən şəxsə satılacaqdır.

Əlaqələndirici şəxs- Şahin Seyidov. Telefon-050-235-99-90.

XXI əsrin "rüsum savaşı"

ABŞ dünyaya yeni ticarət qaydaları diktə edir



ABŞ Prezidenti Donald Tramp 185 ölkəyə qarşı yeni rüsumlar tətbiq etdiyini açıqladı. Ağ ev sahibi bu addımını Birləşmiş Ştatların ticarətində tarazlıq yaratmaq istəyilə əlaqələndirdi. Bununla belə, bu tədbirlərin beynəlxalq ticarət sistemini əhəmiyyətli dərəcədə yenidən formalaşdıracağına, ABŞ-ın dünya ticarətindəki payını azaldacağına və ölkə iqtisadiyyatına baha başa gələcəyinə dair proqnozlar səsləndirilir. Mütəxəssislərin əksəriyyəti belə düşünür ki, yeni rüsumlar ABŞ-da idxalı bahalaşdıra və inflyasiyanı sürətləndirə bilər. Aparıcı iqtisadi güc mərkəzlərinin də adekvat addım atacağı təqdirdə proqnozların özünü doğrultmaq şansı yüksəkdir.

Gecə yarısı Ağ evin Çəhrayı bağında çıxış edən ABŞ Prezidenti Donald Tramp yeni rüsumların aprelin 5-dən qüvvəyə minəcəyini bildirdi. ABŞ-ın "güzgü" adlandırdığı rüsumlar isə aprelin 9-da gecə yarısı qüvvəyə minəcək. Maraqlıdır ki, Amerikanın yeni rüsumlar siyahısında Rusiya yoxdur. Ölkənin maliyyə naziri Skott Bensentin "Fox News"a verdiyi açıqlamada bunu onunla izah edir ki, "ABŞ Rusiya ilə ticarət aparmır".

Aprelin 3-dən ABŞ-a idxal edilən bütün xarici avtomobillərə ayrıca 25 faizlik rüsum tətbiq ediləcək. Lakin "Bloomberg" agentliyinin məlumatına görə, mayın 3-dən bu, həmçinin 150 növ komponentə də şamil ediləcək. "Reuters"in hesablamalarına görə, bu, ABŞ-a 600 milyard dollar dəyərində idxala təsir göstərəcək. Mütəxəssislər bildirirlər ki, Amerika bazarının ən böyük avtomobil tədarükçüsü Yaponiyadır və Tokionun ABŞ rüsumlarının artırılmasından itkiləri ildə təqribən 12 milyard dollar olacaq.

Qərb mətbuatının məlumatına görə, ABŞ-a kompüter avadanlığının bütün idxalını əhatə edən dörd rəqəmli əmtəə nomenklatura kodları qrupunun da tarif fərmanına daxil edilməsi təəccüblə qarşılandı. Bu sahənin 2024-cü ildə həcminin 138,6 milyard dollar təşkil etdiyi vurğulanır. Bundan başqa, Çindən ABŞ-a poçt vasitəsilə ucuz (800 ABŞ dollarından az) malların rüsumsuz idxalının mümkünlüyünü aradan qaldıran sərəncam da imzalandı. Bu göndərişlər də avtomatik olaraq 25 ABŞ dolları və ya gömrük dəyərinin 30 faizi məbləğində poçt xidmət vergisinə cəlb olunacaq, minimum rüsum isə hər parsel üçün iyunun 5-dən 50 ABŞ dollarına qədər artırılacaq. Mütəxəssislər qeyd edirlər ki, bu, rüsumsuz idxal üçün əsas kanaldır. Belə ki, "Reuters" mənbəsinin məlumatına görə, 2024-cü ildə gömrük rəsmiləşdirilməsi tələb etməyən bağlamaların sayı 1,4 milyardı keçmişdi.

Yeni rüsumlardan əldə olunan ümumi gəlir ildə 600 milyard dollar səviyyəsində təxmin edilir. Bu, ölkənin 2024-cü ildə 1,2 trilyon dollara çatan ticarət kəsirinin yarısına bərabərdir. ABŞ hökuməti bildirir ki, yeni rüsumlar ölkə sənayesini "yenidən işə salacaq" və üçüncü ölkələrə köçürülmüş istehsalın "qaytarılmasını" asanlaşdıracaq. Bununla belə, Qərb mütəxəssisləri vurğulayırlar ki, ABŞ-da proteksionizmin potensial effektivliyi qlobal ticarətin yenidən qurulmasını və artan ticarət maneələri ilə bölünmüş yeni yerli blokların formalaşmasını təşviq edəcək. Dünən gecə Kanadadan Avstraliyaya qədər əksər böyük iqtisadiyyatların nümayəndələri ən azı ABŞ-a qarşı cavab tədbirlərinin mümkünlüyünü öyrənmək niyyətlərini açıqladılar. Məsələn, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen yeni rüsumların qlobal iqtisadiyyata ağır zərbə vuracağını dedi və əlavə etdi ki, Avropa İttifaqı cavab tədbirləri hazırlayır.

Bununla belə, Donald Trampın əvvəlki prezidentlik dövründə Çinə elan etdiyi ticarət müharibəsi göstərir ki, nəticə ABŞ-ın özü üçün də itki ola bilər. ABŞ-ın "sövdələşmə" şəklində başlatdığı qarşıdurma başa çatdıqdan sonra Çinin ölkəyə ixracı artdı, əks-ticarət axını faktiki olaraq dəyişməz qaldı və ticarət kəsiri daha da pisləşdi. Qlobal ticarət sisteminin qurulması, Ümumdünya Ticarət Təşkilatının formalaşması və ticarət maneələrinin aradan qaldırılması iqtisadi səbəblərlə, ölkələrin qarşılıqlı faydası və qeyri-məhsuldar xərclərin azaldılması üçün rəqabətin genişlənməsi ilə əsaslandırıldı və bu ideologiyanın iqtisadi təcridin xeyrinə rədd edilməsi istər-istəməz əks təsirlərə səbəb olacaq.

Dünya birjaları da ABŞ-ın yeni rüsum siyasətinə enişlərlə cavab verir. Dünən qlobal bazarlarda səhmlər ucuzlaşdı və investorlar diqqətlərini istiqrazlara, qızıla və Çin valyutasına çevirirlər. İş dünyası qorxur ki, ABŞ prezidenti Donald Trampın yeni tarifləri dünyanı tənəzzülə sürükləmək təhlükəsi yaradan ticarət müharibəsini gücləndirəcək. "Reuters" xəbər verir ki, Trampın idxal vergilərini bir əsrin ən yüksək səviyyəsinə qaldıran yeni tariflər tətbiq etməsindən sonra dollar ABŞ istiqrazlarının gəlirləri ilə birlikdə son altı ayın ən aşağı səviyyəsinə düşdü. "Apple" və "Nvidia" kimi korporasiyaların bazar qiymətləri kəskin azaldı. Digər nəhəng şirkətlərin də eyni aqibətlə üzləşəcəkləri gözlənilir.

S.ELAY
XQ

"Azərelektrikşəbəkətikinti" ASC səhmdarlarının nəzərinə!

22 may 2025-ci il saat 14.00-da "Azərelektrikşəbəkətikinti"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1.Cəmiyyətin 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid idarə heyətinin hesabatı.

2. Cəmiyyətin ləğv olunması.

3. Cəmiyyətin ləğv olunması ilə əlaqədar ləğvetmə komissiyasının (təsviyəçinin) təyin edilməsi və ona müvafiq səlahiyyətlərin verilməsi.

4. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda iştirak etmək üçün gələn şəxslərin qeydiyyatı saat 12.00 -dan 14.00-a kimi aparılacaqdır.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Ünvan-Bakı şəhəri, Nəsimi rayonu, Rövşən Cəfərov küçəsi 17.

İdarə heyəti

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin

"F5 Networks" lisenziyalarının satın alınması üçün açıq tender tarixinin uzadılması barədə elan

Nəzərinizə çatdırırıq ki, 2025-ci il martın 14-də "Azərbaycan Hava Yolları" QSC tərəfindən elan edilmiş "F5 Networks" lisenziyalarının satın alınması üçün açıq tender müsabiqəsinin tarixinin 7 aprel 2025-ci il saat 17.00-a kimi uzadılması barədə qərar verilmişdir. Zəhmət olmasa təkliflərin son təqdim edilmə tarixinin 7 aprel 2025-ci il saat 17.00-a kimi olmasını nəzərə alasınız.

"Bakı Teleqrafı" ASC səhmdarlarının nəzərinə!

23 may 2025-ci il saat 11.00-da "Bakı Teleqrafı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. 2024-cü ilin yekunu üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı,

2. İdarə heyətinin üzvlərinin və sədrin seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

İclasın keçiriləcəyi ünvan– Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyov küçəsi, 36 ("Azərpoçt" MMC-nin inzibati binasının 6-cı mərtəbəsi).

Əlaqə telefonu– (+99412) 493 52 15.

"Bakı Teleqrafı" ASC-nin İdarə heyəti

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin istifadəsinə verilmiş aşağıda göstərilən inzibati xəta haqqında qərar (qərardad) blankları itdiyi üçün etibarsız sayılır:

- "İnzibati tənbeh vermə haqqında Qərar" blankı (4 nömrəli əlavə) 2 ədəd - MN № 1310891 və MN № 1310892.
- "İnzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında Qərar" blankı (5 nömrəli əlavə) 5 ədəd - MN № 0021246, MN № 0021254, MN № 0021256, MN № 0021257 və MN № 0021259.
- "İnzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında Qərar" blankı (7 nömrəli əlavə) 3 ədəd - MN № 0212942, MN № 0212947 və MN № 0212948.
- "İnzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə Qərardad" blankı (8 nömrəli əlavə) 3 ədəd - MN № 0434791, MN № 0434792 və MN № 0434793.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 64 (30758) 4 aprel 2025-ci il, cümə

İdman

Millimiz FİFA reytinqində geriləyib

Milli komandaların FİFA reytinqi açıqlanıb.

Hesabında 1150,64 xal olan Azərbaycan yığması 2025-ci ilin ilk cədvəlində 119-cu pillədədir. 8,06 xal itirən Fernandu Santuşun yetirmələri ötən siyahı ilə müqayisədə 2 pillə geriləyib.

Buna ötən ay keçirilən yoldaşlıq oyunları səbəb olub. Millimiz evdə Haitiyə 0:3, Belarusa 0:2 hesabı ilə məğlub olub.

Siyahıya Argentina başçılıq edir (1886,16).

Şəhidin xatirəsinə cüdo yarışı

Şuşa Rayon Uşaq-Gənclər və İdman Məktəbinin təşkilatçılığı ilə keçirilən cüdo üzrə açıq birincilik başa çatıb.

Vətən müharibəsi şəhidi Ülvü Mikayılovun xatirəsinə həsr olunmuş turnir Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyası və Qarabağ Regional Gənclər və İdman İdarəsinin dəstəyi ilə keçirilib. Ölkənin müxtəlif bölgələrindən 300-dən çox gənc cüdoçunun qatıldığı yarışın açılış mərasimində Dövlət Himni səsləndirilib və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər Ü.Mikayılovun qəhrəmanlığından, onun vətənpərvər ruhundan danışaraq, bu cür tədbirlərin gənc nəslin milli-mənəvi dəyərlərlə böyüməsində mühüm rol oynadığını vurğulayıblar.

Turnirin sonunda öz çəki dərəcələrində qalib olan idmançılar diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

"Sabah" yüksək məbləğdə cərimələnib

AFFA İntizam Komitəsi "Sabah" klubunu 4 min manat cərimələyib.

Buna komandanın məşqçisi Aleksey Antonyukun "Neftçi"yə qalib gəldikləri (2:1) Azərbaycan Kubokunun yarımfinal mərhələsinin ilk matçında hakimlər briqadasını təhqir etməsi səbəb olub. Məşqçiyə 5 oyunluq cəza verilib. Sınaq müddəti 3 ay təyin edilib.

"Neftçi" isə azarkeşlərinin pirotexniki vasitədən istifadə etməsinə görə 1500 manat cərimələnib.

"Araz- Naxçıvan" klubu 700 manat ziyana düşüb. Buna Naxçıvan klubunun 4 oyunçusunun "Qarabağ"ı məğlub etdikləri (1:0) görüşdə sarı vərəqə alması səbəb olub.

L.QURBANOVA
XQ

"Gündoğar ölkə"nin gilənar təntənəsi

Bugünlərdə Tokioda gilənar ağaclarının çiçəkləməsi şəhərin bağ-bağçalarını ağ örpəyə bürüyüb. Yaponlar min ilə yaxındır ki, hər il yazın əvvəllərində gilənar (sakura) ağacının çiçək açmasını bayram edirlər. "Gündoğar ölkə"də bu bayramı "hanami" adlandırırlar. Yapon dilində bu sözün hərfi mənası "çiçəklərdən zövq alma" deməkdir.

Aprelin ilk günləri paytaxt Tokioda gilənar ağaclarının tam çiçəklənmə dövrüdür. Bu günlərdə bu nəhəng meqapolisin küçə, park və meydanlarında qələbəlik olur. Əhali hər il albalı ağacının çiçək açmasını şəxsi həyatlarında yeni dönəmin başlanğıcı kimi qəbul edirlər. Bu mənada "hanami" hardasa bizim Novruz bayramına bənzəyir.

Bu günlərdə Tokionun məşhur Yeno parkında 1000-dən çox sakura çiçək açıb. Çiçəklər ətrafa nağılvari bir gözəllik və xoş ovqat bəxş edir. Təkcə çiçəklər deyil, onların ləçəklərinin çox sayda öz rəng çalarları var. Hətta ən mahir rəssamlar belə bu gözəlliyi olduğu kimi təsvir etməkdə çətinlik çəkdiklərini etiraf edirlər.

"Hanami" bayramı günlərində ölkənin adi həyatı sanki donur. Ata və analar, baba və nənələr, yeniyetmə və tələbələr, məmurlar və iş adamları, bir sözlə, hamı gilənar ağaclarının çiçəklədiyi parklara axışırlar. Sakinlər çiçək çətirli ağacların altında bardaş qurub oturur, çox vaxt özləri ilə gətirdikləri ləziz təamlardan dadırlar. Hamı bir-biri ilə bayramlaşır, xatirə fotoları çəkdirir.

Uşaqlar isə bu günlərdə, adətən, "hanami–uki" oynayırlar. Oyun zamanı iştirakçılar sakura budaqlarından qopan çiçək ləçəklərini havadaca tutmağa çalışırlar. Kimin ovcunda daha çox ləçək olsa, təbii ki, o, qalib hesab olunur.

"Hanami" bayramının qədim tarixi var. Belə ki, əsrlər, qərinələr öncə yapon imperatorları gilənarlar gül açanda dost ölkələrdən ali qonaqları dəvət edərdilər. XVII əsrdən etibarən isə "hanami" ümumxalq bayramına çevrilib. Bu gözəl ənənə günümüzdə yeni şövq və sevgi ilə davam etdirilir.



Albalı ağaclarının çiçəkləməsini günün istənilən çağında, istər səhər, istərsə də gündüz, hətta axşamlar müşahidə etmək olar. Gecələr təşkil edilən hanamilərə isə "yozakura" deyilir. Bunun öz heyranları, xiridarları olur.

Bayramın mərkəzi məkanı sayılan paytaxtın Yeno parkının bir çox sərt qaydaları da mövcuddur. Ərazini çirkləndirmək və gilənar budaqlarını əymək və onların üzərindəki gülləri əzmək olmaz. Axı "hanami" özündə saflıq, təmizlik və toxunulmazlığı ehtiva edir.

Qeyd edək ki, Yaponiya sakinləri sakuranı ölkələrinin rəmzi, bu ağacın çiçəklərini isə ölkənin qeyri-rəsmi gerbi hesab edirlər. Açdıqdan bir-iki həftə sonra tökülməyə başlayan sakura həyat üçün inanılmaz yaxşı bir metaforadır: həyat qısa, gözəllik müvəqqətidir, ona görə hər şeyin dadını çıxarmaq şərtdir!

İlk çiçəklənmədən son çiçəklənməyə qədər albalı ağacı mövsümü bir ay çəkir, hər bir ağac təxminən bir həftəyə qədər çiçəkli qalır. Ağacların ömrü isə, ümumiyyətlə, 16–20 ildir. Sakuraların bəzi növləri 250 ilə qədər yaşaya bilər. Ən yaşlı albalı ağacının 2000 ilə qədər ömrü olduğu ehtimal olunur.

Yaponların gilənar ağaclarının çiçəklərinə olan sonsuz sevgisini ilk dəfə keçmiş ittifaq oxucuları üçün ötən əsrin 70-ci illərində "İzvestiya" qəzetinin Yaponiyada xüsusi müxbiri vəzifəsində çalışmış tanınmış jurnalist Vsevolod Ovçinnikov "kəşf edib". Onun MDB məkanında "bestsellər"ə çevrilən "Sakura budağı" əsəri Azərbaycan dilinə də tərcümə olunub.

M.HACIXANLI
XQ

Aprel döyüşlərinin elektron salnaməsi

Milli Kitabxananın əməkdaşları tərəfindən "Aprel döyüşləri" adlı elektron məlumat bazası kitabxananın saytı vasitəsilə oxuculara təqdim olunub. Bu barədə XQ-yə Axundov adına Milli Kitabxananın Elmi, Biblioqrafik və Elektron İnformasiya Xidmətləri şöbəsinin müdiri Könül Kərimova məlumat verib. O bildirib ki, məlumat bazası bir neçə bölmədən ibarətdir.

"İlk bölmə "Rəsmi sənədlər" adlanır. Burada Aprel döyüşləri ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar yer alıb. İkinci bölmə "Dördgünlük müharibə" adlanır.

"Aprel şəhidləri" bölməsində döyüşlərdə canlarını fəda etmiş şəhidlərin ad, soyad və ata adları göstərilir. "Aprel döyüşlərinin xatirəsi" bölməsində döyüş iştirakçılarına verilmiş fəxri adlar, Horadiz şəhərində ucaldılmış Aprel şəhidlərinə xatirə abidəsi, "Aprel döyüşləri – 2016. Lələtəpə" adlı poçt markaları, "Şəhidlər unudulmur" layihəsi çərçivəsində 72 nömrəli məktəb-liseyin sinif otaqlarına Aprel şəhidlərinin adlarının verilməsi və başqa məlumatlar təqdim edilir.

Foto və videoqalereya bölməsində Aprel döyüşləri zamanı çəkilən foto və video materiallar toplanmışdır.

Qeyd edək ki, elektron məlumat bazası ilə kitabxananın rəsmi səhifəsində "E-Kataloq" bölməsinə keçid edərək, tanış olmaq mümkündür.

Fidan SALMANOVA,
Elşən AĞALAROV (foto)
XQ

"Molla Nəsrəddin" jurnalı və Naxçıvan"

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə "Molla Nəsrəddin" jurnalı və Naxçıvan (1906–1917)" ikicildliyinin I cildi işıq üzü görüb.

Kitabın baş elmi məsləhətçisi və "Ön söz"ün müəllifi akademik Teymur Kərimlidir. Azərbaycanın ilk satirik jurnalı olan "Molla Nəsrəddin" (1906–1931) vaxtilə bütün bölgələrimizlə yanaşı, Naxçıvanda da mövcud olmuş dini mövhumat və xurafat elementlərinin, təhsilə biganə münasibətin və s. tənqidinə xüsusi yer ayırırdı. Jurnal satirik üslubla bu cür cəhalət və gerilik hallarını, bir sıra sosial bəlaları ictimai diqqətə çatdırır, insanların öz nöqsanlarını dərk etməsi, maariflənməsi üçün çalışırdı.

Kitabın I cildinə "Molla Nəsrəddin" jurnalının 1906–1917-ci illərdə işıq üzü görən nömrələrinin Naxçıvanla bağlı materialları və karikaturaları daxil edilib.

Leyla HADİYEVA,
tələbə-jurnalist

ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri və Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbələrinin əməkdaşları Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə atası

FƏRHAD HACIYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

SAHİB MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

HÜSEYN MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzova əmisi

VAQİF MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ziyad Səmədzadəyə qardaşı

MƏZAHİR MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi ingilis dilinin leksikologiyası kafedrasının baş müəllimi Lailə Qədimovaya atası

SAHİB MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Katibliyi İdarəsinin rəisi Nahid Məmmədzadəyə atası

ŞİRASLAN MƏMMƏDOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Anar Turana qayınatası

ŞAHİN ƏHMƏDOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri professor Rəna Əliyeva və kollektivi görkəmli alim, professor

TAMFİRA ƏLİYEVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

HAVA

Abşeronda yağmursuz və duman, bölgələrdə yağış

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 4-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq.

Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 10-14°, gündüz 18-22° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə olacaq.

Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 2-7°, gündüz 12-17° isti olacaq.

Q.QASIMOV
XQ

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3250
SİFARİŞ 644
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00